AZƏRBAYCAN MİLLİ EİMLƏR AKADEMİYASI
TARİX İNSTİTUTU

ƏLYAZMASI HÜQUQUNDA

NAĞIYEVA – MUXTAROVA DİLARƏ ƏLİƏSGƏR QIZI

# AĞA MUSA NAĞIYEVİN XEYRİYYƏÇİLİK VƏ İCTİMAİ FƏALİYYƏTİ

*Tarix elmləri üzrə Fəlsəfə elmləri doktoru*

***D İ S S E R T A S İ Y A***

*Elmi rəhbər:*
*Tarix elmləri üzrə*
**Həsənov Hacı Nuru oğlu**

**Rəyçilər:**

**Tarix elmləri doktoru, professor - Musa Qasımlı**

**Filologiya elmləri doktoru - Jalə Əliyeva**

**Tarix üzrə Fəlsəfə elmləri doktoru – Fərhad Cabbarov**

**Bakı - 2012**

## M ÜN DƏ R İ C AT

16 qaldım


**Giriş** ________________________________ **3**

**I Fəsil. Azərbaycan neft sənayesi və Ağa MusaNağıyevinsahibkarlıqfəaliyyəti**__________

**1.1. Azərbaycan neft sənayesinin inkişafında yerli kapitalın rolunun artması**

**I.2. A.M.Nağıyevin sahibkarlıq fəaliyyəti**

**II Fəsil. A.M. Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti**

**2.I. A.M.Nağıyevin Azərbaycanda xeyriyyəçilik hərəkatında rolu**

**2.2. Bakı şəhərinin memarlığına A.M. Nağıyevin töhfəsi**

**III Fəsil A.M. Nağıyev və onun varislərinin sonrakı taleyi**

**3.I. A.M. Nağıyevin vəfatından sonra varislik məsələsi**

**3.2. A.M. Nağıyevin varisləri sovet represiyası illərində**

**Nəticə**

**Ədəbiyyat**

**A.M.Nağıyevin əmlakının siyahısı**


## GİRİŞ

**<u>Mövzunun aktuallığı.</u>** Ötən əsrin sonlarında Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Vətən tarixşünaslığı, tarix elmi qarşısında böyük perspektivlər açılmışdır. Uzun illər üzərinə kölgə salınan, qadağalar qoyulan mövzular tədqiq olunmaqda, yeni-yeni mənbə materialları elmi dövriyyəyə cəlb edilməkdədir. İndi tarix elmi azərbaycançılıq ideologiyası aspektindən yenidən işlənilir, İllərlə qadağa qoylumuş mövzulara işıq salınır, arxivlərin küncünə atılmış qiymətli sənədlər aşkarlanır.

Sovet təbliğatının tədqiqini qadağan etdiyi mövzulardan biri də Azərbaycanda neft milyonçularının, onların xeyriyyəçilik hərəkatında rolunun öyrənilməsi, millətin görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətlərinin araşdırılması olmuşdur. Uzun sovet onillikləri boyunca onların üzərinə «burjua» damğası vurularaq adlarını ləkələməyə çalışmışlar.

Amma XX əsrin əvvəllərindən milli oyanışın artdığı şəraitdə bu mesenatlar millətin yaddaşında elə dərin izlər buraxmış, öz xidmətləri ilə millət qarşısında elə şöhrət qazanmışdılar ki, onları tarixdən silmək və ya ləkələmək sovet ideologiyasına nəsib ola bilməmişdir. Belə şəxsiyyətlərdən biri də Ağa Musa Nağıyevdir.

Kimdir Ağa Musa? Onun haqqında nə bilirik? Gələcək nəsil nə biləcək? Bu vaxtadək onun şəxsi keyfiyyətlərindən çox az bilib, gördüyü böyük işlər haqqında düşünməmişik. Azərbaycan Sovet Ensiklopediyasında Ağa Musa Nağıyevin iri neft sahibkar olması və onun binalarının milliləşdirilməsi haqda çox səthi və qısa məlumat verilib. Onun xeyriyyəçiliyi haqda bir kəlmə belə yazılmayıb.

Hətta, Azərbaycan Sovet Ensiklopediyasında Ağa Musa Nağıyevə mənsub olan Binəqədi neft mədənlərində hasil olunan neftin 1900-cü ildə 10 mln. puda, 1904-1908-ci illərdə isə

12.328 mln. puda çatması haqda; bu mədənlərdə 800 nəfərədək fəhlənin çalışması, bu sahibkarın milyonlarının saya-hesaba gəlmədiyi haqda heç bir məlumat verilməyib.

Bu baxımdan Ağa Musa Nağıyevin Azərbaycan neft sənayesinin inkişafında xidmətlərinin, sahibkarlıq, habelə xeyriyyəçilik və ictimai fəaliyyətinin tədqiq edilməsi, həm Vətən tariximizin daha bir qaranlıq səhifəsinə həqiqət işığı salmaq baxımından, həm də bu insanın əməlləri müqabilində onun ruhu qarşısında heç olmasa mənəvi borcun ödənilməsi baxımından vacib bir vəzifədir.

**Tədqiqatın xronoloji çərçivəsi.** XIX əsrin sonları və XX əsrin 20-ci illərinə qədər olan dövr – böyük dəyişikliklərlə xarakterizə olunur: Azərbaycan maarifçilik hərəkatı inkişaf etmiş, milli qəzetlər meydana gəlmiş, milli şüurun, özünüdərkin formalaşmasında ziyalıların rolu sahibkarlar tərəfindən dəstəklənmiş, həmçinin Azərbaycanı müstəqilliyə aparan hərəkat başlamış və nəhayət Azərbaycan Xalq Cümhuriyyətinin tarix səhnəsinə qədəm qoyması ilə Şərqdə ilk demokratik dövlət modeli formalaşmışdır. Bu dövr milli neft sənayesinin inkişafı, yerli burjuaziyanın rolunun artması, böyük sənaye infrastrukturunun yaradılması ilə yadda qalır. Dissürtasiyada həmçinin Ağa Musa Nağıyevin varislərinin sovet repressiya illərində məruz qaldıqları ağır həyat tərzi izlənilmiş, sovet cəmiyyətində mesenatın varislərinin başına gətirilən müsibətlər, sıxıntılar və həbslər sənədlər vasitəsi ilə tədqiq edilmişdir. Bu baxımdan dissertasiyanın xronoloji çərçivəsi XIX əsrin sonlarını, XX əsrin əvvəllərini əhatə edir.

**Problemin öyrənilmə səviyyəsi.** Dissertasiyada tədqiqat obyektinə çevrilmiş problemin ayrı-ayrı aspektləri müxtəlif tarixçi alimlər tərəfindən araşdırılmışdır. Azərbaycan alimləri böyük əmək sərf edərək həm neft sənayesi, həm də

xeyriyyəçilik hərəkatına dair sanballı əsərlər ortaya qoymuşlar. Sovet dövrünün ideoloji problemlərinə baxmayaraq, bu monoqrafiyalarda dövrlə bağlı təsəvvür formalaşıb, zəngin və qiymətli faktoloji materiallarla zəngindir.

Bu baxımdan: -Mahmud İsmayılovun (Исмаилов М.А.- К вопросу о ликвидации откупной системы в нефтяной промышленности Азербайджана; Труды института истории и философии АН Азерб.ССР, т.II Баку, 1952г.; Социально-экономичкеская структура Азербайджана в эпоху империализма) -Баку, 1982г.; İ.V. Striqunovun (Стригунов И.В.-Из Истории формирования Бакинского пролетариата 70-90гг.XIX в.)- Баку,1960г. сящ. 246-247.; Tofiq Vəliyevin (Велиев Т.Т.- Во времена Империализма пролетариат и промышленность Азербайджана) -Баку, 1987г.Сящ. 68. Азерб. Национольный Гос.Архив. - adlarını çəkmək olar.

Eyni zamanda dövrün siyasi mənzərəsini canlandırmaq üçün Dilarə Seyidzadənin (Сейидзаде Д.Б. Из истории Азербайджанской буржуазии начало XX века);

S.Süleymanovanın və eləcə də İ.Bağırovanın tədqiqatları olduqca qiymətlidir. Problemə həmçinin Azərbaycanın ümumiləşdirilmiş tarixlərində, Xalq Cümhuriyyətinin ensiklopediyasında və sair əsərlərdə toxunulmuşdur. Bu əsərlər dövrlə bağlı obyektiv təəssürat yaratsa da, orada məhz Ağa Musa Nağıyevin fəaliyyəti, təbii ki, tam nəzərə çarpmır.

Bunlarla yanaşı, M.Süleymanovun , Q. İlkinin əsərlərində həmin dövrün müasirlərinin xatirələri əsasında zəngin və geniş məlumatlar verilir.

Eyni zamanda D.Nağıyevanın uzun illər A.M.Nağıyevin irsinin tədqiqinə yönəlmiş əsərləri də diqqət mərkəzindədəir. Bu əsərlərdə, bir qayda olaraq, arxiv materiallarına istinad olunaraq dövrün mənzərəsi canlandırılır və eyni zamanda A.M.Nağıyevin

fəaliyyətinin öyrənilməsi ilə bağlı sistemli yanaşma ortaya qoyulur.

**<u>Tədqiqatın məqsəd və vəzifələri</u>** - mövzunun akyuallığı və əhəmiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmişdir. Dissertasiyada aparılan tədqiqatın əsas məqsədi mövcud mənbələr və tarixşünaslıq bazası əsasında Ağa Musa Nağıyevin sahibkarlıq və xeyriyyəçilik fəaliyyətini tədqiq etmək və bununla bağlı elmi ümumiləşdirmələr aparmaqdan ibarətdir. Bu məqsədə nail olamaq üçün, dissertasiya işində XIX-XX əsrlərdə Azərbaycanda neft sənayesinin inkişafının ümumi bəhs olunan dövrdəki mənzərəsini qısaca səciyyələndirmək məqsədilə aşağıdakı vəzifələr irəli sürülmüşdür:

- Bəhs olunan dövrdə Azərbaycanda neft sənayesinin inkişafını öyrənmək;
- Həmin dövrün xeyriyyəçilik hərəkatının xarakterik xüsusiyyətlərini ümumi şəkildə qiymətləndirmək;
- Bu baxımdan Ağa Musa Nağıyevin həm sahibkar, həm də xeyriyyəçi kimi fəaliyyətini sistemli şəkildə öyrənmək və bu mülahizələr ümumiləşdirilərək elmi mühakimələr irəli sürmək.

**<u>Tədqiqatın nəzəri- metodoloji əsası.</u>** Yuxarıda sadalanan **vəzifələrin** yerinə yetirilməsində bir sıra elmi metodlardan istifadə edilmişdir. Aparılan tədqiqat prosesində ümumi məntiqi metodlardan – analiz, sintez, ümumiləşdirmə, habelə tarixi təsvir metodlarından istifadə edilməklə yanaşı, tarixi-müqayisə və sistemli yanaşma üsulları da geniş şəkildə tətbiq olunmuşdur.

**<u>Tədqiqatın mənbə və bazası.</u>** Tədqiq olunan elmi problemin həlli üçün xeyli miqdarda sənəd və materiallara istinad olunmuşdur. Bu mənbə materiallarını qruplaşdırarkən, onların içərisində Bakı neft sənayesinin illik icmaları, “Обзор Бакинской нефтяной промышленности за 1896 год.,

Ежегодник, Баку и его районы за 1914 год ” adlı topluları, bu **problemləri əks etdirən müxtəlif nəşrlərin rolunu qabardaraq, artıq bu mənbələrin Azərbaycan alimləri tərəfindən ətraflı öyrənilməsini qeyd etmək vacibdir.** Bu qaynaqlar həmin dövrün neft sənayesinin inkişafı haqqında tam təsəvvür yaradır.

Dissertasiya işində Ağa Musa Nağıyevin fəaliyyəti dövrünü canlandırmaq üçün onun müasirlərinin xatirələrindən, yaxınlarının söylədiklərindən də istifadə edilmişdir. Bunun üçün çoxsaylı sorğular keçirilmiş və faktlar müqayisəli təhlil edildikdən sonra diqqətə çatdırılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi-praktik əhəmiyyəti var. İş eyni zamanda bu vaxtadək işıq üzü görmüş müxtəlif xarakterli əsərləri istisna **olmaqla,** Ağa Musa Nağıyevin sahibkarlıq və xeyriyyəçilik fəaliyyətinin kompleks şəkildə öyrənilməsinə həsr olunmuş ilk əsərdir. Bu baxımdan dissertasiyanın elmi yeniliyini aşağıdakı formada qruplaşdırmaq mümkündür:

- Ağa Musa Nağıyevin sahibkarlıq fəaliyyəti kompleks şəkildə araşdırılması;
- Azərbaycanda xeyriyyəçilik hərəkatında neft milyonçularının, ələlxüsus Ağa Musa Nağıyevin bu sahədə səmərəli fəaliyyətinin öyrənilməsi;
- Bakı şəhərinin memarlığına Ağa Musa Nağıyevin verdiyi töhfələrin araşdırılması;
- Milyonçunun varisləri və varislik probleminin ilk dəfə olaraq kompleks şəkildə öyrənilməsi.

**Tədqiqatın elmi - praktik əhəmiyyəti.** Tədqiqat işinin elmi - praktik əhəmiyyəti var. Dissertasiya işində verilmiş materiallar, aparılmış araşdırmalar, ümumiləşdirmə və nəticələr:

-Azərbaycanda represiyalar tarixinin, habelə adlı-sanlı nəsillərin şəcərələrinin öyrənilməsinə dair yeni tədqiqat əsərlərinin yazılmasında;

- Azərbaycanın XX əsr siyasi-tarixi problemlərinə dair ümumiləşdirilmiş tədqiqat əsərlərinin yazılmasında;

- Müvafiq hökumət və qeyri-hökumət təşkilatlarının əməli fəaliyyətində;

- Azərbaycanın müasir tarixinə, xüsusən də neft və mesenatlıq tariximizə dair dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların hazırlanmasında;

- Azərbaycan tarixi ixtisası üzrə mütəxəssislərin hazırlanması, müəllim və tələbələr üçün mühazirə-məşğələ və xüsusi kursların keçirilməsində istifadə edilə bilər.

Və nəhayət bu dissertasiya işi vətənimizin və xalqımızın tarixi ilə maraqlanan hər bir kəs üçün gərəkli ola bilər.

Dissertasiyanın aprobasiyası.......

Nəşr ......

Dissertasiya işinin həcmi və strukturu....

Tədqiqatın xronoloji çərçivəsi XIX əsrin sonlarını və XX əsrin 20-ci illərinə qədər olan dövrü əhatə edir.

Bu dövr böyük dəyişikliklərlə xarakteirzə olunur:

- Azərbaycan maarifçilik hərəkatı başlamış, milli qəzetlər meydana gəlmiş, ziyalıların milli şüurun, özünüdərkin formalaşmasında rolu sahibkarlar tərəfindən dəstəklənmiş, həmçinin Azərbaycanı müstəqilliyə aparan hərəkat başlamış və nəhayət Azərbaycan Xalq Cümhuriyyəti tarix səhnəsinə qədəm qoymaqla Şərqdə ilk demokratik dövlət modeli formalaşmışdır. Bu dövr milli neft sənayesinin inkişaf, yerli burjuaziyanın rolunun artması, neftlə əlaqəli nəhəng sənaye infrastrukturunun yaradılması ilə yadda qalır.

Tədqiqat işinin əsasını mövcud mənbələr və tarixşünaslıq bazası təşkil etməkdə əsas məqsəd Ağa Musa Nağıyevin sahibkarlıq və xeyriyyəçilik fəaliyyətini tədqiq etmək və bununla bağlı elmi ümumiləşdirmələr aparmaqdır.

**GİRİŞ** Dissertasiyada müstəqillik dövründə Azərbaycan tarixinin görkəmli nümayəndələrinin, vətən qarşısında xidmət göstərmiş ziyalıların uğuru və ölkəyə verdiyi töhfələr tədqiqi olunaraq geniş aspektdə oxucu kütləsinə təqdim olunur. Bu nümunələrin hər birində müasir dövrün oxucusu tariximizlə birbaşa təmasda olaraq, gerçəkliklərin əsas tərəfləri ilə zaman və məkan anlayışları çərçivəsində tanış olub, onların əməllərinin şahidinə çevrilir.

v Dissertasiya bu vaxta kimi üzərində düşünülən bir sıra suallara aydınlıq gətirməklə yanaşı, aktual problemin tədqiqinə həsr olunub. Azərbaycanın ictimai fikrində və xeyriyyəçilik hərəkatında müstəsna rol oynamış Ağa Musa Nağıyevin fəaliyyətinin öyrənilməsi aktuallıq kəsb edir. Bu istiqamətdə yazılmış dissertasiya özündə zəngin arxiv materiallarını birləşdirir və tariximizin bu vaxta kimi öyrənilnməsi yasaq olan bir çox məsələlərinə işıq salır. Sovet təbliğatinin tədqiqini qadağan etdiyi mövzulardan biri də azərbaycanda neft milyonçularının xeyriyyəçilik hərəkatında rolunun öyrənilməsi, millətin dahi şəxsiyyətlərinin həyat və fəaliyyətlərinin araşdırılması olmuşdur. Onlarin üzərinə "burjua" damğası vurularaq adlarını ləkələməyə çalışmışlar.

İlk dəfə olaraq Ağa Musa Nağıyevin sahibkarlıq, xeyriyyəçilik və ictimai fəaliyyəti kompleks şəkildə tətbiq olunub. Əsrin əvvəllərində Bakı neft sənayesinin salnaməsinin mədəni və ictimai həyata təsiri, Azərbaycan milyonçuları içərisində

vətənpərvərliyi, xeyirxahlığl və insan qətiyyətilə seçilən Ağa Musa Nağıyevin həyat və fəaliyyətinin çox hissəsinin elmi dövriyyəyə ilk dəfə cəlb olunan tarixi sənədlər əsasında öyrənildiyi vurğulanır, keçdiyi keşməkeşli həyat yolu tam şəkildə izlənilir. Millətin yolunda fədakarcasına gördüyü işlər geniş tədqiq olunub. XX əsrin əvvəllərindən milli oyanışın artdığı şəraitdə bu mesenatlar millətin yaddaşında dərin izlər buraxmiş, millət qarşısında xidmətlərilə qazandıqları şöhrət onları tarixdən silmək və ya ləkələmək sovet ideologiyasına nəsib ola bilməmişdir. Belə şəxsiyyətlərdən olub Ağa Musa Nağıyev. Tədqiqatçı, Ağa Musa kimdir, onun haqqında nə bilirik, gələcək nəsil nə biləcək –suallarina cavab verir. Müstəqillik dövründə Azərbaycan tarixinin görkəmli nümayəndələrinin, vətən qarşısında xidmət göstərən ziyalıların uğuru və ölkəyə verdiyi töhfələr tədqiq olunaraq geniş aspektdə oxucu kütləsinə təqdim olunur. Bu nümunələrin hər birində müasir dövrün oxucusu tariximizlə bir başa təmasda olaraq, gerçəkliklərin əsas tərəfləri ilə zaman və məkan anlayışları çərçivəsində tanış olub, onların əməllərinin şahidinə çevrilirik.
...XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı neft sənayesinin canlanmasının mədəni və ictimai həyata təsiri, Bakı milyonçuları arasında vətənpərvərlik və xeyirxahlığı ilə seçilən Ağa Musa Nağıyevin həyat və fəaliyyətinin çox hissəsi elmi tədqiqata ilk dəfədir ki cəlb olunur.
Sovet imperiyası dövründə yaşamış Bakı neft milyonçularının həyat və fəaliyyətini, xeyriyyəçilik missiyalarını təqdim edilməsinə qadağalar qoyulmuşdur.
Bu dövrdə neft mədənlərinin əsasən xanlığın ixtiyarında olduğunu vurğulayan müəllif, on doqquzuncu yüzilliyin sonunda

neft şirkətlərinin sayının 140-a çatdığı haqda qeyd edib.
Neft hasilatı və emalı sənayesinin inkişafında Azərbaycanın varlı kapitalistləri, milyonçuları yetişməsi üçün şərait yaradılır. Bu müddət ərzində H.Z. Tağıyev, A. M. Nağıyev, M.Muxtarov, Ş.Əsədullayev və başqa milyonçular ortaya çıxır.

I fəsil Azərbaycanda XIX əsrin axırlarında neft sənayesininn sürətlə inkişaf etməsi neft şirkətlərinin artmasına təsadüf edilməsi nəzərə çarpır. «Баку и его районы» toplusunda verilən statistik məlumat böyük əhəmiyyət və qiymət kəsb edir. Bakı neft sənayesində azərbaycanlı kapitalistlərin tutduğu mövqelər aşkarlanır. Dissertasiyanın əhatə etdiyi XIX əsrin sonları və XX əsrin 20-ci illərinə qədər olan dövr – böyük dəyişikliklərlə xarakterizə olunur. Ağa Musa Nağiyevin Azərbaycanda neft sənayesinin inkişafinda xidmətlərinin, sahibkarliq fəaliyyətinin, habelə xeyriyyəçilik və ictimai fəaliyyətinin tədqiq edilməsi aktualliq kəsb edir.

Sovet dövrünün ideoloji problemlərinə baxmayaraq, Dissertasiyada dövrlə bağlı təsəvvür formalaşıb və zəngin faktroloji materiallarla zəngindir.
Dissertasiyanın əsas hissəsi - əhatə etdiyi XIX əsrin sonları və XX əsrin 20-ci illərinə qədər olan dövr – böyük dəyişikliklərlə xarakterizə olunur. Bu dövrdə Azərbaycanda maarifçilik hərəkatı inkişaf etmiş, milli qəzetlər meydana gəlmiş, milli şüurun, milli özünüdərkin formalaşmasında ziyalıların rolu sahibkarlar tərəfindən dəstəklənmiş, həmçinin Azərbaycanı müstəqilliyə aparan hərəkat başlamış və nəhayət Azərbaycan Xalq Cümhuriyyətinin tarix səhnəsinə qədəm qoymasıyla Şərqdə ilk demokratik dövlət modeli formalaşır.
Sovet dövründə milyonçunun nəslinin davamçılarının represiyaya, məruz qaldığı, daima təzyiq altında yaşantıları fakt

kimi diqqətə çatdırılıb. Bu dissertasiya Azərbaycanın tarixinin bütöv bir dövrünə işıq saçıb. Bu dövr milli neft sənayesinin inkişafı, yerli burjuaziyanın rolunun artması, neftlə əlaqəli nəhəng sənaye infrastrukturunun yaradılması ilə yadda qalır.

Azərbaycan, türk və rus dillərində nüfuzlu elmi mənbə və arxivə istinad edən müəllif, çoxsaylı sənədlərdən də yararlanmış və yeri gəldikcə bu sənədlərin surətini səhifəəələrdə yerləşdirmişdir.

Tədqiqat əsərində ilk dəfə olaraq Bakı milyonçusunun sahibkarlıq, xeyriyyəçilik və ictimai fəaliyyəti kompleks şəkildə öyrənilmişdir. dissertasiyada milyonçunun keçdiyi keşməkeşli həyat yolu tam şəkildə izlənilir, onun millət yolunda fədakarcasına gördüyü işlər yer alır. Dissertasiyada həmçinin Ağa Musa Nağıyevin varislərinin sovet repressiya illərində məruz qaldıqları ağır həyat tərzi izlənilmiş, başlarına gətirilən müsibətlər və həbslər sənədlər vasitəsilə tədqiq edilmişdir. Dissertasiyada Azərbaycan tarixinin bütöv bir dövrünə işıq salan sanballı tədqiqat əsəri kimi tarixçilər, habelə oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.Tədqiqat işinin əsas məqsədi mövcud mənbələr və tarixşünaslıq bazası əsasında Ağa Musa Nağıyevin sahibkarlıq və xeyriyyəçilik fəaliyyətini tədqiq etmək və bununla bağli elmi ümumiləşdirmələr aparmaqdan ibarətdir.

Müasirlərin xatirələrindən, onun yaxınlarının söylədiklərindən də dövrü canlandırmaq üçün çoxsaylı sorğular keçirilmiş və faktlar müqayisəli təhlil edildikdən sonra diqqətə çatdırılmşdır.

Təqiqat işi Ağa Musa Nağıyevin sahibkarlıq və xeyriyyəçilik fəaliyyətinə həsr olunmuş ilk əsərdir. Burada Ağa Musa

Nağıyevin sahibkarlıq fəaliyyəti kompleks şəkildə araşdırılıb; Azərbaycanda xeyriyyəçilik hərəkatında neft milyonçularının, xüsusən də A.M.Nağıyevin bu sahədə səmərəli fəaliyyəti öyrənilib. Bakı şəhərinin memarlığına verdiyi töhfələr araşdırılıb.

Tədqiqatçı XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Azərbaycan neft sənayesinin inkişafında yerli kapitalın rolunun artmasından, habelə bu prosesdə Ağa Musa Nağıyevin sahibkarlıq fəaliyyətindən bəhs edib.

II FƏSİL Dissertasiya XIX əsrin sonu XX əsrin əvvəlləri üçün Azərbaycan tarixinin maraqlı bir dövrünə həsr olunub. Ağa Musa Nağıyevin həyat və fəaliyyəti kompleks şəkildə tədqiq edilib. Müəllifin apardığı tədqiqat nəticəsində milyonçunun keşməkeşli həyat yolu, millət qarşısındakı xidmətləri faktların köməyi ilə tam şəkildə göstərilib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra tarix elmi qarşısında böyük perspektivlər açılmışdır. Uzun illər üzərinə kölgə salınan mövzular tədqiq olunur, yeni-yeni mənbə materialları elmi dövriyyəyə cəlb edilməkdədir. İndi tarix elmi azərbaycançılıq ideologiyası aspektindən yenidən işlənir, uzun illər qadağan olunmuş mövzulara işıq salınır, arxivlərin küncünə atılmış qiymətli sənədlər aşkarlanır.

Sovet təbliğatının tədqiqini qadağan etdiyi mövzulardan olan Azərbaycanda neft milyonçularının xeyriyyəçilik hərəkatında rolunun öyrənilməsi, həyat və fəaliyyətini araşdırılması olub. Üzərlərinə vurulan burjua damğası ilə adlarını ləkələməyə çalışmışlar. Ancaq XX əsrin əvvəllərindən milli oyanışın artdığı şəraitdə bu mesenatlar millətin yaddaşında dərin izlər buraxmış, millət qarşısında xidmətlərilə elə şöhrət qazanmışlar.

Məhz bu fontanlar Bakının şöhrətini Avropa ölkələrində daha da yüksəldir. Bu xarici kapitalistlər üçün əsl sensasiyaya çevrilir.
Dissertasiyada Ağa Musa Nağıyevin Azərbaycanda neft sənayesinin inkişafındakı rolu araşdırılıb. Belə ki, 1914-cü ildə Bakıda neft sənayesi ilə məşğul olan firmaların sayının 83-ə çatması, hansıların sahibkarlarının 58-i azərbaycanlı kapitalist olduğu aşılanıb. Bir milyon puddan çox neft hasil edən səkkiz sahibkarın adı isə xüsusi qeyd edilib. Həmin siyahıda Ağa Musa Nağıyevin adı üçüncü yerdə göstərilib.
Azərbaycanın ictimai fikrində və xeyriyyəçilik hərəkatında müstəsna rol oynamış Ağa Musa Nağıyevin fəaliyyətinin öyrənilməsi aktuallıq kəsb edir. Bu istiqamətdə yazılmış ilk tədqiqat əsəri kimi özündə zəngin arxiv materiallarını birləşdirir və tariximizin bu vaxta kimi öyrənilməsi yasaq olan bir çox məsələlərinə işıq salır. Ağa Musanın - kasıb bir ailədə döğulmuş, yük daşımaqdan böyük firmanın sahibliyinədək ağır bir həyat yolu keçməşi və neftin və işgüzarlıq istedadının hesabına milyonçu olması göstərilir.

Tədqiqatlar göstərir ki, o, sahibkarlıqdan əldə etdiyi gəlirlərini millətin maariflənməsi yönümünə sərf edən meşenatlardan olub. Müsəlman qızlarının məktəbəqədər və ibtidai sinifdə oxuması üçün iri məbləğdə ianə verib. Onun Bakıya yaraşıq verən tikililəri içərisində Realnı məktəb və dörd xəstəxana xüsusi diqqət cəlb edir. Tikdirdiyi çoxsaylı binaları Bakının möhürünə çevrilib. "İsmailiyyə" sarayı kimi milli memarlıq incisi yaradan Ağa Musa Nağıyev olub.
Bu baxımdan Ağa Musa Nağıyevin Azərbaycan neft sənayesinin inkişafında xidmətlərinin, sahibkarlıq fəaliyyətinin,

habelə xeyriyyəçilik və ictimai fəaliyyətinin tədqiq edilməsi aktuallıq kəsb edir. Azərbaycanda maarifçilik hərəkatı başlamış, milli qəzetlər meydana gəlmiş, ziyalıların milli şüurun, özünüdərkin formalaşmasındakı rolu sahibkarlar tərəfindən dəstəklənmiş, həmçinin Azərbaycanı müstəqilliyə aparan hərəkat başlamış və nəhayət Azərbaycan Xalq Cümhuriyyəti tarix səhnəsinə qədəm qoymaqla Şərqdə ilk demokratik dövlət modeli formalaşmışdır.

Burada qeyd olunan dövrdə Azərbaycanda maarifçilik hərəkatının inkişafı, milli qəzetlərin meydana gəlməsi, milli şüurun və milli özünüdərkin formalaşmasında ziyalıların rolunun sahibkarlar tərəfindən dəstəklənməsi, həmçinin Azərbaycanı müstəqilliyə aparan hərəkatın başlanması və nəhayət Azərbaycan Xalq Cümhuriyyətinin tarixin səhnəsinə qədəm qoyması ilə Şərqdə ilk demokratik dövlət modelinin formalaşması xüsusi yer tutur. Eləcə də bu dövrün məhz neft sənayesinin inkişafı ilə yadda qalması təsdiqlənir.

Ağa Musa Nağıyevin xalqı və dövləti üçün etdiklərini ölçüyəgəlməz çəkidə açıqlanır. Taleyin amansızlıqları onun kimi şəxsləri addımbaşı sıxsa da, onların xeyriyyəçilik missiyaları bu gün də diqqət mərkəzində olduğu aşılanır.

**II FƏSİL** - Ağa Musa Nağıyevin neft sənayesinin inkişafındakı rolu, sahibkarlıq və xeyriyyəçilik missiyası əhatəli şəkildə qeyd edilib. Neft sənayesinin inkişafında yerli kapitalın rolunun artması və Ağa Musa Nağıyevin irəlidə göstərilən nailiyyətləri və proseslərə uyğun yanaşılması onun sanbalındakı ictimailiklə əlaqələridir. Burada A.M.Nağıyevin Azərbaycanda xeyriyyəçilik hərəkatındakı rolundan bəhs etməklə yanaşı Bakı

şəhərinin memarlığına milyonçunun verdiyi töhfələri də araşdırılıb.

Bəzən onun barəsində “xəsis” deyirlər. Əlbəttə, qənaətçillik xəsislik demək deyil. O, israfçılığı sevməyən, pulu xərcləməyin yerini bilən bir şəxsiyyət olub.

Onun hecə xeyriyyəçi olduğu, kasıba, xəstəyə əl tutması haqda faktlar çox maraqlıdır. Maraqlıdır ki, Ağa Musa Nağıyevin tikdirdiyi “İsmailiyyə” binasını “Cəmiyyəti Xeyriyyə”yə bağışlayır. O, daha sonra bu cəmiyyətin sədri olub. maarifçilik və xeyriyyəçilik istiqamətlərində apardığı işlərin sayı-hesabı bitmir. Ağa Musa Nağıyev qurub yaradan insan kimi də səciyyələndirilib. Binanın tikintisi zamanı onun arxitekturasına yeni gözəllik, əzəmət gətirən də milyonçunun xeyriyyəçiliyi olub. Binanın inşasında Şərq və Avropa memarlıq məktəblərinin nümayəndələrindən istiafadə edilməklə bərabər Ağa Musa Nağıyevin özünün təklifləri də əsas götürülürdü. İyirmi ildən artıq Bakı Şəhər Dumasının deputatı olmuş Ağa Musa Nağıyevin tikdirdiyi binalar Bakının simasına bir gözəllik bəxş edib. O, həm də Azərbaycanda ilk dəfə olaraq səhiyyənin inkişafına çalışan bir insan kimi də adını tarixə yazıb, həm də insanların sağlamlığı naminə millətinin balalarının elmə, savada yiyələnməsi üçün vəsait ayırıb. O, həm də Azərbaycanda ilk dəfə olaraq səhiyyənin inkişafına çalışan bir insan kimi də adını tarixə yazıb, həm də insanların sağlamlığı naminə millətinin balalarının elmə, savada yiyələnməsi üçün vəsait ayırıb. 1898-ci ilin yanvarında Bakıda “Körpələr evi” nin inşasına başlanılır. Vəsaitin çatışmaması üzündən yarımçıq qalmış bu binanın

inşasına məhz Ağa Musa Nağıyev və Şəmsi Əsədullayev küllü miqdarda pul ayırıb.

Sovet dövründə tarix elmi üzərində belə tipli tədqiqatların aparılmasına yasaq qoyulmuş, müstəqilliyimizin əldə edilməsindən sonra milli kimliyimiz hər hansı ideoloji kriteriyalardan kənar araşdırılır və maraqlı tədqiqat əsərləri işıq üzü görməkdədir.

Kimdir Ağa Musa, onun haqqında nə bilirik, gələcək nəsil nə biləcək - suallarına cavab verilib. Uzun illər gərgin axtarışların nəticəsi olan bu dissertasiya da müstəqillik illərində tarix elmi sahəsində yazılmış fundamental tədqiqatlardandır.

Tikdirdiyi çoxsaylı binalar tariximizin daş yaddaşı olmaqla, həm də Ağa Musa Nağıyevin xeyirxahlıq mücəmməsi olduğu təsdiqlənir. Bu abzas memarlığa.....

Tədqiqatçı Dilarə Nağıyevanın dissertasiyası XIX əsrin sonu XX əsrin əvvələri üçün Azərbaycan tarixinin maraqlı bir dövrünə həsr olunub.

Azərbaycanın ictimai fikrində və xeyriyyəçilik hərəkatında müstəsna rol oynamış Ağa Musa Nağıyevin fəaliyyətinin öyrənilməsi aktuallıq kəsb edir. Bu istiqamətdə yazılmış ilk tədqiqat əsəri kimi özündə zəngin arxiv materiallarını birləşdirir və tariximizin bu vaxta kimi öyrənilməsi yasaq olan bir çox məsələlərinə işıq salır.

Ağa Musa Nağıyev (1849-1919) Azərbaycan milli burjuaziyasının nəhəng və görkəmli nümayəndələrindən biri olub. Kasıb bir ailədə doğulmuş, yük daşımaqdan böyük

firmanın sahibliyinədək ağır bir həyat yolu keçmişdir. Neftin və işgüzarlıq istedadının hesabına milyonçu olub.

Əsrin əvvəllərində Bakı neft sənayesinin salnaməsinin mədəni və ictimai həyata təsiri, Azərbaycan milyonşuları içərisində vətənpərvərliyi, xeyirxahlığl və insan qətiyyətilə seçilən Ağa Musa Nağıyevin həyat və fəaliyyətinin çox hissəsinin elmi dövriyyəyə ilk dəfə cəlb olunan tarixi sənədlər əsasında öyrənildiyi vurğulanır, keçdiyi keşməkeşli həyat yolu tam şəkildə izlənilir. Onun millətin yolunda fədakarcasına gördüyü işlər geniş tədqiq olunur. Sovet dövründə milyonçunun nəslinin davamçılarının represiyaya, sürgünlərə məruz qaldığı, daima təzyiq altında yaşamaları fakt kimi diqqətə çatdırılıb. Bütövlükdə bu monoqrafiyanın Azərbaycanın tarixinin bütöv bir dövrünə işıq salmasını desək yanılmarıq. Böyük zəhmət hesabına ortaya çıxan bu tədqiqat işi, böyük xeyriyyəçinin ömür yoluna aydın çıraq saçdığını əminliklə görmək olur.

Sahibi olduğu neft firması 1908-ci ilddə rekord həcmdə neft çıxarıb və bu Azərbaycanın neft firmaları arasında ən yüksək göstərici olub. Tədqiqatlar göstərir ki, onun sahibkarlıqdan əldə etdiyi gəlirlərini millətin maariflənməsi yönümünə sərf edən meşenatlardan olub. 25 müsəlman qızının ibtidai sinifdə oxuması üçün iri məbləğdə ianə verib. Onun Bakıya yaraşıq verən tikililəri içərisində: Realnı məktəb və dörd xəstəxana xüsusi diqqət cəlb edir. Tikdirdiyi 98 bina Bakının möhürünə çevrilib. "İsmailiyyə" sarayı kimi milli memarlıq incisi yaradıb!

XIX əsrin axırlarında, XX əsrin əvvəllərində Azərbaycanın ictimai – iqtisadi həyatında Ağa Musa Nağıyev iri sahibkar kimi tanınmışdır.

Müəllif A.M.Nağıyevin Azərbaycanda xeyriyyəçilik hərəkatındakı rolundan bəhs etməklə yanaşı Bakı şəhərinin memarlığına milyonçunun verdiyi töhfələri də araşdırıb. Bu onun fəaliyyətinin çoxşaxəli və zəngin irsə malik olmasını göstərir. müstəqilliyimizin əldə edilməsindən sonra tarix elmində yaranmış canlanma milli kimliyimiz hər hansı ideoloji kriteriyalardan kənar araşdırılır və maraqlı tədqiqat əsərləri işıq üzü görməkdədir.

Uzun illər gərgin axtarışlarının nəticəsi olan bu dissertasiya müstəqillik illərində tarix elmi sahəsində yazılmış olan fundamental tədqiqatlardan hesab etmək olar.

**ÜÇÜNCÜ FƏSİL ...** Ağa Musa Nağıyevin və onun varislərinin sonrakı taleyinə güzgü tutan bir həyat salnaməsi yazılıb. Burada A.M. Nağıyevin vəfatından sonra varislik məsələsi, habelə onun varisləri sovet repressiyası illərində çəkdiyi əziyyətlər tarixşünaslıqda ilk dəfə tədqiq olunur.

Dəyərli tədqiqat əsərində ilk dəfə olaraq Bakı milyonçusunun sahibkarlıq, xeyriyyəçilik və ictimai fəaliyyəti kompleks şəkildə öyrənilmişdir. Dissertasiyada milyonçunun keçdiyi keşməkeşli həyat yolu tam şəkildə izlənilir, onun millət yolunda fədakarcasına gördüyü işlər yer alır. Monoqrafiyada həmçinin

Ağa Musa Nağıyevin varislərinin sovet repressiya illərində məruz qaldıqları ağır həyat tərzi izlənilmiş, başlarına gətirilən müsibətlər və həbslər sənədlər vasitəsilə tədqiq edilmişdir. Dissertasiya Azərbaycan tarixinin bütöv bir dövrünə işıq salan sanballı tədqiqat əsəri kimi tarixçilər, habelə oxucu kütləsi üçün nəzərdə tutula bilər.

Bakı milyonçuları arasında vətənpərvərliyi, xeyirxahlığı ilə seçilən Ağa Musa Nağıyevin həyat və fəaliyyəti kompleks şəkildə tədqiq edilib. Aparılan tədqiqat nəticəsində milyonçunun keşməkeşli həyat yolu millət qarşısındakı xidmətləri faktların köməyilə göstərilib.

Böyük zəhmət hesabına ortaya çıxan bu tədqiqat işi, böyük xeyriyyəçinin ömür yoluna aydın çıraq saçdığını əminliklə görmək olur.

Ağa Musa Nağıyevin xalqımız və dövlətimiz üçün etdikləri ölçüyəgəlməzdir.

Kasıb bir ailədə dünyaya göz açıb, ağır həyat yolu keçib, möhkəm iradəsi, işgüzarlığı, qabiliyyəti hesabına dövrünün sayılıb-seçilən insanlardan birinə - adını tarixə yaza bilən milyonçuya çevrilən Ağa Musa Nağəyev Azərbaycan milli burjuaziyasının görkəmli nümayəndəsi olub.

Memarlıq ...........Binaların inşasında Şərq və Avropa memarlıq məktəblərinin nümayəndələrindən istiafadə edilməklə bərabər Ağa Musa Nağıyevin özünün təklifləri də əsas götürülürdü. İyirmi ildən artıq Bakı Şəhər Dumasının deputatı olmuş Ağa Musa Nağıyevin tikdirdiyi binalar Bakının simasına bir gözəllik bəxş edib. O, həm də Azərbaycanda ilk dəfə olaraq səhiyyənin inkişafına çalışan bir insan kimi də adını tarixə yazıb, həm də

insanların sağlamlığı naminə millətinin balalarının elmə, savada yiyələnməsi üçün vəsait ayırıb.

Belə şəxsiyyətlərin irsinin öyrənilməsi onların xalqa olduğu kimi tanıdılması, milli mənəvi dəyərlərimizin dirçəldilməsi baxımından vacibdir. Ağa Musanın zəngin və keşməkeşli bioqrafiayasının arxiv sənədləri əsasında yazılması elə həmin dövrün tarixinin yazılmasına bərabərdir. Dissertasiyada Ağa Musa Nağıyev xeyriyyəçi və ictimai xadim kimi göstərilməklə bərabər fəaliyyətinin çox şaxəli və zəngin olması göstərilib.

NƏTİCƏ Tədqiqatçı XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Azərbaycan neft sənayesinin inkişafında yerli kapitalın rolunun artmasından, habelə bu prosesdə A.M. Nağıyevin sahibkarlıq fəaliyyətini geniş əhatə edib. Dissertasiyada Ağa Musa Nağıyevin böyük səxavətə malik olmasının daşıdığı genetik xüsusiyyətlərdən irəli gəlməsi bir daha təsdiqlənir.

Dissertasiyada çətin, lakin şərəfli ömür yaşayan, taleyin hökmü ilə sınaqlara məruz qalan Ağa Musa Nağıyevin vətənpərvərlik hisslərindən doğan ideyaları diqqəti cəlb edir. Elə bu baxımdan ölümündən sonra keçən dövr ərzində xlqa mənsub olan xidmətinin bir qolu məhz inşa etdirdiyi binalarda da özünü göstərir.

Dissertasiyanın nəticə hissəsində elmi araşdırmalar ümumiləşdirilmiş formatrda təqdim edilib.

Ağa Musa Nağıyevin neft sənayesinin inkişafında xidmətini, sahibkarlıq, habelə xeyriyyəçilik və ictimai

fəaliyyətini tədqiqata cəlb edilməsi tarixin qaranlıq bir səhifəsinə həqiqət işığının saçması kimidir.

Qeyd etmək lazımdır ki, Azərbaycan, türk və rus dillərində nüfuzlu elmi mənbə və arxivə istinad edən müəllif çoxsaylı sənədlərdən də yararlanmış və yeri gəldikcə bu sənədlərin surətini kitabda yerləşdirmişdir.

Azərbaycanın ictimai fikrində və xeyriyyəçilik hərəkatında müstəsna rol oynamış Ağa Musa Nağıyevin fəaliyyətinin öyrənilməsi aktuallıq kəsb edir.

Müəllif A.M.Nağıyevin Azərbaycanda xeyriyyəçilik hərəkatında rolundan bəhs etməklə yanaşı Bakı şəhərinin memarlığına milyonçunun verdiyi töhfələri də araşdırıb.

Sovet dövründə tarix elmi üzərində belə tipli tədqiqatların aparılmasına yasaq qoyulmuşdu. Müstəqilliyimiz əldə ediləndən sonra tarix elmində yaranan canlanma milli kimliyimiz hər hansı ideoloji kriteriyalardan kənar araşdırılması ilə bərabər maraqlı tədqiqat əsərləri işıq üzü görməkdədir.

Ağa Musa Nağıyevin vəfatından sonra varislik məsələsi, habelə varislərin sovet repressiyası illərində çəkdiyi əziyyətlər tarixşünaslıqda ilk dəfə tədqiq olunub, elmi araşdırmaları ümumiləşdirib, maraqlı mülahizələr irəli sürülüb.

Dissertasiya işində, həmçinin Ağa Musa Nağıyevin varislərinin sovet repressiya illərində məruz qaldıqları ağır həyat tərzi izlənmiş, sovet cəmiyyətində mesenatın varislərinin başına gətirilən oyunlar, sıxıntılar və həbslər sənədlər vasitəsi ilə tədqiq edilmişdir. Bu baxımdan dissertasiyanın xronoloji çərçivəsi bütünlükdə XX əsri əhatə edir. Monoqrafiya bu

vaxta kimi üzərində düşünülən bir sıra məsələlərə aydınlıq gətirir.

Dissertasiyanın hər səhifəsində müəllifin vətəndaşlıq mövqeyi, vətən təəssübkeşliyi açıq-aydın hiss olunur. Burada tək Azərbaycanın adlı-sanlı nəslinin bioqrafiyasını deyil, Azərbaycan tarixinin aktuallıq kəsb edən mühüm bir problemi araşdırılıb.

Bu vaxtadək A.M.Nağıyevin şəxsi keyfiyyətlərindən çox az bilib, gördüyü böyük işlər haqqında dərindən düşünülməyib. Bu baxımdan dissertasiyada Ağa Musa Nağıyevin Azərbaycan neft sənayesi inkişafındakı xidmətləri, sahibkarlıq fəaliyyəti, habelə xeyriyyəçilik və ictimai fəaliyyətinin tədqiq edilməsi aktuallıq kəsb edir. XIX əsrin sonlarını və XX əsrin 20-ci illərinə qədər olan dövrü əhatə edən dissertasiya özündə böyük bir tarixi yük daşıyır. Əhatə olunan dövr Azərbaycan maarifçilik hərəkatının başlanması, milli qəzetlərin meydana gəlməsi, ziyalıların milli şüurun, özünüdərkin formalaşmasındakı rolunun sahibkarlar tərəfindən dəstəklənməsilə, eləcə də milli neft sənayenin inkişafı, yerli burjuaziyanın rolunun artması, neftlə əlaqəli nəhəng sənaye infrastrukturunun yaradılması ilə yadda qalır.

III FƏSİL Dissertasiyada həmçinin Ağa Musa Nağıyevin varislərinin sovet repressiya illərində məruz qaldıqları ağır həyat tərzi izlənilmiş, sovet cəmiyyətində mesenatın varislərinin başına gələn müsibətlər, sıxıntılar və həbslər sənədlər vasitəsi ilə tədqiq edilmişdir.

Tədqiqat işinin əsas məqsədi mövcud mənbələr və tarixşünaslıq bazası əsasında Ağa Musa Nağıyevin sahibkarlıq və xeyriyyəçilik fəaliyyətini tədqiq etmək və bununla bağlı elmi ümumiləşdirmələr aparmaqdır.

Daha çox diqqəti cəlb edən məqam isə dissertasiyada Ağa Musa Nağıyevin müasirlərinin xatirələrindən, onun yaxınlarının söylədiklərindən dövrün canlandırılmasıdır.

NƏTİCƏ: Əsər böyük elmi yeniliyə imza atmışdır. Tədqiqat işi Ağa Musa Nağıyevin sahibkarlıq və xeyriyyəçilik fəaliyyətinə həsr olunmuş ilk əsərdir. Əsər həmçinin Azərbaycanda repressiyalar tarixinin, habelə adlı-sanlı nəsillərin şəcərələrinin öyrənilməsinə dair yeni tədqiqat işlərinin yazılmasında mühüm əhəmiyyət daşıya bilər.

Tədqiqat işi bir sıra məsələlərin həllində yardımçı ola bilər. Belə ki, Azərbaycanda represiyalar tarixinin, habelə adlı-sanlı nəsillərin şəcərələrinin öyrənilməsinə dair yeni tədqiqat əsərlərinin yazılmasında; Azərbaycanın XX əsr siyasi tarixi problemlərinə dair ümumiləşdirilmiş tədqiqat əsərlərinin yazılmasında; Müvafiq hökumət və qeyri-hökumət təşkilatlarının əməli fəaliyyətində; Azərbaycanın müasir tarixinə, xüsusən də neft və mesenatlıq tariximizə dair dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların hazırlanmasında və habelə Azərbaycan tarixi ixtisası üzrə mütəxəssislərin hazırlanması, müəllim və tələbələr üçün mühazirə-məşğələ və xüsusi kursların keçirilməsində. Xatırladaq ki, "Azərbaycan neft sənayesi və A.M.Nağıyevin sahibkarlıq fəaliyyəti" adlanan birinci fəsildə tədqiqatçı XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Azərbaycan neft sənayesinin inkişafında yerli kapitalın rolunun artmasından, habelə bu prosesdə Ağa Musa Nağıyevin sahibkarlıq fəaliyyətindən bəhs olunur.

Tikdirdiyi çoxsaylı binaları tariximizin daş yaddaşı olmaqla, həm də Ağa Musa Nağıyevin xeyirxahlıq mücəmməsidir.

Bu dissertasiya böyük xeyriyyəçinin həyat və tale yoluna dəyərli töhfə kimi qəbul etmək olar.

.....Bu dövrdə onlardan yalnız ikisini – Ağa Musa Nağıyevi və Şəmsi Əsədullayevi iri sənaye sahibləri sırasına qatmaq olar. 1914-cü ilə aid məlumata görə, Bakı neft sənayesi rayonunda 58 azərbaycanlı kapitalistə məxsus olan 83 firma var idi. 1914-cü ildə Bakı neft sənayesində azərbaycanlı kapitalistlərin böyük əksəriyyətini 1 milyon puddan az neft istehsal edən sahibkarlar təşkil edirlər.

.... Sonda dissertasiya işinin əsas nəticələri verilmişdir.

Dissertasiya işinin yerinə yetirilməsində göstərdiyi daimi diqqətə və dəyərli məsləhətlərinə görə elmi rəhbərim....Hacı Həsənova təşəkkürümü bildirirəm.

.

# I FƏSİL. Azərbaycan neft sənayesi və Ağa Musa Nağıyevin sahibkarlıq fəaliyyəti

## 1.1. Azərbaycan neft sənayesinin inkişafında yerli kapitalın rolunun artması

XIX əsrin son rübündə Azərbaycanda neft sənayesi sürətlə inkişaf edirdi. Xüsusilə 1872-ci ildə iltizam sisteminin ləğv olunması neft sənayesinin inkişafına çox güclü təkan verdi. 1877-ci ildə çar hökumətinin dövlət rüsumunu azaltmaq barədə qərarı neft sənayesinin inkişafını xüsusilə sürətləndirdi. İltizam sisteminin ləğvindən bir il sonra Bakıda 12 neft şirkəti fəaliyyət göstərirdisə, əsrin sonunda belə şirkətlərin sayı 140-a çatırdı.

Bakı xanlığının Rusiya tərəfindən işğalına qədər neft mədənləri əsasən xanın ixtiyarında idi. İşğaldan sonra onlar müstəmləkəçilərin ixtiyarına keçdi. Sonuncular isə onları əsasən qeyri-azərbaycanlı iltizamçıları vasitəsilə istismar edirdilər. İltizam sisteminin ləğvindən çox keçmədən rus və xarici ölkələrin kapitalistləri neft sənayesinə axışmağa başladılar. 1879-cu ildə Nobel qardaşları, 80-cı illərdə fransız kapitalı, 90-cı illərdə ingilis kapitalı, sonra isə digər xarici dövlətlərin kapitalistləri Azərbaycanın neft sənayesində mövqe tutdular. XIX əsrin 70-ci illərində Bakıda ilk neft kəmərinin işə salınması neftin nəql olunması işində geniş imkanlar yaratdı. Əsrin sonlarına doğru Bakıda ümumi uzunluğu 300 km olan 26 neft kəməri fəaliyyət göstərirdi. Neftin nəql olunmasında neft doldurma – maye daşıyan gəmiləri və vaqon sisternlərdən istifadə olunmağa başlandı. 1877-ci ildə Nobel qardaşlarının sifarişi ilə İsveçdə birinci neftdoldurma-mayedaşıyan gəmi - «Zərdüşt» inşa edildi. Daha sonra «Məhəmməd», «Musa» və başqa neft doldurma gəmiləri istifadəyə verildi. Neft doldurma gəmilərinə ehtiyac Azərbaycanda gəmi təmiri və gəmiqayırma sənayesinin inkişafına da güclü təkan verdi.

1879-cu ildə ilk dəfə Bakı-Balaxanı dəmir yolunda istifadə olunan vaqon-sisternlər neft nəqliyyatının əsas vasitəsinə çevrildi. 1883-cü ildə artıq 462 belə vaqon-sistern var idi. Bu sisternlərlə ildə təxminən 12 mln. pud neft daşınırdı. Bir il sonra hökumət vaqon-sisternlərin sayını 750-yə çatdırmışdı. XIX əsrin sonunda isə bu say 20 mini ötüb keçmişdi.

Yeni texniki üsulların tətbiqi neft sənayesinin inkişafını sürətləndirdi. Bunun nəticəsində 1870-ci ildən 1880-cı ilədək olan müddətdə Bakıda neft hasilatı təxminən on dəfə yüksəldi. XIX əsrin ikinci yarısında yaranmaqda olan dünya neft sənayesində iki qütb təşəkkül tapmaqda idi. Bu qütblərdən

birini Qərb yarımkürəsində ABŞ-ın Pensilvaniya ştatı təşkil edirdisə, digərini Şərq yarımkürəsində Bakı neft rayonu təşkil edirdi. Əsrin sonlarında Bakıda 500 mln. pud neft hasil edilirdi ki, bu da ABŞ-da çıxarılan neftdən artıq idi.

1901-ci ildə Bakı neft hasilatı daha da artaraq 671,7 mln. puda çatmışdı. Bu isə dünyadakı neft hasilatının yarıdan çoxuna, Rusiyadakı hasilatın isə 95 faizinə bərabər idi.

1897-ci ildə Abşeronun təkcə Balaxanı, Sabunçu, Ramana və Bibiheybət mədənləri ümumi neft hasilatının 74 faizini təşkil edirdi.

Neft hasilatı və emalı sənayesinin inkişafı Azərbaycanda varlı kapitalistlərin, milyonçuların yetişməsi üçün də şərait yaranır. Qısa müddət ərzində H.Z.Tağıyev, A.M.Nağıyev, Ş.Əsədulla-yev, M.Muxtarov və başqa milyonçular ortaya çıxır.

Azərbaycanın ağ nefti Türkiyə, Avropa, Şimali Afrika, Uşaq Şərq ölkələrinə satılırdı. 1897-ci ildə ağ neft məhsullarının ixrac edilməsini sürətləndirmək məqsədi ilə Bakı-Batum neft kəmərinin çəkilişinə başlanır. Kəmərin istifadəyə verilməsi Azərbaycanın neft ixracında xeyli irəliləyişə səbəb olur. Təkcə 1897-ci ildə neft istehsalı müəssisələrinin sayı 92-dən 107-yə qalxır.

İxracın həcmi isə 1889-cu ildən 1898-ci ilədək olan müddətdə iki dəfədən çox artmışdı.

Bakıdan Batuma əsasən kerosin və sürtkü yağları ötürülür, neft qalıqları isə Xəzər yolu ilə gəmilərlə daşınırdı. Neft məhsullarının mühüm bir qismi Novorossiysk limanı vasitəsilə Avropaya ixrac olunurdu.

Azərbaycanda neft sənayesinin inkişafı ilə bağlı bir çox digər sənaye sahələrinin meydana gəlməsinə və inkişafına şərait yara-dır. Bakıda maşınqayırma, buxar qazanları, metal kanat istehsalı müəssisələri yaranmağa başlanır. Təkcə Bakıda deyil,

Yelizavetpol, İrəvan, Dərbənd, Gədəbəy, Nuxa, Şuşa, Ordubad və başqa yerlərdə də kapitalizm inkişaf edir, yeni-yeni müəssisələr yaranırdı. Ordubadda, Nuxada, Şamaxıda və Şuşada ipək emalı sənayesinin inkişafı ayrı-ayrı şəhərlərdə toxuculuq və bu kimi kustar sahələrin tənəzzülünə gətirib çıxarır. Onların yerini manufaktura səviyyəsinə yüksələ bilmiş sənət sahələri tutmağa başlayır. Lakin əl əməyi ilə bağlı olan xalçaçılıq da inkişaf etməkdə idi. Quba, Şuşa, İrəvan, Naxçıvan, Borçalı, Cəbrayıl, Gəncə və Bakı xalçaları xarici bazarlarda ad qazanmışdı. Qubada xalça toxuyan qadınların sayı 30 minə yaxın idi. Təkcə Xaçmaz stansiyasında ildə 300 000 rublluq xalça ixrac edilirdi. Şuşa, Cavanşir, Zəngəzur qəzalarında xalça toxumaqla 100 min nəfər məşğul olurdu. «Qarabağ» adlandırılan, öz solmaz rəngləri və gözəlliyi ilə dünyaya səs salan xalçaların əsas ticarət mərkəzi Şuşa şəhəri idi.

Kapitalist sənayesinin inkişafı şəhərlərin sürətlə böyüməsinə, onların tikilməsinə, görkəminin dəyişməsinə səbəb olurdu. Azərbaycanın Bakı, İrəvan, Yelizavetpol, Şuşa, Dərbənd, Şamaxı və s. şəhərlərində kapitalistlər, tacirlər, sənətkarlarla yanaşı fəhlə sinfinin nümayəndələri də yaşayırdı. 1903-cü ildə Bakının neft sənayesində 40 min fəhlə çalışırdı.

XIX əsrin yarısından başlayaraq, Bakı neft sənayesi, ümumiyyətlə **Fəğkifnisf** milli burjuaziyasının təşəkkül tapdığı və formalaşdığı əsas sənaye sahəsi olmuşdur.

Hələ 1872-ci ildə neft sənayesində iltizam sistemi ləğv edildikdən sonra neft verən torpaqları satın almış 13 sahibkar arasında Azərbaycan milli kapitalı çox cüzi yer tuturdu. Belə ki, neft yataqları olan yerlərin 13-dən ikisi, 163 neft quyusundan isə cəmi 21-i azərbaycanlı sahibkarlara məxsus idi. Azərbaycan-erməni qarışıq kapitalı H.Z.Tağıyev və Sərkisov firmasının neft verən torpaqların alınmasına sərf olunan məbləğin yalnız 0,5

faizini təşkil edirdi. Lakin XIX əsrin 70-ci illərinin sonlarından etibarən neftçıxarmada Azərbaycanın milli kapitalı artmağa başlamışdı. 1878-ci ildə milli kapitalı təmsil edən firmaların gündəlik neft hasilatı bu iri neft sənayesi rayonundan ümumi hasilatın 4,2 faizini, Azərbaycan-erməni birgə kapitalını təmsil edən firmaların gündəlik neft hasilatı 8 faizini, birgə rus-Azərbaycan firmalarının ümumi hasilatı isə 1,6 faizini təşkil edirdi. XIX əsrin axırlarında milli burjuaziya nümayəndələrinə məxsus firmaların mövqeyi zəifləyir və neft hasilatı cəmi 5 faizini təşkil edirdi. Azərbaycan-erməni qarışıq kapitalı olan firmalar ləğv olunmuş, rus-Azərbaycan firmaları isə ümumi neftin cəmini - 0,2 faizini çıxarırdı. 1883-cü ildə 135 neft sənayesi müəssisəsi sahibkarları içərisində milli kapital nümayəndələrinin sayı 17 nəfər idi: H.Z.Tağıyev, H.Səlimxanov, A.M.Qafarov, A.Qarayev, M.Q.Səlimxanov, Q.B.Həşimov, N.Nuriyev və b.. XIX əsrin axırlarında isə 167 neft sənaye müəssisələrindən 49-u azərbaycanlılara mənsub idi. Bu müəssisələrin əksəriyyəti xırda idi. Məsələn, ildə 100 min pud neft hasil edən müəssisələrin 33,3 faizi, 100-500 min pud neft hasil edənlərin 48,7 faizi, 500 min pud – 1 milyon pud neft çıxaranların isə yalnız 12,5 faizi azərbaycanlı: H.Z.Tağıyev, H.Səlimxanov, A.M.Qafarov, A.Qarayev, M.Q.Səlimxanov, Q.B.Həşimov, N.Nuriyev və b. kapitalistlərin payına düşürdü. Bunun səbəbi neft sənayesinin inkişafına daha böyük kapital qoyuluşunun tələb olunması idi. Çox kiçik istisnalarla yerli milli kapitalistlərdə isə belə imkanlar yox idi.

XX əsrin əvvəllərindən başlayaraq milli burjuaziya nümayəndələrinin mövqeyi bir qədər qüvvətlənməyə başlayır. Onların içərisində H.Z.Tağıyev, A.M.Nağıyev, Ş.Əsədullayev, İ.Hacınski, L.Manafov, M.Muxtarov və başqaları fərqlənirdilər.

H.Z.Tağıyev 1873-cü ildən neft hasilatı işinə başlamışdı. XIX əsrin 80-cı illərindən onun artıq ağ nefti və sürtkü yağları zavodu vardı. 1896-cı ildə o, 32,3 milyon pud neft çıxarmış və 2 milyon pud neft emal etmişdi. Bəzi məlumatlara görə, XX əsrin başlanğıcında onun varidatı 16 milyon rubl təşkil edirdi. H.Z.Tağıyev 1897-ci ildə neft mədənlərini və ağ neft-yağ zavodunu, Xəzərdə neft gəmilərini 5 milyon qızıl rubla ingilis bankının direktorlarından biri olan E.Qubbarta satmışdı. Lakin o, ingilis maliyyəçilərinin yeni yaratdıqları firmada "Oleum" da iki səhmdar payçı kimi iştirak edirdi. Onun özünün və həyat yoldaşının əlində saxlanılmış səhmlər onlara bu firmanın direktorlar şurasının üzvləri olmağa imkan vermişdir. 1915-ci ildə H.Z.Tağıyev, zadəganlardan Əlibəy Aşurbəyov, tacir Ağahüseyn Tağıyev və Əsədulla Əhmədov neftçıxarma və neftsatışı üzrə «H.Z.Tağıyev – neft sənaye cəmiyyəti» şirkəti yaratmışdılar.

Digər azərbaycanlı iri kapitalist Ağa Musa Nağıyev idi. O, XIX əsrin 70-ci illərindən sonra neftçıxarma və neft emalına başlamışdı. 1900-cü ildə A.M.Nağıyevin şirkəti 7,5 milyon pud neft çıxarmışdı.

1908-ci ildə A.M.Nağıyevin Ramanadakı neft mədənlərində 308 fəhlə, Sabunçuda olan neft mədənlərində isə 634 nəfər işləyirdi. Onun vəfatından sonra neft mədənləri və sənaye müəssisələrindən istifadə etmək üçün «Musa Nağıyevin varisləri» adlı Səhmdar Cəmiyyəti təşkil olunmuşdur. Cəmiyyəti Mirzə Şəmsi oğlu Əsədullayev, Məlikməmməd Kərimov və Tağı Ağa Əli oğlu Nağıyevin daxil olduğu qrup idarə edirdi. «Musa Nağıyevin varisləri» Cəmiyyətin Binəqədidə, Sabunçuda, Zabratda, Bülbülədə, Qalada, Binədə, Əmircanda, Xırdalanda, Digahda, Masazırda, Fatmayıda, Biləcəridə, Sarayda və Zığda mədənləri var idi.

Digər neft kapitalisti olan Şəmsi Əsədullayev XIX əsrin 90-cı illərində neft çıxarmaqla məşğul olmuş və sürətlə varlanmışdı. 1890-cı ildə Ramanada Şəmsi Əsədullayevin neft quyuları fontan vurmuş və gündə 800 min pud neft çıxarılmışdır.

**Şəmsi Əsədullayev və Ağa Musa Nağıyev 1896-cı ildə «Böyük Puta» adlı yerdə Məşədi Əbdülrəhman Məşədi Əliqulu oğluna məxsus 242 desyatinlik torpaq sahəsini satın alıb, neft mədənlərini salmışdılar. Şəmsi Əsədullayev 1900-cü ildə, 7,3 milyon pud neft çıxarmış, 11,5 milyon pud neft məhsulları satmışdır. 1904-cü ildə Şəmsi Əsədullayev və İbad bəy Tahirov Moskvada, Zakaspidə və İranda neft məhsulları satışı üzrə müqavilə bağlamışdı. 1907-ci ildə onun Ramanıdakı mexaniki təmir emalatxanasında, qazan emalatxanasında, elektrik stansiyasında 466 nəfər, neft mədənində isə 16 fəhlə işləyirdi.**

1905-ci ildən mövcud olan Əmiraslanov qardaşlarına məxsus "Neftçıxarma firması" da nisbətən iri idi. Bu firma 1905-ci ildə 81 min pud, 1908-ci ildə 908,4 min pud, 1910-cu ildə 1 milyon 307 min pud neft çıxarmışdır.

Əlibəy və Balabəy Aşurbəyov qardaşlarına məxsus firma 1901-ci ildən mövcud idi. Bu firma 1904-cü ildə 28 min pud neft çıxardığı halda, 1911-ci ildə bu rəqəm 1 milyon 324 min puda qalxmışdı. İri firmaların biri 1900-cü ildən fəaliyyət göstərən «Mayılov və Tahirov» neft cəmiyyəti idi. Bu firma 1904-cü ildə 1 milyon 912 min pud, 1908-ci ildə 2 milyon 550 min pud, 1913-cü ildə oktyabrın 1-nə kimi 4 milyon 746 min pud neft hasil etmişdir. 1913-cü ildə A.Quliyev, M.Mirbabayev, İ.Quliyev və M.Ələsgərov Bayılda neft çıxarmaq üçün sahə almış və «Heybət» cəmiyyəti yaratmışdılar. Cəmiyyətin ilkin kapitalı 115.000 rubl idi.

Göründüyü kimi, neft sənayesində Azərbaycan milli kapitalı həlledici olmasa da, müəyyən rol oynayırdı.
«Баку и его районы» (Bakı və onun rayonu) toplularında cəmləşdirilmiş statistik materiallara əsasən neft sənayesində Azərbaycan milli kapitalının nümayəndələrinin sayını müəyyənləşdirmək mümkün olmuşdur. Doğrudur, bu hesablamanı tam dəqiq hesab etmək olmaz. Belə ki, bu toplularda gətirilən 1904-cü ildən 1913-cü illərə dair olan məlumat bütün illəri əhatə etmir. İllərin çoxu üzrə azərbaycanlı kapitalistlərin, onlara məxsus olan firmaların adları göstərilsə də onların bəzisi üzrə hər birinin mülkiyyətində olan mədənlər və həmin mədənlərdə işləyən fəhlələr, mədənlərin və firmaların istehsal səviyyəsi, illik neft məhsulu barəsində məlumat verilmir. Məsələn, 1904-cü ilə dair məlumata görə Bakı neft sənayesində azərbaycanlı kapitalistlərə məxsus olan firmaların sayı 59-a çatırdı. Lakin bu firmaların yalnız 15-i üzrə fəhlələrin sayı, 16-sı üzrə isə neft mədənlərinin sayı və hasil edilmiş neftin miqdarı barəsində məlumat verilir. Təəssüf ki, sonrakı illər üzrə olan məlumat da belə yarımçıq və kəsirlidir. Buna baxmayaraq «Баку и его районы» toplusunda verilən məlumatdan başqa, digər topluların, mənbələrin əksəriyyətində buna bənzər məlumat verilmədiyindən, əlbəttə, həmin topludan əldə edilmiş və aşağıda gətirəcəyimiz statistik məlumat böyük əhəmiyyət və qiymət kəsb edir. Belə ki, yarımçıq da olsa, təsəvvür yarada bilən «Баку и его районы» toplusunun verdiyi məlumatı nəzərə almadan Bakı neft sənayesində azərbaycanlı kapitalistlərin tutduğu mövqelərini, onların bu sənaye sahəsində xüsusi çəkisini müəyyən etmək çox çətindir. 1904-1913-cü illərə dair «Баку и его районы» toplusunda cəmlənmiş materiallardan aydın olur ki, 59 azərbaycanlı neft sənaye sahibkarlarının əksəriyyəti kiçik kapitalistlər idi. Bu dövrdə onlardan yalnız

ikisini – Ağa Musa Nağıyevi və Şəmsi Əsədullayevi iri sənaye sahibləri sırasına qatmaq olar.

Adları çəkilən iki sahibkarın mülkiyyətində olan buruqların, bütün 59 sahibkarların mülkiyyətində olan buruqların illər üzrə orta hesabla 4-də 1 hissəsindən çoxunun həmin buruqlarda çalışan fəhlələrin 3-dən 1-ni, bəzi illər üzrə isə 3-də 1-dən çoxunu, hasil edilmiş neftin isə 3-də 1 hissəsini təşkil edirdi.

Azərbaycanlı neft sənayeçiləri arasında Aşurbəyov qardaşları, Məmmədov, Məlikov, Həsən Mustafayev, Mirtağı Mirbabayev, İsa bəy Hacınski kimi nisbətən varlı neft sənayeçiləri də var idi. Əgər 1904-cü ildə onların hər birinin mülkiyyətində 5-dən 17-yə qədər neft quyusu var idisə, bu mədənlərdə 30-dan 200 nəfərədək fəhlə çalışır və hər biri 328 min puddan 1 milyon puda kimi neft hasil edirdilərsə, 1911-ci ildə buruqların orta sayı 18-32, fəhlələrin sayı 80-250 təşkil edir, hər birinin illik neft hasilatı isə 1 milyon puddan çox idi. Digər sənaye sahibləri 2-8 buruğu və 20-50 fəhləsi olan, ildə 150-200 min, bəzi illərdə bir qədər çox neft hasil edən kiçik sahibkarlar idilər.

Fabrik müfəttişliyinin 1908-1910-cu illərə dair daha dəqiq məlumatı da bu nəticəni təsdiq edir. Fəhlələrin sayına aid olan məlumata görə, Ağa Musa Nağıyevin Sabunçuda və Ramanada olan mədənlərində 1908-ci ildə 621, 1909-cu ildə 690, 1910-cu ildə təkcə Ramanı mədənlərində 540 fəhlə çalışırdı. Bu mənbədə Şəmsi Əsədullayevin mədənlərində çalışan fəhlələr barəsində məlumat görünür səhv düşüb. Belə ki, burada onun fəhlələrinin sayı 30-31 nəfər göstərilir. 1909-cu ilə aid olan həmin mənbədən məlum olur ki, Ş.Əsədullayevin təkcə Sabunçuda olan mədənlərində 31 fəhlə çalışırdı. Ramanıdakı mədənlərində isə 313 fəhlə işləyirdi.

Biz həmin illərdə Bakı neft sənayesində nisbətən daha iri bir şirkətin yarandığını görürük. Bu H.Məlikov, K.Mahmudov

və Kələntərova məxsus şirkət idi. Onların mədənlərində 140-146 fəhlə işləyirdi.
Fabrik müfəttişliyinin 56 azərbaycanlı kapitalisti və onlara məxsus firmaları əhatə edən siyahısında 50-dən çox fəhləsi olan bir neçə azərbaycanlı sahibkarı görürük. Onlardan 51-75 fəhləsi olan Əmiraslanov qardaşlarını, 70-81 fəhləsi olan F.Aşurbəyovu, 40-42 fəhləsi olan K.A.Zərbəliyevi qeyd etmək olar. Digər sahibkarların isə hər birinin mədənində 15-dən 40-a qədər fəhlə çalışırdı.Bir neçə şirkətdə çalışan fəhlələrin sayı10-a çatırdı.
Fabrik müfəttişliyinin 1909-cu ilə dair məlumata əsasən Bakı neft sənayesində fəaliyyət göstərən 44 azərbaycanlı neft sahibkarı qeydə alınmışdır. Bu məlumatda fəhlələrin sayı ilə yanaşı hasil edilmiş neftin miqdarı da göstərilir. Məlumatdan aydın olur ki, Ş.Əsədullayev və A.M.Nağıyevlə bərabər, 215 fəhləni birləşdirən A.S.Məlikova məxsus 2 şirkət 2,5 milyon puda qədər neft hasil etmişdir. Qalan nəticələr yuxarıda qeyd edilmiş məlumata tam uyğun gəlir.
1914-cü ilə aid məlumata görə, Bakı neft sənayesi rayonunda 58 azərbaycanlı kapitalistə məxsus olan 83 firma var idi. Məlumatda fəhlələrin sayı göstərilmir. Bununla bərabər burada hasil edilmiş neftin miqdarı haqqında məlumat verilir. Sahibkarlar üzrə firmaların hasil etdiyi neftin miqdarı üzrə onları aşağıdakı qruplara bölmək olar:
I.Bir milyon puddan çox neft hasil edən - 8 sahibkar var idi. bunlar:
1. Şəmsi Əsədullayev – 4.966.350 pud
2. Eyvazov və Qədirov – 4.693.202 pud
3. Musa Nağıyev – 3.661.109 pud
4. Məlikov A.S. – 2.575.569 pud
5. Mirtağı Babayev – 2.360.744 pud

6. Əmiraslanov qardaşları – 1.720.221 pud
7. Məlikov və Mahmudov – 1.608.755 pud
8. İ. Hacınski – 1.092.910 pud.
2. 500 min puddan 1 milyon puda qədər neft istehsal edən sahibkarlar Z.Aşurbəyov qardaşları, M.Səlimov, A.Məlikov.
3. 200 mindən 500 min puda qədər neft hasil edən 9 sahibkar: - Qədimov, H.Mustafayev, İ.Nabatov, Z.Babayev, Babayev və Balayev, Hacınski və Qədimov qardaşları, Q.A.Rzayev, A.Quliyev, S.B.Səlimxanov.
4.100 mindən 200 min puda qədər neft hasil edən 12 sahibkar.
5.1400 puddan az neft hasil edən - 26 sahibkar.
Göründüyü kimi, 1914-cü ildə Bakı neft sənayesində azərbaycanlı kapitalistlərin böyük əksəriyyətini 1 milyon puddan az neft istehsal edən sahibkarlar təşkil edirlər.
Bəs azərbaycanlı sahibkarların Azərbaycan neft sənayesində ümumi mövqeyi necə idi?
Bakı neft sənayesində azərbaycanlı sahibkarların tutduğu mövqeyi müəyyənləşdirmək üçün, məlum olduğu kimi onların mülkiyyətində olan mədənlərin miqdarını və miqyasını, bu mədənlərdə çalışan fəhlələrin sayını, həmçinin çıxarılan neftin miqdarını müəyyən etmək vacibdir. Eyni zamanda, digər kapital nümayəndələrinin neft sənayesində mövqeyini müəyyən edib, tutuşdurma yolu ilə məqsədə nail olmaq olar. Demək, azərbaycanlı kapitalistlərə məxsus olan mədənlərin, orada çalışan fəhlələrin sayını və hasil olunmuş neftin, eləcə də istehsal edilmiş neft məhsullarının miqdarını müəyyən etməklə yanaşı, digər milli kapitallara aid mədənlər üzrə də bu işi görmək lazımdır.
1908-1910-cu illərə dair məlumata görə, Bakı neft sənayesində 56 azərbaycanlı kapitalistin firması olmuşdur. Onlara məxsus

olan mədənlərdə 1908-ci ildə 3320, 1909-cu ildə 3696, 1910-cu ildə isə 3653 fəhlə çalışırdı.

Təəssüf ki, azərbaycanlı sahibkarların hər birinin ayrılıqda hasil etdiyi neftin miqdarı barədə əldə olan məlumat yarımçıqdır. Bu məlumatlar bütün sahibkarlar və firmalar üzrə deyildir. Məsələn, 1904-cu ilə dair məlumata görə, iri neft sahibkarları Ş.Əsədullayev, Aşurbəyov qardaşları, Mirtağı Məlikov, Hüseyn və K°, Tahirovun cəmiyyəti, Həsən Mustafayev, Murtuza Muxtarov, Ağa Musa Nağıyev, Nurməmməd Nuriyev və Zeynalov qardaşları birlikdə 28 milyon 491 min pud neft hasil etmişdilər.

Bundan əlavə, azərbaycanlılara məxsus «Aqbur» və «Bəxt» neft şirkətləri də vardı. Bu şirkətlər 1904-cü ildə 2 milyon 190 min pud neft çıxarmışdılar. Beləliklə, həmin il azərbaycanlılara məxsus neft sahibkarları 30 681 000 pud neft hasil etmişdilər. Mənbədə habelə "Əliyev Əlibala və K°", "Aslanov", "Bünyadov qardaşları", "Cəbiyev və K°", "M.İsmayılov və K°", "Malıyev Bala Əliağa", "Rəsulov və K°", "Səlimov Mövsüm və K°", "Yusifoğlu Hacılı" adlı neft firmalarının da adları çəkilir. Lakin onların mədənlərinin neft hasilatı haqqında məlumat verilmir.

1905-ci ildə neft sahibkarlarının sırasına Əmiraslanov qardaşlarına mənsub firma, 1906-cı ildə Əliyev və Eminov Cəmiyyəti, "Hüseynov Bala və Orucov" Balahüseynə məxsus neft firmaları qatılmışdı. 1907-ci ildə milli neft sahibkarları ailəsinə Əmiraslanov və Cəfərov qardaşları, "Aslan Cəmiyyəti", Həsənov Məmmədsadıq və Əliyev, Quliyev qardaşları, Zərbəliyev Kərabəlayi, Aşurov və Muxtarov, Ədbül Nuriyev, eləcə də Hüseynov Şıxəliyə məxsus neft firmaları, habelə «Mədinə» adlı firma da əlavə olunur.

1908-ci ildə milli neft sahibkarları içərisində əvvəlki illərdə qeyd edilənlərdən başqa Aslanov, A.Q.Eyvazov, M.B.Qədirov, Qədimov qardaşları, Əliyev, Abbasov və K°, Məlikov, Mahmudov, Kələntərov, Rzayev, D.B.Yüzbaşov və b. firmaların adları da çəkilir.

1909-cu ildə Bağırov Həmən və Bəhmən, Dadaşov Əlibala, Qədimov qardaşlarına və Məlikov Hüseynə məxsus yeni neftçıxarma firmaları yaranır.

Qeyd etmək lazımdır ki, mənbələrdə azərbaycanlı sahibkarlara neft firmaları məxsus olmayıb, lakin onların nümayəndələrinin burada bu və ya digər şəkildə iştirak etdikləri:

- «Amur» neft birliyi 1908-ci ildən, «Anahid» 1907-ci ildən, «Bənnəd» 1900-cü ildən, «Cədid» 1906-cı ildən, müdiri İbrahimov olan və 1900-cü ildən fəaliyyət göstərən «Нафталанское нефтяное обшество (Naftalan neft cəmiyyəti)» və « Соучастники (Şəriklər)» adlı neft və ticarət cəmiyyəti, «Ticarət», «Труд (Əmək)» - başçısı Məmmədəli Muxtarov və Ş.Ramazanov, Z.Babayev və H.Camalov daxil olan «Şirvan», «Armuz» - neft firmalarının da adları çəkilir.

1911-ci ildə Bakı neft rayonunda azərbaycanlı sahibkarlar sırasında Q.Ələkbərov, Ağasıbəy Aşurbəyov və b. da əlavə olunur.

1913-cü ildə Bakıda milli burjuaziya nümayəndələrinə məxsus yeni neft firmaları yaranır. Bu siyahıya daxil olanlar: "Axundov və Aşurbəy K°", İbrahim bəy, Manafov və Səfərəliyevin "Bakı-Tiflis neftötürmə və ticarət cəmiyyəti", Qədimov və Cəbiyevin firması, Ş.İbrahimovun "İqbal" cəmiyyəti, Qədimov və Eyvazovun firması, Q.A.Rəsulovun firması, "Ülfət" cəmiyyəti, "Hüseyniyyə" firması və b. Ümumiyyətlə, o zaman Bakı neft sənayesində 203 firma var idi ki, onların 62-si azərbaycanlılara məxsus idi.

Qeyd edilməlidir ki, bir sıra azərbaycanlı sahibkarlara məxsus firmaların bəzilərinin neft hasilatı haqqında məlumat yoxdur. Məsələn, 1906-cı ildən mövcud olan «Cədid» adlı neft şirkəti İbrahimov adlı bir nəfərə məxsus idi. Həmin şirkət 1906-cı ildə 231,2 min pud; 1909-cu ildə 262,6 min pud; 1913-cü ildə isə 328,7 min pud neft çıxarmışdı.

Azərbaycan neft sənayesində azərbaycanlı sahibkarların xüsusi çəkisini, mövqeyini müəyyənləşdirməkdən ötrü bu sənaye sahəsində rus, erməni, xarici kapital nümayəndələrinin hər birinin ayrılıqda xüsusi çəkisini, mövqeyini müəyyənləşdirmək, sonra müqayisə yolu ilə nisbi rəqəm almağın zəruriliyi aydındır. Əlimizdə neft sənaye sahibkarlarının siyahısının, bu sahibkarların hər birinin mədənlərinin və bu mədənlərdə çalışan fəhlələrin sayı, hər bir sahibkarın mülkiyyətində olan neft mədənlərinin illik istehsal gücü barəsində məlumat verən « Баку и его районы » kimi mənbənin olmasına baxmayaraq, belə bir işin öhdəsindən tam dəqiqliklə və müfəssəl şəkildə gəlmək hələlik mümkün deyildir.

Məlum olduğu kimi, XX əsrin əvvəlinə aid olan bu mənbədə neft sənaye sahiblərinin bilavasitə adını göstərən tək sahibkarlar və firmalarla yanaşı səhmdar cəmiyyətlər də vardır. Şübhəsiz ki, buna görə neft sənayesində bu və ya digər milli kapitalın mövqeyini müəyyən etmək üçün səhmdar cəmiyyətlərə dair rəqəmləri nəzərə almayacağıq. Əslində, bu və ya digər səhmdar cəmiyyətinin hansı kapitalın nümayəndəsinə məxsus olması barəsində məlumat verilsəydi də, yenə də bu və digər milli kapitalın neft sənayesində mövqeyini müəyyən etmək üçün həmin səhmdar cəmiyyətlər barəsində gətirilmiş rəqəmlərdən istifadə etmək düzgün olmazdı. Çünki bu və ya digər səhmdar cəmiyyətinin idarə heyətinə daxil olanların adı göstərilsə də, bu cəmiyyətin kapitalı təkcə həmin sahibkarlara

deyil, səhmdarlar qrupuna aid idi. Bu qrupa isə səhmdar cəmiyyətinin idarə heyəti üzvlərinin hansı kapital nümayəndəsinə məxsus olmasına baxmayaraq, müxtəlif millətlərin nümayəndələri daxil ola bilərdilər. Ona görə də biz neft sənayesində bu və ya digər milli kapital nümayəndələrinin mövqeyini bölmüşük. Sahibkarların adlarına müvafiq olaraq onları azərbaycanlı, rus, erməni və xarici kapital nümayəndələri siyahısına daxil etmişik. Adsız və xarici kapital nümayəndələrinə məxsus firmaları və səhmdar cəmiyyətləri isə «naməlumlar» qrupuna daxil etmişik.

Tədqiq etdiyimiz mövzunun məqsədilə əlaqədar olaraq başlıca vəzifəmiz azərbaycanlı sahibkarlara məxsus olan kapitalın neft və digər sənaye sahələrində tutduğu mövqeyi, xüsusi çəkisini müəyyən etmək mümkün olduğundan, zənnimcə, seçdiyimiz yolla da bu işi görmək mümkündür. Onu da etiraf edirəm ki, bu üsulla çıxarılan nəticələrə müəyyən şərtiliyin yol tapa biləcəyi ehtimalını da rədd etmək olmaz. Yuxarıda azərbaycanlı sahibkarlar, onların neft sənayesində say tərkibi, mülkiyyətlərində olan mədənlər, fəhlələrinin sayı və istehsal etdikləri neftin miqdarı üzrə müəyyən məlumat verdik. İndi həmin illər üzrə rus, erməni və digər kapital nümayəndələrinin tutduqları mövqeləri, onların xüsusi çəkisini müəyyənləşdirmək yolu ilə azərbaycanlı kapitalistlərin neft sənayesində xüsusi çəkisini aydınlaşdırmaq lazımdır.
1908-ci ilə dair məlumata görə neft sənayesində fəaliyyət göstərən 40 erməni kapitalı nümayəndəsinin sərəncamında 848 neft buruğu var idi. Bu buruqlarda 5748 fəhlə çalışırdı. 1918-ci ilə aid məlumatda erməni kapitalı nümayəndələrinə cəmi 818 buruğun məxsus olduğu göstərilir.

Eyni məlumatları 1914-cü ilə də aid etmək olar. Həmin ilə dair məlumatda cəmi 13 erməni kapitalı nümayəndəsinin adı

çəkilir, onların sərəncamında 451 buruğun olması, bu buruqlarda 1598 fəhlənin çalışması bildirilir.
Rus kapitalını təmsil edən sahibkarlar və onların sayı, buruqları və fəhlələri barəsindəki məlumat daha bitkindir. 1908-ci ildə Bakı neft mədənlərində rus kapitalının 42 nümayəndəsi fəaliyyət göstərirdi. Onların sərəncamında olan 413 buruqda 2239 fəhlə çalışırdı. 1912-ci il məlumatında erməni kapitalı nümayəndələrindən fərqli olaraq rus kapitalına məxsus buruqların və fəhlələrin sayının xeyli artdığını görürük. Belə ki, həmin ildə onların buruqlarının sayı 779-a, burada işləyən fəhlələrin sayı isə 5373-ə çatmışdır.

1914-cü ildə buruqların sayı artıb 904-ə çatsa da, fəhlələrin sayındakı artım 91 nəfər olub, cəmi isə 5462 nəfər təşkil edib.
"Naməlumlar" qrupu üzərində dayanmazdan əvvəl qeyd etmək istərdik ki, bu qrupa yuxarıda adlarını çəkdiyimiz kapitalların nümayəndələri, o cümlədən azərbaycanlı sahibkarların nümayəndələri, məsələn Hacı Zeynalabdin Tağıyev kimi iri kapitalistlər daxil idi.

1908-ci ilin məlumatına görə bu qrupa 82 şirkət-firma daxil olub. onların sərəncamında 2443 buruq var idi. Burada çalışan fəhlələrin sayı 21137-yə çatmışdır. 1912-ci ilin məlumatına görə buruqların sayı 2689, çalışan fəhlələrin sayı 17079 idi.

Göründüyü kimi 1912-ci ilə dair məlumata görə, buruqların sayı 250-yə qədər artsa da, fəhlələrin sayı 4 mindən çox azalmışdır. 1914-cü ilə dair məlumat isə demək olar ki, yarımçıqdır. Belə ki, həmin ilə dair məlumata görə 2230 buruqda 11735 fəhlə çalışırdı. Demək, buruqların miqdarında o qədər də dəyişiklik olmasa da fəhlələrin sayı 1908-ci ilə nisbətən, təxminən yarıbayarı azalmışdır.

Əldə olan materialları tutuşdurduqda görürük ki, Bakı neft istehsalatı sahəsində azərbaycanlı kapitalın xüsusi çəkisi buruqların sayına görə 11-13 faizi, fəhlələrin sayına görə isə 10-16,4 faizi təşkil edirdi. Əlbəttə, bu rəqəmin azərbaycanlı kapitalistlərin neft sənayesindəki mövqeyini olduğu kimi əks etdirən rəqəm kimi qəbul etmək olmaz. Yuxarıda qeyd etdiyimiz kimi, milli mənsubiyyəti məlum olmayan bir çox firmalar, həmçinin səhmdar cəmiyyətlərdə azərbaycanlı kapitalistlərin də iştirakı şübhəsizdir. Məlum olduğu kimi, H.Z.Tağıyev öz mədənlərini ingilis kapitalı nümayəndələrinə satsa da, o həmin səhmdar cəmiyyətin payçısı və icraçı direktorlardan biri kimi qalır. Cəmiyyətin 200 min rublluq səhmi ona məxsus idi. Şübhəsiz ki, digər səhmdar cəmiyyətlərdə də belə azərbaycanlı kapitalistlərin payı olmuşdur. Bütün bunları nəzərə alsaq, tam əminliklə neftçıxarma istehsalı sahəsində azərbaycanlı kapitalistlərin xüsusi çəkisinin 15-20 faizə qədər olduğunu mülahizə etmək mümkündür.

Bu sənaye sahəsində erməni kapitalının xüsusi çəkisi 1908-ci il məlumatına görə böyük idi: buruqların sayına görə 21 faiz, fəhlələrin sayına görə isə 17,6 faiz təşkil edirdi. Lakin 1912-ci və 1914-cü illərə dair məlumatlardan göründüyü kimi, bu kapital nümayəndələrinin neft sənayesində mövqeyi əsaslı surətdə zəifləyir. Nə üçün? Bu suala dəqiq cavab vermək çətindir. Belə güman etmək olar ki, erməni kapitalı nümayəndələri neft sənayesini tərk etməmişdilər. Görünür onlar müxtəlif səhmdar cəmiyyətlərdə birləşmiş, bu adsız cəmiyyətlər isə «Naməlumlar» qrupuna düşmüşdü.

Rus kapitalı nümayəndələrinin mövqeyinə gəldikdə isə biz əks mənzərəni görürük. Əgər 1908-ci ildə rus kapitalı nümayəndələrinin neft sənayesində mövqeyi onlara məxsus

buruqların sayına görə cəmi 10,2 faiz, fəhlələrin sayına görə isə daha az – 6,9 faiz təşkil edirdisə, 1912 və 1914-cü illərdə gözə çarpacaq sıçrayış görürük. 1908-ci ilə nisbətən 1914-cü ildə rus kapitalı nümayəndələrinin neft sənayesində mövqeyi buruqların sayına görə iki dəfədən çox, fəhlələrin sayına görə isə dörd dəfəyə qədər artır.

1900-1907-ci illərdə Bakı şəhərində mövcud olan 34 buruq podrat qazma müəssisəsinin üçü milli kapital nümayəndələrinə məxsus idi. Milli burjuaziya nümayəndəsi Murtuza Muxtarovun müəssisəsi böyük sayılırdı və orada 1907-ci ildə 1950 fəhlə çalışırdı. 1908-ci ildə onun təkcə Bibiheybətdəki təmir emalatxanasında və podrat qazma müəssisəsində 755 fəhlə işləyirdi. Digər böyük podrat qazma müəssisəsi Şaban Ramazanova məxsus idi. 1906-1907-ci illərdə onun təkcə mexaniki zavodunda 184 fəhlə işləyirdi.

1908-1909-cu illərdə podrat qazma müəssisəsi və mexaniki emalatxanaları olan kapitalistlərdən biri də S.Q.Atabəyov idi. Onun üç müəssisəsində müvafiq olaraq 150, 148 və 60 fəhlə çalışırdı.

1913-cü ildə Bakı neft sənayesinin bütün sahələrində milli burjuaziyanın mövqeyi daha da güclənmişdi. Bu, özünü podrat qazmada da göstərirdi. Həmin ildə Bakıda cəmi 45-dən artıq götürə üsulla qazma müəssisəsi fəaliyyət göstərirdi. Onlardan 7-si azərbaycanlılara məxsus idi. B.Əbiyev və M.Dadaşov şirkət təşkil etmişdilər. Bir neçə burjua nümayəndəsi «Abşeron» adlı başqa bir şirkət yaratmışdı. Sabunçuda yerləşən, 65 fəhləsi olan bu şirkətin böyük mexaniki zavodu var idi. Zavodun iki quyu qazan dəzgahı da var idi. “Atabəyov S., Vartanov və K°” adlı digər cəmiyyətin Zabratdakı mexaniki zavodunda 100 fəhlə çalışırdı. Zavodun 8 quyu qazan dəzgahı var idi.

Babayev Ağa adlı birisinin emalatxanasında 20 fəhlə işləyirdi və onun 2 buruq qazan dəzgah var idi. Digər «Həmiət» adlı şirkət Şaban Ramazanovun olub. Onun mexaniki zavodunda 154 fəhlə çalışırdı. Zavodun bir buxar qazanı, bir buxar maşını, 10 buruq qazan dəzgahı, 12 mexaniki dəzgahı, 6 ocağı var idi. M.Muxtarovun Səhmdar Cəmiyyətinin Balaxanıda və Bibiheybətdəki mexaniki m 130 fəhlə çalışır, 450 fəhlə isə podrat qazmada işləyirdi.

Bu istehsal sahəsində M.Muxtarovdan sonra Atabəyov və Ramazanov nisbətən iri sahibkarlar sayılırdı. Digər iki sahibkar isə nisbətən kiçik sahibkarlar qrupuna daxil idilər. Ümumiyyətlə götürdükdə isə beş sahibkarın müəssisələrində illər üzrə göstərilən rəqəmləri nəzərə alsaq, orta hesabla burada 1800-ə yaxın fəhlə çalışırdı.

Götürə üsulla buruqqazma istehsalat sahəsində azərbaycanlı kapitalının mövqeyini müəyyənləşdirmək üçün başqa milli kapitalların da xüsusi çəkisini müəyyən etmək lazımdır. Ancaq bu haqda lazımi qədər məlumat yoxdur. Olan statistik material əsasında bunu yalnız təxmini şəkildə müəyyən etmək olar. Bunun üçün azərbaycanlı kapitalistlərin bu istehsalat sahəsində xüsusi çəkisini müəyyən etməkdən ötrü neft istehsalı sənayesi sahəsində bu işi müəyyənləşdirmək üçün istifadə etdiyimiz üsulu əsas götürmüşük.

Götürə üsulla buruqqazmaq sahəsində 1908-1914-cü illərdə 5 mindən 8,3 minə qədər fəhlə çalışırdı. Bu fəhlələrin 20-25 faizi, yəni dörddə birinə qədəri azərbaycanlı kapitalistlərə məxsus olan müəssisələrdə çalışırdı. Neft hasilatı sahəsində olduğu kimi, bu istehsalat sahəsində də naməlum kapital nümayəndələri üstün mövqe tuturdu. Lakin həmin sənaye sahəsində olduğu kimi, burada da erməni kapitalı nümayəndələrinin rolu böyük deyildi. Ancaq bizim fikrmizcə, bu rəqəm erməni kapitalı

nümayəndələrinin götürə üsulla buruq qazmaq sahəsində mövqeyini o qədər də düzgün müəyyənləşdirmir. Görünür, məxsusluğunu müəyyən edə bilmədiyimiz kapital sahəsində erməni kapitalının rolu az deyildir. Şübhəsiz ki, həmin kapitalda azərbaycanlı kapitalistlərinin də payı yox deyildi. Rus kapitalının roluna gəldikdə, neft hasilatı sahəsindən fərqli olaraq, götürə üsulla buruq qazmaq istehsalat sahəsində rus kapitalının xüsusi çəkisi azərbaycanlılara məxsus olan kapitalın ümumi çəkisi ilə təxminən eynilik təşkil edirdi. Azərbaycan burjuaziyasının görkəmli nümayəndələrindən biri olan H.Z.Tağıyev neft sənayesində XX əsrin əvvəllərindən də az-çox fəaliyyət göstərirdi. 1914-cü ilin yayında fəaliyyətə başlamış «Şərqi Qafqaz neft sənayesi və ticarəti» Səhmdar Cəmiyyəti «T.Qulubəyov və N.Məmmədov», eləcə də «P.A.Firsov, S.E.Draqunov və K°» ticarət evləri əsasında yaradılmışdı. Cəmiyyət Duvannı yaxınlığında çoxlu torpaq sahəsi icra etmişdi. Onun əsas kapitalı 1,5 milyon rubl idi.

1914-cü il avqust ayının 14-də keçirilmiş təsis iclasında cəmiyyətin idarə heyətinin sədri H.Z.Tağıyev, müdirliyə isə L.B.Yakuboviç, N.K.Məmmədov, A.A.Kərimov və T.B.Qulubəyov seçildilər. H.Z.Tağıyev 1916-cı ilin sonunda əsas kapitalı 3,5 milyon rubl olan «H.Z.Tağıyev və K°» neft sənayesi və ticarəti səhmdar cəmiyyətini təsis etməklə neft sənayesində əvvəlki mövqeyini bir növ bərpa etməyə müvəffəq olmuşdu.

Şamaxı qəzasında neft axtarışlarını davam etdirən «M.Səlimov və K°» Neft Sənayesi və Ticarət Cəmiyyəti 1916-cı ildə 6 milyon rubl əsas kapitalla fəaliyyətə başlamışdı. Cəmiyyətin təsisçiləri Bakının I gildiya taciri M.Səlimov və başqaları idilər.

«Damla məca» adlı Ələt qışlaqlarından icarə götürdüyü külli miqdarda xəzinə torpaqlarında neft axtaran «Hacınski -Bakı neft sənaye və ticarəti» səhmdar cəmiyyəti 1915-ci ildə təsis

edilmişdi. Onun 1,2 milyon rubl əsas kapitalı vardı, Nizamnamədə təsisçi kimi Bakının I gildiya taciri İsabəy Hacınski gedirdi. 1912-1915-ci illərdə neft sənayesi kapitalistlərindən A.M.Nağıyev, M.Muxtarov, B.X.Cavanşirin Salyan-Şirvan düzlərində (Novo-Vasilyevka kəndi ərazisində, Çəyildə, Lökbatanda, Duvannıda və s. yerlərdə) icarə etdikləri torpaq sahələri 3700 desyatidən yuxarı təşkil etmişdi.

Azərbaycanda neftli torpaqların icarəsi işi o yerə gəlib çatmışdı ki, Azərbaycanın iri torpaq sahiblərindən Adil xan Ziyadxanov, Həmid bəy Zülfüqarov, Rüstəm bəy Rüstəmbəyov, Cahangirxan Nurubəyov, İsmayılxan Ziyadxanov, Ələsgər bəy Xasməmmədov və Haqverdibəy Adıgözəlov ilə birlikdə Tapqaraqoyunlu kəndinin yaxınlığında (Naftalanda) neft hasil etmək məqsədi ilə 35 desyatin torpaq icarəyə götürmüşlər. Sahibkarlar burada həm də neft kəşfiyyatı aparılacağını vəd etmişdilər.

**Neft emalı.** Azərbaycan milli burjuaziya nümayəndələrinin neft emalı sənayesi sahəsində də mövqeyi heç də zəif olmamışdır. XIX əsrin 70-ci illərində Bakıda ağ neft istehsal edən 46 müəssisənin 25-inin azərbaycanlılara məxsus olması bu fikrimizi bir daha təsdiqləyir.

1893-cü ildə isə Bakının 100 kerosin zavodunun sahiblərindən 41-i azərbaycanlı idi. XIX əsrin axırlarında milli burjuaziya nümayəndələrinə məxsus kerosin zavodlarının çoxluğuna baxmayaraq onlar xırda idilər. Buna görə də həmin vaxt Bakıda istehsal olunan kerosinin yalnız 21 faizi milli kapitalın payına düşürdü. Arxiv sənədlərindən aydın olur ki, XIX əsrin sonlarında Bakının təkcə bir sahəsində azərbaycanlı sahibkarlara məxsus kerosin zavodu olub, orada çalışan fəhlələrin sayı 211 nəfər təşkil edib.

1903-1904-cü illərdə həmin sahələrdə kerosin zavodlarının sayı 22-yə qalxmış, buna müvafiq olaraq onların 16-da çalışan fəhlələrin sayı 579-a çatmışdı. 6 zavod üzrə isə bu arxiv sənədlərində fəhlələrin sayı göstərilmirdi.

Milli burjuaziyaya məxsus olan neft emalı müəssisələrinin sayında XX əsrin əvvəllərində elə bir dəyişiklik olmamışdı. 1906-cı ilin məlumatına görə, Bakı neft sənayesi rayonundakı 77 kerosin zavodundan 20-si milli burjuaziya nümayəndələrinə məxsus olub. Onların hamısı buxar maşınları ilə təchiz olunmuşdur. İstehsal həcminə görə ən böyük neft emalı zavodları Ağa Musa Nağıyevə və Şəmsi Əsədullayevə məxsus olub. Ş.Əsədullayevə məxsus iki kerosin zavodunda 59 fəhlə çalışırdı.

1906-cı ildə Ağa Musa Nağıyevin zavodunda çalışan fəhlələrin sayı 60 nəfər təşkil etmiş və burada 3.741 min pud təmizlənmiş kerosin, 3 milyon 633 min pud təmizlənməmiş kerosin və 7494, 7 min pud neft qalığı istehsal olunmuşdu.

Həmin ildə bir neçə kerosin zavodunun istehsal etdiyi məhsulun miqdarı məlum deyil. Eləcə də - Əlibəyov, Ağakişi Əliyev, Məmməd Əliyev, Q.Aslanovun varisləri, K.Axundov və K°, Z.Babayevin «İttifaq», İsabəy Hacınski, Zeynalov və K°, Mənsob «Gün», Q.Zeynalovun varisləri, Zeynalov qardaşlarının «İşıq», Məşədiməmməd Kərimov, Nağı Mehdiyev, Məmmədsəlim Manafov və Məmmədrza Təhməzova məxsus olan zavodların neft məhsulları istehsalının miqdarı göstərilmir. Buna görə də milli burjua nümayəndələrinə məxsus olan kerosin zavodlarında istehsal olunmuş məhsulun ümumi miqdarını müəyyən etmək mümkün deyil.

1907-ci ildə Bakıda cəmi 56 kerosin zavodu fəaliyyət göstərirdi. Onlardan 16-sı azərbaycanlılara məxsus olub, bunlar: Əliyeva Baxışqızı, Məmməd Əliyev, Şəmsi Əsədullayev,

K.Axundov və Z.Zeynalova məxsus «Gün» zavodu, Z.Babayevin «İttifaq» zavodu, Hacıməmməd Vəzirov, İsabəy Hacınski, Q.A.Zeynalovun varisləri və Zeynalov qardaşlarının «İşıq» zavodu, X.Kazımov, Nağı Mehdiyevin "Şüa" zavodu, Məmmədsəlim Manafov, Mustafayev qardaşları, Ağa Musa Nağıyev, Seyidov Hacı Nemətin varisləri və Məmmədrza Əhmədovun müəssisələridir.

Kerosin-yağ zavodlarına gəldikdə onların da sayı az olub. İ.Əmirova məxsus yağ-kerosin zavodu – Saruxanova, H.Z.Tağıyevin zavodu isə Demboya icarəyə verilmişdi.

Beləliklə, 1907-ci ildə mövcud olan 17 kerosin-yağ zavodundan ikisi Azərbaycan milli burjua nümayəndələrinə məxsus olsa da, onların özləri tərəfindən işlədilmirdi. 21 kerosin zavodundan dördü Əmirov, İ.Seyidov, Bağıyev və Qarayevə, yəni azərbaycanlılara məxsus olsa da, bu müəssisələr müvafiq olaraq Saruxanova, Naximova və Demboya icarəyə verilmişdi. Yalnız Qarayevə məxsus olan bir kerosin-yağ zavodu sahibkarın öz istifadəsində idi.

Azərbaycanlı sahibkarların bəziləri öz kerosin zavodlarını da icarəyə vermişdilər. Məsələn, 1906-cı ilə dair məlumata görə, Zeynalov və K°-a məxsus «Gün» zavodu Xatisova, Q.A.Zeynalov varislərinə məxsus zavod Sinoviçə, Məşədi Məmməd Kərimovun varislərinə məxsus olan zavod Koqan və Seytmenə, X.Kazımova məxsus zavod isə Leytesə icarəyə verilmişdi.

1908-ci ildə artıq Bakı şəhərində azərbaycanlı kapitalistlərə məxsus olan 215 kerosin zavodu fəaliyyət göstərirdi. Həmin kerosin zavodlarının illik istehsalının ümumi məbləği belə olmuşdu: Ağa Musa Nağıyevin zavodunda 3.932.237 rublluq, H.Z.Tağıyevin və S.M.Dembonun icarəsində olan zavduda 2.427.903 rublluq, Ş.Əsədullayevin zavodunda – 1.434.156

rublluq, Aslanovun zavodunda – 1.204.100 rublluq, A.S.Məlikovun zavodunda isə – 1.369.234 rublluq məhsul istehsal edilmişdir.

A.M.Nağıyev, H.Z.Tağıyev Ş.Əsədullayev, Aslanov və A.Məlikova məxsus olan iri kerosin zavodlarda isə 1909-cu ildə 11.169.868 rublluq məhsul istehsal olunmuşdur.

1908-1909-cu illərdə Bakıda nisbətən iri kerosin zavodlarının sahibkarları içərisində Hacı Nemət oğlu Seyidov, Bəhmən Musta oğlu Əliyev, Məmməd Kazım oğlu Əliyev, Hacı Məmməd bəy Vəzirov, Şəmsi Əsədullayev, Xaliq Kazımov, Məmmədsəlim Manafov, Nağı Mehdiyev, Kazım bəy Sultanov, Ağa Musa Nağıyev, H.Z.Tağıyev, Təhməzov, Mustafayevlərin adları qeyd edilir.

1909-cu ildə Bakıda milli sahibkarlara məxsus beş kerosin zavodunda 166 fəhlə çalışıb və orada 6 milyon rubla qədər kerosin istehsal olunmuşdur.

Bütün bunlara baxmayaraq, XX əsrin birinci on illiyində emal edilən neftin cəminin 8,1 faizi milli burjua nümayəndələrinə məxsus müəssisələrin payına düşürdü.

1904-cü ildə azərbaycanlıların sahib olduğu 19 neft emalı müəssisəsinin 11-i başqa millətlərə mənsub kapitalistlərin icarəsində olub. Həmin müəssisələr isə emal edilən neftin 4,7 faizini vermişdi. Bunu 8,1 faizin üstünə gəlsək cəmisi 12,8 faiz təşkil edir.

Qeyd etmək lazımdır ki, 1903-1907-ci illərdə bir sıra milli burjua nümayəndələrinin neftayırma müəssisələrinin fəaliyyəti dayandırmışdı. Məsələn, arxiv sənədlərindəki məlumatlara görə 1906-cı ildən Hacı Məmməd Vəzirovun, İsabəy Hacınskinin, Hacıağa Zeynalovun, Xaliq Kazımovun, Mehdiyev-Hüseynov və K°, Mustafayev qardaşlarının, 1907-ci ildə B.K.Əliyevin,

Kərimovun varislərinin, M.K.Əliyevin, Zeynalov qardaşlarının, K.Seyidovun zavodları işləmirdi.

Neft emalı zavodlarının sayı 1913-cü ildə 30-a çatmışdır. Onlardan dörd iri zavod azərbaycanlı sahibkarlara məxsus olub. Ağa Musa Nağıyevin və Şəmsi Əsədullayevin Qaraşəhərdə neft emalı zavodları var idi. Digər neft emalı zavodu İsabəy Hacınskiyə məxsus olub. Q.Qulubəyov və N.Məmmədova məxsus olan və Qaraşəhərdə yerləşən neft emalı zavodunda cəmi 60 fəhlə çalışırdı.

Neft emalı sənayesi ilə bilavasitə bağlı olan sənaye sahəsi kimya sənayesi idi. XX əsrin əvvəllərində Bakıda azərbaycanlı kapitalistlərə mənsub olan kimya zavodunun da fəaliyyəti olub. Əsrin lap əvvəllərindən işləyən, Əmirovlara məxsus bu zavodda 35 fəhlə çalışıb və onun illik istehsal gücü 135 min rubla bərabər olub.

1908-ci ilə kimi işləmiş bu zavodun sahibləri 1907-ci ildə onu icarəyə vermişdilər. İkinci, nisbətən kiçik zavod Səlimxanova məxsus olub. 1901-ci ildə Əhmədov adlı sahibkar 10-dan bir qədər artıq fəhləsi olan bu zavoda şərik olub. 1911-ci ildə isə zavod tamamilə Əhmədovun ixtiyarına keçib.

Yuxarıda qeyd etdiyimiz kimi, digər zavodlar xırda müəssisələr olsalar da buxarla işləyən maşınlarla təchiz olunmuş zavod tipli müəssisələr idi. 1908-ci ilin məlumatına görə, Hacı Məmməd Vəzirovun zavodunda 4, İ.Hacınskinin zavodunda 3, Z.Zeynalov qardaşlarının zavodunda 2, Məmmədsəlim Manafovun zavodunda 4 buxar qazanı var idi. Bu zavodlardan yalnız birində – Hacı Vəzirovun zavodunda - 18 fəhlənin işlədiyi məlumdur. Təəssüf ki, digər 3 zavodda çalışan fəhlələr barəsində məlumat verilmir. 1912-ci ilə aid olan məlumatlara görə həmin zavodlarda buxar qazanlarının sayı, demək olar ki, sabit qalırdı.

Ağa Musa Nağıyev 1879-1880-cı illərdə Qaraşəhərdə kerosin istehsal edən zavod tikdirmişdir; 1891-1892-ci illərdə onun bu zavodunda 31 buxar maşını, 12 dəmir yol rezervuarı vardı. Zavodun istehsal etdiyi ağ neftin (kerosin) miqdarı 2,3 mln. puda çatırdı. Sahibkar hər il müxtəlif istiqamətlərdə 15 mln. pud mazut və yüksək keyfiyyətli digər neft məhsulları da göndərirdi.

Ümumiyyətlə götürüldükdə isə XX əsrin ikinci on illiyinin başlanğıcında, birinci dünya müharibəsi ərəfəsində azərbaycanlı kapitalistlərin mülkiyyətində olan neft emalı müəssisələrində onlarla buxar qazanı olmuş, 250-yə qədər fəhlə çalışıb. Beləliklə, neft sənayesinin əhatə etdiyi istehsal sahələri üzrə olan məlumatları cəmləşdirsək aşağıdakı mənzərə alınır:

- 1904-1913-cü illərdə Neft istehsal sənayesi sahəsində azərbaycanlı sahibkarlara məxsus olan mədənlərdə 3300-dən 4500-ə qədər fəhlə çalışıb və illik neft hasilatı 40-65 milyon puda çatıb. Götürə üsulla buruq qazma sahəsində azərbaycanlı sahibkarların müəssisələrində 1908-1913-cü illərdə 1550-dən 1710-a qədər fəhlə çalışıb. Neft emalı sənayesində isə bu rəqəm cəmi 250 –yə bərabər olub.

Deməli, bütövlükdə XX əsrin əvvəllərində neft sənayesinin bütün sahələri üzrə azərbaycanlı sahibkarların müəssisələrində orta hesabla 5100-dən 6500 nəfərə qədər fəhlə çalışıb. Bunun neft sənayesində çalışan fəhlələrin sayına görə hansı nisbət təşkil etdiyini müəyyənləşdirmək üçün neft sənayesi fəhlələrinin sayını əsas götürmək lazımdır. 1900-cü ilə dair məlumata görə neft sənayesində 19.319 fəhlə, bu sənayeyə xidmət edən mexaniki zavod və emalatxanalarda isə 4.875 fəhlə, cəmi 24.194 fəhlə çalışırdı. 1907-1913-cü illərdə neft çıxarmada 24-30 min, neft emalında 3500-4000, kimya zavodlarında 500-600, bütün neft sənayesində isə, yəni cəmisi

30-35000 nəfər fəhlə çalışırdı. Belə olan halda azərbaycanlı sahibkarların neft sənayesi üzrə müəssisələrində ümumi fəhlələrin təxminən 17-20 faizi qədər, yəni beşdə birinə qədərini təşkil edirdi.

### 1.2. Ağa Musa Nağıyevin sahibkarlıq fəaliyyəti

Ağa Musa Nağıyev (1849-1919) Azərbaycan milli burjuaziyasının nəhəng və görkəmli nümayəndələrindən biri olub. Çox kasıb bir ailədə doğulmuş, yük daşımaqdan böyük firmanın sahibliyinədək ağır bir həyat yolu keçmiş, möhkəm iradə, işgüzarlıq və istedadının hesabına öz dövründə sayılıb seçilən, adını yaddaşlara yazdıra bilən bir milyonçuya çevrilmişdi.

Sahibi olduğu neft firması 1908-ci ildə rekord həcmdə neft çıxarmışdı - 12.328.300 pud xam neft. Bu rəqəm Azərbaycanın neft firmaları arasında o dövr üçün ən yüksək göstərici olub. Tədqiqatlar mübahisələrə heç bir yer qoymadan göstərir ki, sahibkarlıqdan əldə etdiyi gəlirlərini millətin maariflənməsi yönümündə sərf edən mesenatlardan olub. O, 25 müsəlman qızının ibtidai sinifdə oxuması üçün iri məbləğdə ianə verib. Bakıya yaraşıq verən tikililəri içərisində Realnı məktəb, iki mehmanxana və dörd xəstəxana binası xüsusi diqqət cəlb edir. Tikdirdiyi çoxsaylı binalarının üzərindəki venzellər - **MN** (emblema) onun möhürünə çevrilib. Qotik üslubda tikdirdiyi "İsmailiyyə" sarayı kimi milli memarlıq incisi yaradıb. Ağa Musa Nağıyev ən əsası – Bakı su kəmərinin - şollar suyunun çəkilişinə küllü miqdarda vəsait ayırıb.

XIX əsrin axırları–XX əsrin əvvəllərində Azərbaycanın ictimai-iqtisadi həyatında Ağa Musa Nağıyev iri sahibkar kimi tanınmışdır. Anası Rüqiyyə Məşədi Məmmədyarqızı əsl azərbaycanlı evdar qadını kimi, övladlarını böyütməklə məşğul

olub. Ömrünü Hacı Əlinağı Məmməd oğlu ilə Bakının Biləcəri kəndində başa vurub. Ağa Musa 1871-ci ildə Ümmə Səlmə Kərbəlayi Cəfərqızı ilə evlənib. 1879-cu ildə onların oğlu İsmayıl, 1881-ci ildə qızları Ümmül Banu dünyaya gəlir. Uzun sürən ağır xəstəlikdən sonra İsmayıl 26 mart 1902-ci ildə dünyasını dəyişib. . ümmül????

Dövrün müasirlərinin dediklərinə görə ailənin istəklisi olan İsmayıl çox ağıllı, əliaçıq, mehriban bir insan olub. O, incəsənəti çox sevdiyindən aktyorlar, şairlər və rəssamlarla yaxınlıq edərdi. Bu cəhət sonradan Ağa Musanın qardaşı Ağa Əlidən oğulluğa götürdüyü Fərəcin simasında təkrarlanır.

O zaman milyonçular öz aralarında biri-birinə qız verib, oğul evləndirməklə qohumluq əlaqələri olub. Beləki, Ağa Musa Nağıyevin qızı Ümmül Banu – Şəmsi Əsədullayevin oğlu Mirzə Əsədullayev ilə ailə həyatı qurmuşdur. Şəmsi Əsədullayevin digər oğlu Əli isə Hacı Zeynalabdin Tağıyevin qızı Leyla ilə evlənmişdir. Ağa Musa Nağıyevin qardaşı Yusif – Şəmsi Əsədullayevin qızı Xədicə xanım ilə ailə həyatı qurub. Yusif erkən dünyasını dəyişdiyindən, Ağa Musa Xədicə xanımı qardaşı Ağa Əlinin oğlu Tağıya ərə verib.

Üç nəhəng milli sahibkar arasında qohumluq əlaqələrinin yaranması, onların dostluğunun daha da möhkəmlənməsinə, işgüzar əlaqələrinin daha da artmasına səbəb olmaqla bərabər, həm də onların iqtisadi qüdrətini möhkəmləndirirdi.

Ağa Musa Nağıyev və Şəmsi Əsədullayev ilə iş birliyi Ramanadakı meyvə bağlarını almaqdan başlayır. Məhz bu iş birliyi sonradan onların milyonçu olmaları yolunda dönüş nöqtəsinə çevrilir. Elə bu dövrdə ticarət kapitalı ilə sənaye kapitalının əlaqəsi daha qabarıq hiss olunmağa başlanır.

Ağa Musanın portret cizgilərini dövrün müasirləri və oğulluğu Fərəc belə xarakterizə ediblər:

- O, təbiətən dəqiq və hər şeyi ölçüb-biçən insan olub. İllərlə hər çətinliyə sinə gərərək pul toplayıb, qazdığı quyudan su əvəzinə neft fontan vurana qədər, gecə-gündüz quyunun yanından çəkilməyən Musa, fəhlələrlə bərabər ağır işlər görür. Qısa müddət ərzində fəhlə Musa neft maqnatlarından birinə çevrilir. Əldə etdiyi gəlir çoxaldıqca Ağa Musa Bakı kəndlərindəki yataqları satın alır və yeni quyular qazdırırdı. Varlandıqca "Qaraşəhərdə" neft emalı zavodu tikdirir, Xəzər dənizində onun ilk tankeri üzür.

Rusiya Dövlət Bankının göstəricilərinə görə 1879-cu ildə 30 yaşlı Ağa Musanın əmlakı 30 min rubl məbləğində qiymətləndirilib. XIX əsrin 80-ci illərinin ortalarında Ağa Musa Nağıyevin ticarət dövriyyəsi artıq 700 min rubla çatıb. Ağa Musa Nağıyevə II gildiya tacir hüququ verilib.

Ağa Musa Nağıyev 49 yaşında Bakının məşhur milyonçusuna çevrilib. Amma qənaətcilliyindən heç vaxt əl çəkməyib...

Qoçular sifarişlə onu oğurlayarkən, istədikləri 10 min rublı ala bilmirlər. Ağa Musa sözün əsl mənasında onlarla "alver" edib, 1000 rubl verərək qoçulardan canını qurtara bilib. Görünür onun məhz belə hərəkətləri xəsisliyinin el arasında zərbməsəlinə çevrilməsinə səbəb olub.

Mis mədənlərinin xeyli gəlir gətirdiyindən xəbər tutan Ağa Musa, bu mədənlərin neft vura bilməsi ilə maraqlanır. Bunun mümkün olmadığını bilən milyonçu, "fontan vurmayan şeyə maya qoymaram" - deyib.

Dəniz limanında, müxtəlif sahələrdə artıq təcrübə qazanmış Ağa Musanın misin fontan vurması haqda mülahizəsi əlbəttə ki, inandırıcı olmayıb.

Azərbaycan milli burjuaziyasının nəhəg nümayəndələrindən olan Ağa Musa Nağıyev ilk növbədə özünün işgüzarlığı

sayəsində milyonçu pilləsinə ucalıb. Müasirləri haqlı olaraq bildirirlər ki, Ağa Musanın həyatı sanki nağıla bənzəyib:- "Yoxsulluqdan – zənginliyə, şan – şöhrətdən unutqanlığa"!

Unutmaq olmaz ki, millətin dövləti olmadığı zamanda bir dövlətin görəcəyi işləri həyata keçirib Ağa Musa Nağıyev. Neftdən əldə etdiyi gəlirin xeyli hissəsini millətin tərəqqisinə sərf edib.

O, 1887-ci ildə Musa Nağıyev adına "Neftayırma firması"-nı təsis edib. Kapitalın və istehsalın görünməmiş konsentrasiyası və sahibkarlığın səhimdar formasının daha çox yayıldığı bir şəraitdə Ağa Musa Nağıyevin firması elə milli sahibkarlıq müəssisələrindən olub. Burada işin təşkilinin fərdi-ailəvi xarakteri özünü güclü şəkildə saxlaya bilmişdir.

90-cı illərin əvvəllərində Ağa Musa Nağıyevin sərvəti durmadan artıb. Belə ki, onun zavod və ticarət müəssisələrinin illik ticarət dövriyyəsi artıq 1 milyon rubla çatmışdı. Təmiz gəlir 200 min rubl təşkil edirdi. Bunun nəticəsi idi ki, 1893-cü ildə Ağa Musa Nağıyev I gildiya tacir hüququnu qazanıb.

1890-cı ildə Şəmsi Əsədullayev Ramanadakı neftlə zəngin olan 6 desyatin torpağı bərabər payla Ağa Musaya verir. Ağa Musa sonradan qonşu sahəni də alıb bu sahəyə qatır.

O, 1891-ci ildə məhz bu sahədə qazılan tək bir buruqdan 31 min pud neft əldə edir. Ağa Musa Nağıyevin zavodunda neftin emalı və növlərə ayrılması daha çox səmərəli olub. Bu müəssisə qabaqcıl müəssisələrdən sayılıb, texniki cəhətdən çox yaxşı təchiz edilmişdir. Müəssisəni 26 fəhlə və 6 qulluqçu idarə edib. Burada 13 buxar qazanı, 12 dəmiryol rezervuarı olub. Həmin ildə burada 2,3 mln pud ağ neft (kerosin) istehsal olunub. Bununla bərabər istehsal olunan 15 mln. pud mazut və yüksək keyfiyyətli neft məhsulları müxtəlif istiqamətlərə göndərilirdi.

Neft məhsullarını daşımaq üçün firma bir neçə barj icarəyə götürüb.

Ağa Musa Nağıyev 1893-cü ildə Sorlivo zavoduna iki göyərtəli "Qaraşəhər" adlı barkas (şkuna) sifariş edib. Bu barkasın tutumu kifayət qədər böyük olub, 38,7 min kub fut təşkil edib.

Neftçıxarma sahələrini artırmaq məqsədilə Ağa Musa Nağıyev neftlə zəngin olan yeni torpaqlar alıb. XIX əsrin son illərində Balaxanı, Sabunçu, Əmircan və Ramanada da belə sahələri icarəyə götürüb. Qazma buruqlarının sayı 8-ə çatmışdı.

Əvvəllər neft saxlamaq üçün başqa neft sahibkarlarının anbarlarından istifadə edən Ağa Musa Nağıyev, 1898-1899-cu ildə daha bir neftayırma zavodu quraşdırıb. Burada fəhlə və qulluqçuların sayı 226 nəfər təşkil edirb. Onlara verilən aylıq əmək haqqının miqdarı 7 min manat təşkil edib. Hər fəhləyə düşən əmək haqqı 32 rubl təşkil edib. Bu Ş.Əsədullayevin və M.Muxtarovun müəssisələrindəki əmək haqqından yüksək olub.

XX əsrin ilk illərində Ağa Musa Nağıyevin neft mədənlərində neftin güclü fontan vurması, firmanın istehsal xarakterinə və fəaliyyətinə müsbət təsir göstərib. 1900-cü ildə Ramanı sahəsində olan buruqları 1,1 mln. pud neft verib. Sabunçu süahəsində isə bu rəqəm 2 mln. pud təşkil edib.

Ağa Musa Nağıyev üçün o biri illər də uğurlu olub. Belə ki, Sabunçu sahəsində 10 mln. puddan artıq neft – çıxarılıb. Onun sahələrində 20 buruq, 14 neft saxlayan anbarı olub. Firmanın zavodlarında istehsal ketdikcə artır, realizə olmuş məhsulların həcmi çoxalırdı.

1907-ci ildə ona məxsus olan müəssisələrində əsas kapitalı 10 mln. rubl dəyərləndirilən "Musa Nağıyev" Səhmdar Neft Sənayesi və "Ticarət Aksioner Cəmiyyəti"ni yaradıb.

1898-ci ildə Ağa Musa Nağıyevin əmlakının dəyəri 334 560 rubl təşkil edib.

Fərəc Nağıyevin **(ARDTA, f.475)** xatirələrindən bəlli olur ki, Ağa Musa Nağıyevin varidatının ümumi miqdarı 1918-ci ilədək 413 mln. təşkil edirdi. Ağa Musa Nağıyev kapitalını ancaq bina tikintisinə deyil, həm də dövrün cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun mədəni səviyyəsinin yüksəlməsinə sərf edib. Neft milyonçusu kapitalına və tikdirdiyi binaların sayına görə 11 Bakı milyonçularından seçilib.

Məhz bu keyfiyyətlərinə görə 1910-cu ildə çar Nikolay II onu "Neft kralı" adlandırıb.

XX əsrin əvvəllərində Ağa Musa Nağıyevin əmlakı təkcə Şimali Azərbaycanda deyil, Qafqazda və bütövlükdə Rusiya imperiyasının iqtisadi həyatında yerinin aydın görülməsi haqda düzgün təsəvvür əldə etmək üçün XX əsrin əvvəllərinə aid iki qaynağın məlumatına nəzər salaq:

Müraciət etdiyimiz bu qaynaqlar XX əsrin əvvəllərində müntəzəm şəkildə, bir il Peterburqda (Petroqradda) çap olunan «Rusiya imperiyasının fabrik-zavod müəssisələri» adlı çox mötəbər bir topludur. İmperiyanın fabrik-zavod müfəttişliyinin məlumatlarına əsasən tərtib edilən bu məcmuədə hər il imperiyanın sənaye müəssisələri haqqında quru statistika dililə dəqiq və qiymətli məlumatlar verilirdi.

Həmin toplular seriyasının Z.K.Yezioranski tərəfindən tərtib edilmiş və 1909-cu ilin dekabrında Peterburqda çap olunmuş növbəti nəşrinin A-385 saylı məlumatında deyilir:

- «Musa Nağıyev» Neft Firmasının əsası - 1887-ci ildə qoyulub;
- Neft mədənləri: Bakı, Balaxanı, Sabunçu və Ramanada olub. Teleqraf ünvanı: Bakı, Musa Nağıyev, direktoru - Rüstəmbəyov (söhbət Fətulla bəydən gedir - D.N.), müdiri - Hüseyn xan Talışxanov;
- Kontorun poçt ünvanı: Bakı ş., Sahil (Naberejnaya) küçəsi, Tumayevin evi; Telefon sayı 3-03;

- Ümumi gücü 560 a. g. olan 16 buxar maşını;
- Quyuların sayı 42; onlardan 19-u işləkdir;
- İllik hasilatı 12286.460 mld.

Həmin toplunun Q - 155 saylı məlumatında isə Musa Nağıyevin neftayırma zavodu barəsində aşağıdakı bilgilər verilib:

- «Nağıyev Musa» Neft Emalı Zavodunun əsası - 1898-ci ildə qoyulub, müdiri - mühəndis-texnik Fətulla bəy Rüstəmbəyov, kontornun ünvanı: Bakı ş., Sahil (Naberejnaya) küçəsi, Tumayevin evi; telefon nömrəsi: kontor -3-03; zavod - 2-25;
– Zavodda 308 a. g. olan 10 buxar maşını; fəhlələrin sayı – 60 nəfər olub,
– İstehsalı: - 3.839.100 pud distillə edilmiş kerosin;
- 3.769.100 pud təmizlənmiş kerosin;
- 6.918000 pud neft qalıqları;
- 413000 pud qazolin.

Bütövlükdə 12 mln. puddan çox hasilat və 15 mln. pud emal-istehsal.

Həmin toplunun 1914-cü ildə Petroqradda çap olunmuş – tərtibçiləri D.P.Kandanrovun və onun oğlunun başqa bir nəşrində isə A.M.Nağıyevin müəssisələri haqqında aşağıdakı məlumatlar verilib:

- A- 440: - «Musa Nağıyev» Neft-Mədən Firması; Əsası 1887-ci ildə qoyulub;
- Firmanın neft mədənləri və neftayırma zavodu olub;

Mədənləri Bakı şəhərinin qəsəbələrindəki:
- Sabunçuda 13 və 23 saylı; Ramanada 107 saylı; Suraxanıda 13 saylı ; Binəqədidə 13 saylı sahələr.

Telefonlar: 5-77, 408; 2-56 və 71;

Firmanın Baş müdiri -mühəndis-texnik Fətulla bəy Rüstəmbəyov. Kontor- Bakı ş., Kolyubakinski və Mariinski küçələrinin tini 49, şəxsi evində yerləşib. Teleqraf ünvanı: Bakı – Musanagiyev;

- Firmadakı: - 35 buxar, 7 qaz və 1 neft mühərriki olub, ümumi gücü 1890 a. g. (1909-cu illə müqayisədə 3,5 dəfə çox - D.N.) bərabər oliub.
- Quyularının sayı cəmi 65 olub, bunlardan: -işləyən quyular - 33; - qazılan quyular - 16; - dərinləşdirilən quyular - 16.
Fəhlələrinin sayı: - 512 nəfər təşkil edib. Neft hasilatı - 8.060.927 pud. olub.

Həmin toplunun Q-127 saylı məlumatı Ağa Musanın "Neft Emalı Zavodu" haqqındadır.

- Nağıyev Musa adına "Neftayırma Zavodu"un əsası 1898-ci ildə qoyulub;
- Zavodun ünvanı - Bakı ş., Qaraşəhər, **2-ci Zavod küçəsi,** telefon nömrəsi - 2-25; Firmanın müdiri - F.Rüstəmbəyov; Zavodun müdiri - mühəndis-texnik T.Mehmandarov, texniki - mühəndis-texnik A.A.Kərimov, kantivoyajeri - A.N.Koltunov. Zavodun idarəsinin ünvanı: - Bakı ş., Kolyubakinski və Mariyinski küçələrinin tini, 49, telefon nömrəsi: 3-03; 23-98;
- İşləyən buxar və benzin mühərrikli maşınların ümumi gücü 150 a.g. olub. Buxar qazanları - 9 (4527 kv. pud), Fəhlələrin sayı - 60 nəfər təşkil edib.

İstehsal edilib:
- Təmizlənmiş kerosin - 4.861.238 pud neft qalıqları - 9.914894 pud olub, illik istehsalın ümumi həcmi 5000.000 rubl təşkil edib.

Milyonlar sahibi olan milyonçu Ağa Musanın iqtisadi qüdrəti həmin bu rəqəmlərdə aydın görünür.

1898-ci ildə Ağa Musa Nağıyevin ağ neft istehsalını 2,3 mln. puda çatdıran Qaraşəhərdəki zavodunun məhsulları müxtəlif istiqamətlərdə şöhrət tapırdı. Bu istiqamətlərə göndərilən mazut və yüksək keyfiyyətli neft məhsullarının ümumi həcmi 15 mln.puda çatırdı.

Sabunçu, Suraxanı və Ramanadakı neft mədənlərində 65 neft buruğu, neftayırma zavodu və mexaniki emalatxanası olan Ağa Musa 1891-1892-ci illərdə Rotşeldlə birgə blok yaradır.

Bu blok, kerosinin xaricə ixracı və satışı haqda bir sıra razılaşmaların imzalanmasına böyük köməklik göstərib.

Artıq I dərəcəli gildiya taciri və milyonçu titullarına layiq görülmüş Ağa Musa Nağıyev Azərbaycanda ən iri neft sahibkarları sırasına qatılmışdı. Çox uzaqgörən olub. Vaxtın hədər getməsinə imkan verməyən Ağa Musa, XIX əsrin axırlarında bir - birinin ardınca sərvət qoyduğu, yaratdığı işlərdən ruhlanaraq Sabunçu, Suraxanı və Ramana mədənlərində fəaliyyətini günü-gündən genişləndirib.

O, təkcə neft hasilatı, emalı, nəqli vəsaiti ilə kifayətlənməyən açıqgözlü və hərtərəfli sahibkar olub.

Uzaq Şərqə yönəldiləcək yolun təmirinə, Tiflisdə mədrəsənin və Bakı Politexnikumunun tikintisinə vəsait ayıran, Bakı neft istehlakçılarının iştirakı ilə keçirilən tacir müşavirəsində əl üsulunun domna üsulu ilə əvəz olunmasının üstünlüklərini sübuta yetirən, havadarlıq etdiyi tamaşaların iştirakçılarına qiymətli hədiyyələr verən, vəsiyyətlərinə əməl edərək imkansızların dəfnlərini Kərbəlada keçirən, fəhlələrinə toy edən, fərqli işçiləri öz hesabına oxutmaqla bərabər onların savad almalarına sevinən Ağa Musa, xeyirxah əməllərindən zövqü də xüsusi tərzdə alırdı.

Çox fərqli olaraq Bakıda balıq sənayesinin inkişafında da Ağa Musa Nağıyevin böyük rolu olub. 1906-cı ildə Balıq vətəgələri üzrə hərracda küllü miqdarda kapital sərmayə qoymaqla o, ən iri vətəgələrin xeyli hissəsini ələ keçirib.
1909-cu ildə "Zaqafqaziya Balıq Sənayesi" Cəmiyyətinin təsisçisi olub. Kür - balıq sənayesində çoxluq təşkil edən balıq vətəgələri də ona məxsus olub.

Savadsızlığın hökm sürdüyü bir dövrdə gənclərin maariflənməsinə xüsusi diqqət yetirən Ağa Musa, 1907 –ci ildə

uzun müddət yarımçıq qalmış Realnı Məktəbinin (indiki Dövlət İqtisad Universitetinin binasının) tikintisini başa çatdırmaqla bərabər burada "Məktəbəqədər sinfin" yaranmasına nail olub. Ağa Musa Nağıyev bu müəssisəyə himayədarlıq etməklə bərabər 25 müsəlman qızın təhsil haqqını da ödəməyi öhdəsinə götürüb.

Məhz bu qayğıkeşliyinə görə 1908 –ci ildə Ağa Musa Nağıyev - Орден св.Станислава III степени (Müqəddəs Stanislav ordeni) ilə, 1910-cu ildə isə çar II Nikolay tərəfindən "Золотая шейная медаль на Андреевской ленте" (Andreyev lentli qızıl medal) medalı ilə təltif olunub.

# II fəsil. Ağa Musa Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti

## 2.1. Ağa Musa Nağıyevin Azərbaycanda xeyriyyəçilik hərəkatında yeri və rolu

Məlumdur ki, Azərbaycanda xeyriyyəçiliyin çox qədim kökləri vardır. Lakin XIX əsrin sonunda xeyriyyəçilik xüsusilə geniş miqyas alaraq, yeni forma və məzmun kəsb edir, hüquqi normaya çevrilir, bu sahədə təşkilatlar yaranırdı. Düşünmək olar ki, bu hər şeydən əvvəl Azərbaycanda kapitalist münasibətlərinin inkişafı, habelə dövrün ictimai-iqtisadi həyatı ilə bağlı olmuşdur. Yəni XIX əsrin ikinci yarısında Quzey

Azərbaycanda kapitalist münasibətlərinin sürətlə inkişafı ölkədə ictimai-iqtisadi münasibətlərlə yanaşı, həm də əhalinin sosial-mədəni həyatına da öz təsirini göstərmişdir. Quzey Azərbaycan iqtisadiyyatı kapitalist münasibətləri axarında inkişaf etdikcə, burada əhalinin təbəqələşməsi dərinləşir, nəticə etibarı ilə bir ovuc milyonerlərlə yanaşı, xalqın böyük əksəriyyətini təşkil edən yoxsullar ordusu meydana çıxırdı. Kapitalizmin bütün ziddiyyətləri ilə əhatə olunan xalq kütləsi hər şeydən əvvəl ciddi maddi çətinliklərlə üzləşirdi. Belə bir ictimai-iqtisadi şəraitdə xalqı haqqında, onun elmə, təhsilə yiyələnməsi, dolanacağı barədə düşünən demokratik ruhlu ziyalıları yeni xeyriyyə cəmiyyətləri yaratmaq təşəbbüsünü irəli sürmüşdülər.

Azərbaycanda kimsəsizlərə, evsiz-eşiksizlərə, yoxsullara, qoca və xəstələrə arxa olmaq, təhsil almağa imkanı olmayan uşaqlara əl tutub, onların oxumasına yardım etmək kimi humanist ideyalara qulluq edən belə bir cəmiyyətin yaradılması xalqımızın ictimai fikir tarixində xüsusi yeri olan böyük maarifçi Həsən bəy Zərdabinin adı ilə bağlıdır. XIX əsrin 80-ci illərində Azərbaycandakı ictimai-iqtisadi və siyasi həyatı yaxından dərk edən böyük mütəfəkkir, Bakı Realnı gimnaziyasında müəllim işləyərkən, burada təhsil alan kasıb, kimsəsiz uşaqların acınacaqlı həyatına ürəkdən acıyaraq, onlara kömək, maddi yardım etmək məqsədi ilə xeyriyyə cəmiyyəti yaratmaq təşəbbüsünə qoşulur.

Qeyd etmək lazımdır ki, Azərbaycan tarixşünaslığında təqdim edilən dissertasiya işinədək xeyriyyəçilik hərəkatı tarixi hələ də sistematik və ardıcıl şəkildə tədqiq edilmədiyindən, Azərbaycanda ilk xeyriyyə cəmiyyətinin nə vaxt və kim tərəfindən yaradılması haqqında bir-birinə zidd və müxtəlif fikirlər mövcuddur. Lakin əldə etdiyimiz arxiv sənədlər, ədəbiyyat materialları və araşdırmalar, gec də olsa, bu

dolaşıqlığa son qoymağa imkan verir. Bu sahədə olan əsas mənbə Həsən bəy Zərdabinin ədəbi irsidir. Onun «Həyat» qəzetinin 1905-ci il 25 noyabr tarixli 107-ci sayında çap etdirdiyi «Cəmiyyəti xeyriyyə binası» adlı məqaləsində Azərbaycanda ilk xeyriyyə cəmiyyətinin yaranması tarixi açıqlanır. Məqalədə oxuyuruq: «1871-ci ildə mən bizim müsəlmanlar üçün bir cəmiyyəti-xeyriyyə nizamnaməsi tərtib edib və bir neçə qeyri adamlara da ərizəyə qol çəkdirib, Sərdara verib təsdiq elətdirdim. Amma mənim çağırışıma nəinki bir qeyri müsəlman, hətta ərizəyə qol çəkənlər də gəlmədi». Onun rus və Azərbaycan dillərində yazdığı bu nizamnamə «Müsəlmanlardan dərs oxuyan uşaqlara iyanət etmək üçün fərahəm olan icmanın vaxtilə qərar olunan qaidəsidir» adlanır və Azərbaycan Elmlər Akademiyası Əlyazmalar İnstitutunda saxlanılır.

H.Zərdabi Cəmiyyətin məqsədini nizamnamənin birinci maddəsində belə izah edirdi: «İcmanın məqsədi... bu qərar ilədür: əvvələn, bu mənzur ilə ki, Zaqafqaziyədə olan müsəlmanlar üçün labüdlük üz verir ki, elmə rəqib olsunlar və çünki onların çox hissəsi fəqir olmaq səbəbi ilə elmxanələrdən uzaq yerlərdə sakin olanları üçün məqdur olmuyur ki, öz uşaqlarını elm təhsil etməyə versinlər. Buna binasəyin olunur Badkubə şəhərində məcmun-Əanət ta ki fəqir olan şəxslərdən uşaqlarına elm verməyə xahiş edənlərinə iəanət etmək için».

Nizamnamənin altıncı maddəsində isə cəmiyyətin əsasən yetim və kimsəsiz uşaqlara təhsil vermək məqsədi açıqlanır. Burada deyilir: «İcma şagirdlərinin cümləsinə götürüləcəkdir. Hər bir müsəlman əhalisinin ki, elm kəsb etməyə qüdrəti yoxdur və əksərən yetim olan uşaqlardır».

H.Zərdabinin xeyriyyə cəmiyyəti yaratmaq təşəbbüsü hökumət dairələri tərəfindən hüquqi cəhətdən təsdiq edilsə də, əhali arasında ona məhəl qoyan tapılmır. Odur ki, Həsənbəy

Bakının baş ruhanisi və qazisi Cavad Axunddan xahiş edir ki, şəhərin adlı-sanlı adamlarını evinə dəvət edib, cəmiyyətin fəaliyyət göstərməsinə kömək göstərsin. Axund Cavad belə də edir. H.Zərdabi adını çəkdiyimiz məqaləsində yazırdı ki, camaat toplaşanda mən cəmiyyəti-xeyriyyə nədir və onun xalq üçün xeyri gələcəkdə nə olacağı haqqında məlumat verdim. Cənab H.Z.Tağıyev də bu haqda çox danışdı. Amma pul sözü araya gələndə hacılar iztiraba düşdülər və onlardan biri «bu xeyir işə bir xeyir-duaçı da gərəkdir. Təvəqqe edirəm məni belə duaçı hesab edəsiniz» – deyib, durub getdi. Bir qeyri Hacı durub «abi-dəstə gedirəm» – deyib çıxıb qaçdı. Sonra məclisdə qalan əşxas bir-birinə baxıb təşrif apardılar. Biz məclisdə olan üç-dörd adamlar da onlardan sonra durub getdik. Mən dəftərimi qoltuğuma vurub mənzilimə gələndən sonra bizim bədbəxt müsəlmanların hərəkəti ucbatından bir neçə gün xörək yeyə bilmədim və gecələr yuxu mənə haram oldu. Bəs deyilmi, haçan biz ayılacağıq?.

Xeyriyyə cəmiyyətini yaratmaq uğrunda sonralar mübarizəsini davam etdirən Həsənbəy Zərdabi XX əsrin əvvəllərində yenidən bu məsələyə qayıtmış və bu dəfə «Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti»nin Rus və Azərbaycan dillərində nizamnaməsini yazaraq Qafqaz canişinliyi idarəsinə təqdim etmişdir. Nizamnamə 1905-ci il oktyabrın 10-da Tiflisdə Qafqaz canişini qraf Vorontsov-Daşkov tərəfindən təsdiq edilmişdir. Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivinin 46-cı fondunda, yəni Bakı qradonaçalniki (şəhər rəisi) idarəsinin dəftərxanasına məxsus dovluqda saxlanılıb. 1913-cü ildə Bakıda İsa bəy Aşurbəyovun «Kaspi» mətbəəsində çap olunan nüsxəsindən məlum olur ki, nizamnamə altı bölmədən və 42 bənddən ibarət olmuşdur. Nizamənin sonunda Cəmiyyətin təsisçilərinin 21 nəfərdən ibarət adları qeyd edilir. Onlar aşağıdakılar idi:

- Kommersiya müşaviri Hacı Zeynalabdin Tağıyev, «Əkinçi» qəzetinin sabiq redaktoru, «Kaspi» və «Həyat» qəzetlərinin əməkdaşı Həsən bəy Məlikov, «Kaspi» qəzetinin redaktoru – naşiri, «Həyat» qəzetinin naşiri Əlimərdan bəy Topçubaşov, «Həyat» qəzetinin keçmiş redaktoru Əhmədbəy Ağayev, «Həyat» qəzetinin redaktoru, doktor Əlibəy Hüseynzadə, Bakının "nəcabətli fəxri vətəndaşı" İsmayılbəy Səfərəliyev, Bakının "nəcabətli fəxri vətəndaşı" Hacı Aslan Aşurov, Bakının birinci dərəcəli gildiya taciri İsabəy Hacınski, Bakı şəhər idarəsinin üzvü Kamil bəy Səfərəliyev, doktor Əbdülxalıq Axundov, doktor Məmmədrzabəy Vəkilov, doktor Həsənbəy Ağayev, duma üzvü Kərbəlayi İsrafil Hacıyev, duma üzvü Həsənağa Həsənov, Bakının birinci dərəcəli gildiya taciri Mirzə Əsədullayev, praporşik Əsədbəy Səlimxanov, Bakı taciri Ağa-bala Quliyev, duma üzvü Hacı Həsən Atamalıyev və Bakı taciri Nəcəf Əmiraslanov.

Arxiv sənədlərindən məlum olur ki, cəmiyyətin ilk iclasında onun 11 nəfərdən ibarət idarə heyəti seçilmişdir. Hacı Zeynalabdin Tağıyev idarə heyətinin sədri, İsrafil Hacıyev müavini, Hacı Mustafayev xəzinədar, Əhmədbəy Ağayev katib, Əsədulla Əhmədov, İsmayılbəy Səfərəliyev, Həsənbəy Zərdabi, Əlimərdan bəy Topçubaşov və başqaları idarə heyətinin üzvləri seçilmişdilər.

Cəmiyyətin 1905-ci ilə aid olan başqa bir sənədindən məlum olur ki, onun fəxri sədrliyinə Bakı qubernatoru knyaz M.N.Nakaşidzenin arvadı Adelanda Lvovna Nakaşidze seçilmişdi. H.Z.Tağıyevin həyat yoldaşı Sofiya Tağıyeva isə idarə heyətinin fəxri üzvləri arasında idi.

Beləliklə, Azərbaycanda "İlk Müsəlman Xeyriyyə Cəmiyyəti" fəaliyyətə başladı. Cəmiyyətin maliyyələşdirilməsi əsasən H.Z.Tağyevin və digər Bakı milyonçularının üzərinə düşürdü.

İdeya istiqamətinin keşiyində isə Həsənbəy Zərdabi və onun həmfikirləri dururdular.

Nizamnamənin birinci bəndində Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin məqsədi belə izah edilirdi: «Müalicəxanalarda, əlillər evlərində, digər xeyriyyə müəssisələrində əldən düşmüş qocaları saxlamaq, habelə kasıb müsəlman uşaqlarının orta və ali tədris müəssisələrinə daxil olub, təhsillərinin başa vurulmasına maddi yardım göstərmək. Kasıb müsəlmanlara Cəmiyyətin köməyi onlara paltar, yemək verilməsi, mənzillərində tibbi xidmət göstərilməsi, nadir hallarda isə pul vəsaitlərinin verilməsi və tədris haqqının ödənilməsindən ibarətdir» .

Nizamnamənin üçüncü bəndində deyilirdi ki, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinə azyaşlılar, tədris müəssisələrində oxuyan şagirdlər, həqiqi hərbi qulluqda olan aşağı çinli zabitlər və yunkerlər, habelə məhkəmə tərəfindən hüququ alınmış şəxslər müstəsna olmaqla millətindən, dinindən asılı olmayaraq hər iki cinsin nümayəndələri üzv ola bilərlər. Cəmiyyətin üzvləri fəxri, həqiqi və adi (işan) olmaqla üç qrupa bölünürdü. Nizamnaməyə əsasən fəxri üzvlər Cəmiyyətin ümumi yığıncağında seçilərək birdəfəlik 500 rubl, ildə isə 50 rubl, həqiqi üzvlər isə ildə 5 rubl, adi üzvlər isə 1 rubldan az olmayaraq 5 rubladək cəmiyyətə üzvlük haqqı verməli idilər.

Cəmiyyətin əsas gəliri üzvlük haqlarından, pul, paltar, habelə müxtəlif vasitələrlə verilən ianələrdən, konsert tamaşalarından, bədii gecələrdən toplanmış vəsaitdən ibarət idi. Cəmiyyət öz üzvləri tərəfindən bir il müddətinə ümumi iclasda seçilmiş idarə heyəti tərəfindən idarə edilir və ayda bir dəfədən çox olmayaraq iclaslarını keçirirdi. İdarə heyətinin iclasının qanuni sayılması üçün sədrdən əlavə onun ən azı üç üzvünün də

burada iştirakı vacib sayılırdı. İdarə heyətində bütün məsələlər sadə səsvermə yolu və səs çoxluğu ilə həll edilirdi.

Nizamnaməyə əsasən Cəmiyyətin iclasları ümumi və fövqəladə hallarda çağırılardı. Nizamnamənin 25-ci bəndinə müvafiq olaraq illik iclaslar hər il martın 1-də keçirilirdi. Cəmiyyətin Bakıda yaşayan üzvlərindən dörddə birinin iştirak etdiyi halda ümumi iclasın keçirilməsi qanuni sayılırdı. Burada da məsələlər adi səs çoxluğu ilə həll edilirdi.

Cəmiyyət xüsusi möhürə və maliyyə hesabına malik idi. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin xalqımızın ictimai-siyasi həyatında nə kimi xeyirxah işlər görməsi, birinci dünya müharibəsi dövründəki fəaliyyətində daha geniş olmuşdur.

Əvvəllər Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti başlıca olaraq Bakı və onun ətraf ərazilərində fəaliyyət göstərirdi. Lakin sənədlərdən aydın olur ki, Cəmiyyət müharibənin başlanması dövründə öz nizamnaməsində bəzi dəyişiklik edərək, Qafqaz cəbhəsindən qaçqın düşənlərə, ata-analarını itirmişlərə, əsir düşmüş türk əsgərlərinə yardım etmiş, bu sahədə təqdirəlayiq işlər görmüşdür. Cəmiyyət öz nizamnaməsinə müharibədən qaçqın düşəndərə köməklik göstərilməsi barədə xüsusi maddə əlavə edərək, bu sahədəki fəaliyyətini hüquqi cəhətdən qanunlaşdırmışdı. Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivinin 335-ci fondunun iki saxlama vahidi bütünlüklə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin 1916-1917-ci illərdə müharibə dövrü fəaliyyətinə həsr olunmuşdur. Həmin saxlama vahidlərində cəmləşmiş 200-dən artıq sənədin demək olar ki, hamısı Bakı və Qafqaz Müsəlmanları Xeyriyyə Cəmiyyətinin iki illik fəaliyyətindən bəhs edir.

Həmin sənədlərdən məlum olur ki, müharibə dövründə Tiflisdə «Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkillik» adlı xüsusi təşkilat fəaliyyət göstərirdi. Bu

idarə nəzdində isə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkili var idi. Bu vəzifə Xosrov Paşabəy Sultanova həvalə edilmişdi. Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkillik vəzifəsi isə general-mayor Tamamşevə tapşırılmışdı.

Bu təşkilatların müharibə dövründəki fəaliyyətləri barədə xeyli sənədlər, teleqram və məktublar mövcuddur. Məsələn, general Tamamşevin 4 iyun 1916-cı ildə Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti sədrinin adına göndərdiyi teleqramda deyilirdi: «Rəhbərlik etdiyiniz Cəmiyyətin nəzdində neçə yetimxananın mövcudluğu və onlara nə qədər kimsəsizin yerləşməsi, habelə onların hökumət tərəfindən tam təmin olunması və ya cəmiyyətinizin köməyinə ehtiyacı olması haqqında mənə təcili məlumat verməyinizi xahiş edirəm».

General Tamamşevin bu məzmunlu digər teleqramı Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Tiflisdə yerləşən və müharibədən zərər çəkənlər və qaçqınlar üzrə baş müvəkkili Xosrov paşa bəy Sultanovun adına göndərilmişdi. Teleqramda deyilirdi ki, "kimsəsizlərə 70 odeyal almaq üçün nə qədər pulun lazım olması, habelə üç yetim evinin və oradakı vəsaitin lazım olması haqqında təcili məlumat verməyinizi xahiş edirəm".

Və yaxud Xosrov paşa bəy Sultanovun adına 1916-cı il iyunun 21-də Zemski Soyuz Ümumrusiya təşkilatı müvəkkilinin köməkçisi Lebed tərəfindən verilmiş teleqramda deyilirdi ki, Zemsoyuzun İspir məntəqəsində 32 yetim müsəlman uşağı vardır. Onların hara göndərilməsi və kimə tapşırılması barədə bizə teleqrafla xəbər verməyinizi xahiş edirik. Aparılma xərclərini öz üzərimizə götürürük.

Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti adından Sultanovun imzası ilə 1916-cı il iyunun 22-də göndərilən cavab tele-

qramından aydın olur ki, Cəmiyyətin üzvü Rövşən bəy Əfəndiyev 32 yetim müsəlman uşağının İspirdən Tiflisə gətirilməsi üçün ezam olunub.

1916-cı il iyulun 16-da Qarsdan X.Sultanovun adına göndərilmiş digər bir teleqramda deyilirdi ki, R.Əfəndiyev həmin yetimlərlə birlikdə qatarla yola düşmüşdür. İyulun 17-də Kodjorıdan Sultanovun Tiflisdəki ünvanına daxil olmuş teleqramda isə göstərilirdi ki, yetimlərin məktəbdə yerləşdirilməsinə icazə verirəm. Müfti.

Daha sonra, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin baş müvəkkili adına Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilliyin dəftərxanasından 1917-ci il iyulun 17-də göndərilmiş məktubda bildirilirdi ki, iyulun 18-də Qarsdan Tiflisə göndəriləcək daha 40 müsəlman qaçqının yerləşdirilməsi haqqında tədbir görməyiniz xahiş olunur.

Məlum olur ki, 1916-cı il iyulun 29-da İspir məntəqəsindən 13 nəfər, daha sonra 29 nəfər kimsəsiz yola salınmışdır. Sənədlərdən aydın olur ki, Tiflisdəki ikinci müsəlman yetimxanasında 71 nəfər kimsəsiz yerləşdirilmişdir ki, onların 31 nəfəri oğlan, 40 nəfəri qız idi. Uşaqların böyük əksəriyyəti 5-14 yaşlarında olanlardan ibarət idi.

Başqa bir sənəddə isə Tiflisdəki yetim evindən Bakıya göndərilmiş 50 nəfər qaçqın uşağın siyahısı verilib.

Qeyd etdiyimiz arxiv sənədlərindən bəlli olur ki, müharibə dövründə qaçqın və yetimlərin yerləşdirilməsi üçün yetim evləri haqqında xüsusi əsasnamə hazırlanmış və bu əsasnamə 1916-cı il iyulun 7-də hökumət tərəfindən təsdiq edilib.

Bu, göstərir ki, müharibə dövründə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin onlarca şəhərdə xüsusi məntəqələri fəaliyyət göstərirdi. Cəmiyyət əslində ictimai təşkilat çərçivəsindən çıxıb dövlət əhəmiyyəti daşıyan bir orqana çevrilməkdə idi. Bunu

cəmiyyətin adına göndərilən və cəmiyyətin özünün ayrı-ayrı ünvanlara göndərdiyi sənədlər, yazışmalar bir daha təsdiq edir. Məsələn, Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi baş müvəkkilliyindən 1917-ci il fevralın 8-də Tiflisdən Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin bu cəbhədə müharibədən zərərçəkənlərə və qaçqın düşən müsəlmanlara köməklik göstərən müvəkkilliyin adına göndərdiyi məktubda deyilirdi ki, dəftərxanamız Nuxa, Kağızman, Ahalsıx və Ərdəhanda yeni yetim evlərinin açılması üçün 8750 rubl miqdarında vəsait ayırır.

1917-ci il iyulun 17-də Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi sovetinin İcraiyyə Komitəsi X.Sultanovun adına məktub yazaraq bildirirdi ki, 130 yetim müsəlman uşağının may və iyun aylarında saxlanılması üçün 2925 rubl, üçüncü rübdə isə 11.700 rubl miqdarında pul köçürmək haqqında sərəncam verilib.

Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin daha bir yetim evi Oltidə yerləşirdi. Qaynaqlarda 1917-ci ildə burada 10 nəfər işçinin işləməsi, 18 nəfər 5-15 yaşlı uşağın saxlanılması qeyd olunur. Bu uşaqların əksəriyyəti Qars və Olti quberniyalarndan idi.

Daha sonra məlum olur ki, Türkiyənin Qars, Ərzurum, Olti quberniyalarndan gətirilmiş 6 yaşından 14 yaşınadək olan 26 nəfər qız isə Bakıdakı yetim evində saxlanılırdı.

Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Kağızmandakı müsəlman yetim evinin müdiri İdris Axundzadə isə 1917-ci ilin sentyabrın 9-da Tiflisə Sultanovun adına göndərdiyi teleqramında yazırdı ki, un və şəkər, habelə digər ərzaq məhsulları olmadığından uşaqları yedizdirə bilmirik. Uşaqların əksəriyyəti xəstələnib, onların qışda acından öləcəkləri

anılmazdır. Belə şəraitdə yaşamaq qeyri-mümkündür. Məni vəzifədən azad etməyinizi xahiş edirəm".

Bütün deyilənlər Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Birinci dünya müharibəsi dövründə nə kimi işlərlə məşğul olması, köməyı, yaşamağa imkanı olmayan minlərlə qaçqın müsəlman uşaqlarına hansı vasitələrlə, çətinliklərlə arxa durması haqqında müəyyən təsəvvür yaradır.

Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Birinci Dünya müharibəsi dövründəki fəaliyyəti türk ədəbiyyatında da işıqlandırılmışdır. Bu baxımdan Türkiyədə çap olunan «Erkenekon yolu» jurnalının redaktoru, türk jurnalisti Məmməd Sadıq Aranın jurnalın 1961-ci il birinci sayında çap etdirdiyi "Qardaş köməyi" məqaləsi təqdirə layiqdir. Məqalədə deyilir ki, Azərbaycan Cəmiyyəti Xeyriyyəçi Rus işğalındakı Doğu Anadolu vilayətlərinə nümayəndələr yolladı. 12000 yetim, çocuq toplayıb, milyonlar dəyərində ərzaq, geyim əşyaları sövq etdi... Rus-erməni məzaliminə son verdirdi... Bu işləri sadəcə milli vəzifə hissilə yapdı".

Məqalədə daha sonra deyilir ki, biz Anadoluda fəlakətlərlə, hərblərlə tək başına qarşı-qarşıya qaldığımız vaxtlar, birinci cahan hərbinin Türkiyə üçün ən ağır və fəlakətli illərində Ərzurum, Ərzincan, Trabzon, Riz və digər Anadolu vilayətləri rus ordusunun işğalı altına düşdükdə rus kazakları ilə erməni könüllüləri müdafiəsiz türk xalqını mərhəmətsizcəsinə kəsib-biçir, talan edirdilər. Məhz türklər üçün belə bir ağır vaxtda Azərbaycan cəmiyyəti-xeyriyyəçi gizli tədbirlərdən əlavə rus çarının Tiflisdəki naibi Qrandukun yanına xüsusi heyət göndərmişdi. Həmin heyətə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin əsas üzvlərindən biri Əlimərdan bəy Topçubaşov rəhbərlik edirdi. Bu nümayəndə heyəti türklərə qarşı aparılan vəhşiliklərin qarşının alınması haqqında tələb qoymuşdu. Lakin

Rusiya hökuməti onlara aşağıdakı rədd cavabını vermişdi: “Siz Qafqaziyalı müsəlmanlar bizim düşmənlərimizə (türklər nəzərdə tutulur) yardım etmək istəyirsiniz. Hərb içindəykən Rusiya hökuməti buna müsaida etməz”.

Bu cavabdan sonra Azərbaycan Xeyriyyə Cəmiyyətinin nümayəndə heyəti rus hökumətinə üçüncü dəfə aşağıdakı məzmunda müraciət edir: “Siz iki dövlət - Osmanlı imperatorluğu ilə Rus çarlığı hərb edirsiniz. Biz sizin düşmənlərinizə deyil, işğalınız altına aldığınız vilayətlərdəki pərişan qardaşlarımıza insani və xeyir yardımı etmək istəyirik”.

Cəmiyyətin bu müraciətinə də çar naibi müsbət cavab vermədikdə nümayəndə heyətinə daxil olan xalq xadimlərindən gəncəli Ələkbərbəy Rəfibəyli həyəcanla yerindən qalxıb demişdir: “Bu qədər milyonlarla təbəəniz bulunan türk müsəlmanların sizin yanınızda heç xatiri sayılmazmı”?
Qranduk bu təmsilçinin oturmasına işarə edir və düşündükdən sonra müsaida veriləcəyini bildirir.

Qeyd edilən faktlar Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin rus hökumət dairələri ilə rəsmi surətdə razılaşması ilə müharibədən zərər çəkən əhaliyə köməklik etməsini təsdiq edir. Eləcə də məlum olur ki, cəmiyyətin nəzdində bu məqsəd üçün hətta «Fəlakət və Hərbzadələrə Yardım» şöbəsi yaradılıb.

Bundan əlavə, bu işlərə bilavasitə köməklik göstərmək üçün Bakı Xeyriyyə Cəmiyyətinin Qars, Ərzurum və Tiflisdə xüsusi şöbələri açılmış və bu şəhərlərdə onun müvəkkilləri fəaliyyət göstərib.

Məmməd Sadıq Aran “Qardaş köməyi” məqaləsində daha sonra yazır ki, - Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin rus hökuməti ilə apardıqları danışıqlardan sonra qadın doktorlar, müəllimlər, gənc universitetlilər, xalq təmsilçiləri Azərbaycan Xeyriyyə Cəmiyyətinin idarəsi altında Anadoluya axdı.

Bakıdakı Cəmiyyəti Xeyriyyə Mərkəzi bulunan “İsmailliyə” bir ərzaq və əşya deposu (anbarı) halına gəldi. Zəngin və kübar ailə qadınları gecəli-gündüzlü tikiş makinələrinin başında Anadolu hərbzadələrinə əlbisə və yataq tikişi tikməyə, köylülər corab hörməyə, əczaxanalar ilaç (dərman) hazırlamağa, məhəllələrdə qadın heyətləri yorğan-döşək toplamağa başladılar. Cəmiyyəti-xeyriyyə mərkəzində açılan ianə dəftərinə yazılmaq üçün zəngin, fəqir hər kəs sevinə-sevinə qoşuldu. Bu surətdə toplanan milyonlarca para, vaqonlar dolusu ərzaq və əşya Anadoluya göndərilirdi. Qarsda mərkəz quruldu. Orada depo halına gətirilən binalar arasında bəzi cəmiyyətlərin tavanına qədər əşya tiklin dolduruldu. Sarıkamış, Trabzon, Artvin, Ərdəhan və s. şəhərlərdə şöbələr açıldı, səyyar aş evləri və yardım ocaqları quruldu. Buralardan toplanan vəsaitə 12.000 yetim cocuq üçün məhəlli yurdlar qurulduğu kimi, Bakı şəhərində yetimxanalar açıldı. Bu sürətlə türk xalqına qarşı yapılan çirkin hərəkətlərə sədd çəkildi.

Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti bunlardan əlavə, M.Aranın yazdığı kimi, Azərbaycandakı gizli komitə vasitəsilə Bakıda və Xəzər dənizindəki Nargin adasında əsir saxlanılan yüzlərlə türk qaçırılaraq Təbriz yolu ilə Anadoluya göndərilməsində yaxından iştirak etmişdi. Məqalədə bununla əlaqədar deyilir: - Bu uğurda, köylü-şəhərli bütün Azərbaycan türkü heç bir fədakarlıqdan çəkinmədi. Ən gözəl minik atları “türklərə qurban” kimi qaçırılan türk subaylarına Qarabağda hədiyyə edilirdi.

Məqalədə müəllif onu da bildirir ki, -Azərbaycan cəmiyyəti – xeyriyyənin gördüyü tədbirləri əyani sübut edən şəkillər “Qardaş köməyi” dərgisinin eyni sayında çap olunmuşdur.

Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Birinci Dünya müharibəsi dövründəki fəaliyyəti təkcə dediklərimizlə məh-

dudlaşmır. Yuxarıda xatırladığımız kimi cəmiyyət müharibədən zərər çəkən türk əhalisinə yerlərdə kömək göstərmək üçün Qarsa və Şərqi Anadolunun digər ərazilərinə doktor Xosrovbəy Sultanovun başçılığı ilə xüsusi nümayəndə heyəti göndərmişdi. Nümayəndə heyəti əhaliyə ərzaq, paltar çatdırmaqla yanaşı, həm də yerli müsəlman əhalisinin hüquqlarının müdafiəsi üçün məsələlər qaldırmış və müəyyən mənada buna nail olmuşdur. «Kaspi» qəzetinin 8 aprel 1915-ci il tarixli sayında doktor Xosrov bəy Sultanovun dərc olunmuş məktubunda deyilirdi ki, - əyalətin müsəlmanlar yaşayan məntəqələrində bəni insan görünmür. Yalnız bir neçə kənddən 500-600 qadın və uşaq yığıldı. Onların arasında cəmi 6 kişi vardı ki, onlar da əldən düşmüş qocalardan ibarətdir.

Daha sonra məlum olur ki, Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti Qarsa göndərdiyi nümayəndə heyətinin məlumatları əsasında xüsusi bəyannamə qəbul etmişdir. Bəyannamədə Cəmiyyət Qars, Ərdəhan ərazilərində qalan kimsəsiz uşaqların, qadınların Bakı və Gəncə şəhərlərinə gətirilməsini və burada onların yerli varlıların himayəsinə verilməsinin zəruriliyə bildirilirdi. Lakin cəmiyyət üzvlərindən bəziləri buna lazımı diqqət verə bilməmişlər. Belə münasibət, dövrün böyük ziyalısı sayılan Cəmiyyətin müharibə zonaları üçün ianə toplanmasının ilk təəsübkeşlərindən biri olan Ömər Faiq Nemanzadəyə çox mənfi təsir göstərmiş və o, bu münasibətlə «Çox utandıq» adlı bir məqalə yazıb, onu “Yeni iqbal” qəzetinin 3 iyul 1915-ci il sayında çap etdirmişdir. Məqalədə deyilirdi: - Vay cəmiyyəti-xeyriyyə! Vay milyonlu şəhər! Vay bədbəxt millət! Məgər quru adın varmış?.. Aman ya rəbbi, nələr eşidirik, nələr görürük? Nə demək bu, nə demək ki, 4-5 milyonluq bir camaat 100-200 yetim balasını bir yerdə saxlamağa gücü çatmır? Of, doğrudan

da ölmüşük, doğrudan da milli dirilik, mədəni insanlıq adına bir qəpiyə dəymərik.

Ö.F.Nemənzadənin bu çıxışı Cəmiyyəti-Xeyriyyə üzvləri və Bakı şəhəri əhalisi arasında çox böyük əks-səda doğurmuşdu. Belə ki, cəmiyyətdə müsəlman uşaqlarının yerləşdirilməsi, təmini üçün istər onun üzvləri və istərsə də hökumət dairələri xeyli vəsait toplamış oldu. Kimsəsiz uşaqlar üçün cəmiyyətin yerləşdiyi «İsmailiyyə» binasında xüsusi yataqxana yaradılmışdı. 1917-ci ilin əvvəllərində burada müharibə cəbhələrindən gətirilmiş 200-dən artıq kimsəsiz uşaq saxlanılırdı. Bu uşaqlara hər gün bir neçə dəfə yemək verilirdi.

Bu baxımdan türk müəllifi, sonralar Cənubi-Qərbi Qafqaz Respublikasının xarici işlər naziri olmuş Fəxrəddin Ərdoğanın "Türk ellərində xatirələrim" adlı kitabında 1917-ci ilin əvvəllərində Orenburqdan sürgündən qayıdarkən Bakı Müsəlman Xeyriyyə Cəmiyyətində gördükləri haqqında verdiyi məlumatlar dediyimizi təsdiq edir. Müəllif yazır ki, ilk iş olaraq Bakı cəmiyyəti-xeyriyyəsinə getdik, orada onlarla tanış olduq. Burada istiqlal eşqiylə cəmiyyətlər qurulmuş, durmadan çalışırlar. Düşdüyümüz "İsmailiyyə" binasında Ağa Musa Nağıyevin 50 yataqlı qonaqxanası var idi. Hər gələn türk yolçusu burada aylarla qalıb, yemək və yataqla təmin edildiyi kimi, paltarları yuyulub və bütün bu məsrəflər Ağa Musa Nağıyevin xəzinəsindən ödənilib. Bu möhtəşəm "İsmailiyyə" binasını CəmiyyətiXeyriyyəyə Ağa Musa Nağıyev bağışlamışdı.

Əlavə qeyd edilir ki, 201 otaqlı bir yetimxana da olub. Burada cəbhədən toplanan kimsəsiz cocuqlar gətirilərək saxlanılıb.

Müəllif daha sonra yazır ki, Bakıda qaldığım bir həftədə Hacı Zeynalabdin Tağıyev əfəndinin ziyarətinə getdim, Bakı

yetimxanalarını da gəzib dolaşdım. Burada Ərzurum cəbhəsindən gətirilən 1000-ə qədər cocuq və qadınlara xidmət və diqqət göstərilirdi. Hər 10 cocuğa ayrılan bir xidmətçi tərəfindən hər cümə günü onların paltarları dəyişdirilir, təmizliyə baxılır və gəzməyə çıxarırlar.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıda xeyli əhali Bəhayi dini təriqətinə itaət edirdi. Onların hətta şəhərin keçmiş Çadrovı (indiki Mirzağa Əliyev) küçəsindəki məscidi də fəaliyyət göstərirdi. Bəhayilər arasında belə bir ideya yayılmışdı ki, bəhayi təriqətini qəbul edənlər ölməyirlər. Ona görə də xeyli azərbaycanlı, o cümlədən Bakı milyonçusu Ağa Musa Nağıyev də bu təriqətə üzv olmuşdu.

1909-cu il oktyabrın 27-də Bəhayi dini təriqətinin bir qrup nümayəndəsi, o cümlədən Bakı sakinləri - Ağa Musa Nağıyev, Ağakişi Əliyev, Əşrəf Kərimov, Balaxanı kənd sakini İsmayıl İbrahimov və Şamaxı sakini Baba Səmədov Bakı şəhər idarəsinin rəisi adına məktub yazaraq, «Ruhaniyyə» adlı Cəmiyyətin nizamnaməsini təsdiq etməyi ondan xahiş edirlər. Bu məsələ Bakı şəhər idarəsinin cəmiyyətlər, təşkilatlar şöbəsinin 13 yanvar 1910-cu il tarixi iclasında müzakirə edilir və «Ruhaniyyə» Cəmiyyətinin Nizamnaməsini və Bakı Bəhayi təşkilatının yaradılması təsdiq olunur.

Nə idi Bəhayi Cəmiyyətinin məqsədi? Cəmiyyətin nizamnaməsi ilə tanışlıq bu suala cavab verir. Nizamnamədə deyilirdi ki, cəmiyyətin məqsədi Bakı şəhəri ərazisində yaşayıb, bəhayi təriqətinə mənsub olan əhali arasında savadın və ibtidai təhsilin yayılmasına nail olmaqdan ibarətdir. Bununla əlaqədar olaraq cəmiyyət mövcud məktəblərə himayədarlıq edir və eləcə də öz vəsaiti hesabına yeni məktəblərin açılmasına təşəbbüs göstərirdi. Yerlərdə qiraətxanalar, kitabxanalar, pulsuz və azad satış üçün kitab mağazaları açır, rus və Azərbaycan dillərində

öz xəbərlərini, pedaqoji ədəbiyyatı çap edir, nəhayət, xalq müəllimlərinin yetişdirilməsinə yardım göstərirdi. Cəmiyyət həmçinin Bəhayi məzhəbinə mənsub olan kasıb uşaqların orta və ali təhsil müəssisələrinə qəbul olunub, orada oxumalarına himayədarlıq edir, habelə Bakı quberniyasında bu məzhəbə qulluq edən yetim və kasıb uşaqların ibtidai təhsil almalarını təşkil edirdi.

Digər cəmiyyətlər kimi Bəhayi Cəmiyyəti də fəxri, həqiqi və yarışan üzvlərdən ibarət idi. Fəxri üzvlər birdəfəlik cəmiyyətə 100 rubl miqdarında üzvülük haqqı verib, ümumi iclasda seçilən şəxslərdən ibarət olurdı. Həqiqi üzvlər cəmiyyətin xəzinəsinə ildə 12 rubldan, adi üzvlər isə 1 rubldan az olmayaraq üzvülük haqqı verirdi. Cəmiyyətə 5 il müddətinə gizli səsvermə yolu ilə seçilən idarə heyəti rəhbərlik edirdi.

Cəmiyyətin sədri Ağa Musa Nağıyev seçilmişdi. 1910-cu il fevralın 9-da keçirilən iclasda xəstəliyi ilə əlaqədar olaraq Ağa Musa Nağıyev bu vəzifədən azad edilmiş, onun əvəzinə Şeyx Ələkbər Koçani Cəmiyyətin sədri seçilmişdir. 1911-ci ildə isə Cəmiyyətə Bala Kərimov sədr, Mütəllib Tahirov xəzinədar, Əbdülxaliq Yaqubov isə katib seçilmiş, Ağa Musa Nağıyev isə Cəmiyyətin fəxri sədri sayılmışdır.

Cəmiyyətin 1912-ci il üzrə hesabatından məlum olur ki, onun büdcəsində üzvlük haqqından 358 rubl, ianələrdən 113 rubl və 1911-ci ildən qalmış 429 rubl vəsaitin müəyyən hissəsi bəhayi uşaqların təhsil və tərbiyəsinə və kimsəsizlərin saxlanılmasına sərf edilmişdir.

Bəhayi Cəmiyyətinin sonrakı illərə aid fəaliyyəti haqqında, təəssüf ki, əlimizdə arxiv və ədəbiyyat materialları yoxdur. Lakin mövcud materiallar bu cəmiyyətin maarifçiliyə böyük xidmət göstərdiyini təsdiq edir.

Bilavasitə maarifçilik-xeyriyyəçilik istiqamətində yaradılıb, fəaliyyət göstərən cəmiyyətlər haqqında məlumat vermək baxımdan XX əsrin əvvəllərindən yaradılan və xalqımızın xeyriyyəçilik – maarifçilik tarixində özünə məxsus yeri olan müsəlmanlar arasında savad yayan «Bakı nəşri-maarif cəmiyyəti»nin xüsusi yer tutduğu görünür. Bu cəmiyyət 1906-cı ildə Bakı tacirlərindən Əliağa Həsənovun, Ağahüseyn Tağıyevin, İsgəndərbəy Məlikovun, mühəndis Məmmədhəsən Hacınskinin, fəxri vətəndaşı - duma qlasnısı İsmayılbəy Səfərəliyevin, mühəndis Hacıbəy Axundov və şəhər məktəbinin müəllimi Əli İsgəndər Cavadovun təşəbbüsü və ərizəsi əsasında yaradılmışdı. Adları çəkilənlərin ərizələri 1906-cı il mart ayının 4-də Bakı şəhər quberniyası cəmiyyətlər və ictimai təşkilatlar üzrə idarəsinin iclasında müzakirə edilərək qərara alınmışdır:- Müsəlmanlar arasında savad yayan Bakı «Nəşri-maarif» Cəmiyyətinin təqdim edilmiş nizamnaməsi təsdiq edilsin, Cəmiyyət qeydiyyata götürülsün. Nizamnamənin təsdiq olunmuş bir nüsxəsi cəmiyyətin üzvü Əli İsgəndər Cəfərova təqdim edilsin.

44 maddədən ibarət olan bu Nizamnamənin birinci bəndində «Nəşri-maarif» cəmiyyətinin məqsəd və vəzifələrindən bəhs edilərək göstərilirdi ki, onun məqsədi Bakı quberniyasında yaşayan müsəlmanlar arasında Azərbaycan və rus dillərində savad almalarına və ibtidai təhsilin yayılmasına kömək göstərməkdən ibarətdir. Bu məqsədlə Cəmiyyət mövcud məktəblərin açılmasına ya təşəbbüs göstərir və ya özü öz vəsaiti hesabına belə məktəblər açırdı. Bununla yanaşı, «Nəşri-maarif» Cəmiyyəti öz məqsədinə nail olmaq üçün xalq qiraətxanaları açmağı və burada qiraət işini təşkil etməyi, Azərbaycan və rus dilində dərsliklər, dərs vəsaiti və başqa kitablar nəşr etməyi, dövri mətbuat orqanları yaratmağı, məktəb və mədrəsələri

təcrübəli müəllim kadrlar ilə təmin etməyi, pedaqoji kursları açmağı, müəllimlər qurultayını çağırmağı, elmi-ədəbi gecələr keçirməyi və nəhayət yoxsul müsəlman uşaqlarının orta və ali məktəblərə daxil olub, oxumalarına kömək göstərməyi özünün başlıca vəzifəsi sayırdı.
Nizamnamədən göründüyü kimi «Nəşri-maarif» cəmiyyəti də öz amalı və məqsədinə görə digər Bakı -Gəncə Xeyriyyə Cəmiyyətləri ilə demək olar ki, eyniyyət təşkil edirdi. Bu da təsadüfi deyil ki, adlarını çəkdiyimiz müsəlman xeyriyyə cəmiyyətləri kimi, «Nəşri-maarif» cəmiyyəti də fəxri, həqiqi və yarışan üzvlərdən ibarət olub, onların ödədikləri üzvlük haqlarının məbləği də Gəncə və Bakı xeyriyyə cəmiyyətlərinin üzvlərinin ödədikləri məbləğlərlə tam eyniyyət təşkil edirdi.

Nizamnaməyə görə Cəmiyyətin ali orqanı onun üzvlərinin ümumi yığıncağı idi. Ümumi yığıncaq Cəmiyyətin idarə heyətini, onun sədrini, sədrin müavinini, katibini və xəzinədarı seçirdi. Deyək ki, «Nəşri-maarif» Cəmiyyəti Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti ilə qarşılıqlı surətdə, əlbir fəaliyyət göstərirdi. Bakının adlı-sanlı ziyalıları, görkəmli varlıları çox vaxt hər iki cəmiyyətə üzv olub, hər ikisində fəaliyyət göstərirdilər.

1906-cı il noyabrın 24-də «Nəşri-maarif» Cəmiyyətinin keçirdiyi ilk ümumi yığıncaqda H.Z.Tağıyev - Cəmiyyətin idarə heyətinin sədri, M.Hacınski onun müavini, Əlisgəndər Cəfərov, Əhmədbəy Ağayev və Məhəmməd Həsən Əfəndiyev idarə heyətinin katibləri seçilir. Murtuza Muxtarov, İsabəy Aşurbəyov, Tağıbəy Səfərəliyev, Qarabəy Qarabəyov və başqaları idarə heyətinin üzvləri, Həsənbəy Məlikov isə təftiş komissiyasının üzvü seçilir. qeyd etmək lazımdır ki, Azərbaycanın müxtəlif arxivlərində bu cəmiyyətin fəaliyyəti haqqında zəngin materiallar saxlanılır.

Cəmiyyətin illik hesabatları bir qayda olaraq mətbəə üsulu ilə kitabça şəklində çap edilirdi. Bu hesabatların bir çox nümunələri arxiv sənədi kimi qorunub saxlanmışdır ki, bunlar cəmiyyətin fəaliyyətini təhlil etməyə imkan verir.

Hər şeydən əvvəl cəmiyyət müsəlmanların təhsilə yiyələnməsinə çalışır və bu haqda geniş tədbirlər həyata keçirirdi. Belə ki, cəmiyyətin 1907-ci ilə aid olan hesabatından bəlli olur ki, cəmiyyət həmin ildə İçərişəhərdəki Hacı Banu məscidinin, şəhərin aşağı hissəsindəki Hacı İmaməli məscidinin və şəhərin dağlıq hissəsində yerləşən Hacı İbrahim məscidinin yanında üç məktəb açmış və onlarda uşaqlar pulsuz oxuyurdular.

Yenə həmin ilin hesabatından aydın olur ki, «Nəşri-maarif» Cəmiyyətinə fəxri üzvləri 7500 rubl, həqiqi üzvləri 5278 rubl miqdarında pul keçirmişlər. Bundan əlavə əhali Ramazan bayramında cəmiyyətin fonduna 232, 64 rubl, Qurban bayramında 140 rubl məbləğində pul keçirmişdi. Pul vəsaiti keçirənlərin siyahısında H.Z.Tağıyevin (500 rubl), Q.N.Seydiyevin (100 rubl), M.T.Cəbrayılovun (23 rubl) adları da vardır.

Hesabatda qeyd edilirdi ki, cəmiyyət cari ildə öz vəsaitindən 815 rubl Darülmüəllimə, 172 rubl Hacı İmaməli məscidindəki məktəbə, 75 rubl Hacı Banu məscidindəki məktəbə, 546 rubl müəllim kurslarına, 1500 rubl ibtidai məktəb müəllimlərinə, 1320 rubl məktəblər üçün ləvazimat alınmasına və 763 rubl isə kasıb uşaqlara paltar alınmasına pul xərcləmişdir.

Cəmiyyətin 1908-1911-ci illərə aid olan hesabatlarında da bu qəbilli yardımlar və pul vəsaitinin verilməsi haqqında ətraflı məlumatlara rast gəlirik. Məsələn, 1909-cu il hesabatından görünür ki, cəmiyyət bu ildə İmam Əli məscidinin nəzdindəki məktəbə 1320 rubl, Hacı Banu məscidindəki məktəbə 510 rubl,

İbrahim (Təzə Pir) məscidindəki məktəbə isə 385 rubl, müxtəlif ehtiyacı olanlara isə 141, 63 rubl miqdarında pul vəsaiti ilə yardım etmişdir.

Cəmiyyət öz nizamnaməsinə uyğun olaraq fəaliyyətinin ilk illərində Bakının Balaxanı, Əmircan və Buzovna kəndlərində də təhsil ocaqlarının açılmasına təşəbbüs göstərmişdir. 1911-ci il may ayının 13-də Bakı şəhər rəisi P.İ.Martınovun Qafqaz tədris dairəsinin hamisinə göndərdiyi məlumatda deyilirdi ki, -«Nəşri-maarif» Cəmiyyətinin Balaxanıda 116 şagirdi olan 4 sinifli, Əmircanda 82 şagirdi olan 3 sinifli və Buzovnada 28 şagirdi olan 3 sinifli məktəbləri fəaliyyət göstərir.

«Nəşri-maarif» cəmiyyətinin 1914-cü ildə Bakı ərazisinin 17 kəndində 16 məktəb və 35 şöbə mövcud idi. Bu məktəblərdən üçü məhz 1914-cü ildə açılmışdır ki, onların ikisi Qalada, biri Bilgəhdə yerləşirdi.

Hesabatda göstərilirdi ki, həmin ildə cəmiyyətin məktəblərində 1074 nəfər oğlan, 126 nəfər qız oxuyurdu ki, onlara pulsuz dərs ləvazimatı, kitab, paltar verilirdi. 1914-cü ildə cəmiyyət məktəb ləvazimatı və dərs vəsaitləri satan xüsusi mağaza açmışdı. Cəmiyyətin illik gəliri 1913-cü ilə nisbətən 21.261 rubl artmışdır. 1914-cü ildə cəmiyyətin ümumi xərcləri 31.420 rubl təşkil etmişdir ki, onun da 20.355 rublu məktəblərin saxlanılmasına, 7.048 rublu məktəb jurnallarının, əyani vəsaitlərin, 2153 rublu isə beşinci müsəlman gecəsinin keçirilməsinə sərf edilmişdir. 1914-cü ildə cəmiyyətin idarə heyətinin 23 iclası keçirilmiş, burada 108 məsələ müzakirə edilmişdir ki, onların əksəriyyəti məktəb, təhsil işinə və xeyriyyəçilik məsələlərinə həsr edilmişdir.

1914-çü ildə "Nəşri-maarif" cəmiyyətinin 6 nəfər fəxri üzvü, 55 nəfər həqiqi üzvü var idi. Şəmsi Əsədullayev, Ağa Musa Nağıyev, Jusif Dadaşov, Ağamusa Muxtarov, Ağahüseyn

Tağıyev və Hacı Zeynalabdin Tağıyev cəmiyyətin fəal üzvləri idi. Cəmiyyətin sədri vəzifəsində isə yenə H.Z.Tağıyev qalırdı.

Qeyd edək ki, "Nəşri-maarif" cəmiyyəti məktəblərdə milli müəllim kadrların yerləşdirilməsinə də xüsusi əhəmiyyət verirdi. Bu, birinci növbədə Azərbaycanda ali və seminariya təhsili almış müəllim kadrların sayca azlığı ilə əlaqədar idi. Məhz buna görə də cəmiyyət müəllim kadrları hazırlamaq üçün 1907-çi ildə "Darülmüəllim"- yəni Müəllimlər Seminariyası açmış və bura təcrübəli pedaqoqları cəlb etmişdi. Bu seminariya üç il fəaliyyət göstərdikdən sonra bağlanmışdı.

1908-1909-cu illərdə "Nəşri-maarif" cəmiyyəti nəzdində birillik "İslam" Azərbaycan müəllimlər kursu açıldı. Bu kursun cəmi iki buraxılışı olmuş və oranı 28 nəfər bitirmişdi. Həmin məzunlara şəhadətnamələri cəmiyyətin sədri H.Z.Tağıyev və onun müavinləri Mehdibəy Hacınski və İsabəy Aşurbəyov imzalayıb təqdim etmişdilər.

Müəllimlər məktəbini bitirənlər "Nəşri-maarif", "Səadət", "Nicat" çəmiyyətlərinə məxsus məktəblərdə dərs deməyə başlayaraq, pedaqoji kadrlara olan tələbatı az da olsa ödəyirdilər.

Bunu da əlavə edək ki, 1909-cu ildə Bakının Çənbərə-kənddəki köhnə qəbiristanlığının boş ərazisi təmənnasız olaraq "Səadət" və "Nəşri-maarif" cəmiyyətlərinə verilmiş və onlara bu ərazidə məktəb, məscid və yaxud xəstəxana tikməyə icazə verilmişdi. "Nəşri-maarif" cəmiyyəti doğrudan da burada azərbaycanlılar üçün müəllimlər seminariyasının binasını tikdirməyi planlaşdırmış və bu binanın inşasına başlanmışdır. Lakin əvvəlcə maddi çətinliklər, daha sonra isə 1920-ci ilin aprel hadisələri və bununla da cəmiyyətin 1920-ci il mayın 10-da öz fəaliyyətini dayandırması bu xeyirxah işin başa çatdırılmasına imkan verməmişdir.

"Nəşri-maarif" cəmiyyətinin fəaliyyəti təkcə dediklərimizlə məhdudlaşmamışdır. Cəmiyyət həm də Azərbaycandan kənarda təhsil alan həmyerlilərimizə yardımlar göndərirdi. Məsələn, 1915-ci il oktyabrın 3-də Moskva Kommersiya İnstitutunun II kurs tələbəsi Mir Möhsün Mövsümov Cəmiyyətin adına ərizə yazaraq bildirirdi ki, birinci kursda oxuyarkən bir şəxs tərəfindən mənə 200 rubl məbləğində kömək göstərilirdi. İndi ondan məhrum olmuşam və buna görə də təhsilimi davam etdirə bilmirəm. Odur ki, "Nəşri-maarif" cəmiyyətindən mənə kömək edilməsini xahiş edirəm. Ərizənin üstünə cəmiyyətin rəhbərləri tərəfindən belə bir dərkənar qoyulmuşdur - "Bir dəfəlik 50 rubl miqdarında kömək edilsin" .

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanda fəaliyyət göstərən əksər xeyriyyə və maarifçilik cəmiyyətlərinin əsas büdcəsi üzvlük haqlarından və ianələrdən təşkil olunurdu. İanə toplanılması üçün konsert və tamaşalar, xeyriyyə gecələri təşkil olunar və buna şəxsən H.Z.Tağıyev özü rəhbərlik edərdi.

Qaydaya görə keçiriləcək hər bir tədbir haqqında cəmiyyətin sədri H.Z.Tağıyevin imzası ilə Bakı şəhər idarəsinə xüsusi məktub ilə müraciət edilir və gecənin proqramı da ona əlavə edilirdi.

Bu tədbirlər içərisində cəmiyyətin "Müsəlman gecələri" adı ilə keçirdiyi tamaşalar xüsusi yer tutur. Bura Bakının adlı-sanlı varlıları, ziyalıları dəvət edilir və iştirak edənlər cəmiyyətin xeyrinə ianələr verirdilər. Arxiv sənədləri belə tamaşalar zamanı toplanmış vəsait, orada iştirak edənlərin sayı, habelə onların verdikləri ianələrin məbləği haqqında tam məlumat verir. Məsələn, 1913-cü ildə keçirilən dördüncü müsəlman gecəsində İ.Lobov 500 rubl; 1914-cü ildə keçirilən beşinci gecədə H.Z.Tağıyev və A.M.Nağıyev – hərəsi 4000 rubl, Əli Əsədullayev və Hacı İsrafil Aydəmirov - hərəsi 100 rubl, 18 nəfərin hər

biri 100 rubl, Abdulməcid Çermoyev 525 rubl, 19 nəfərin hər biri 50 rubl, 10 nəfər hərəsi 30 rubldan - 45 rubladək, 58 nəfər hərəsi 25 rubl, 100 nəfərdən artıq üzvün isə hərəsi 20 rubl ianə vermişdi. Cəmiyyətin idarə heyətinin katibi Ə.Cəfərovun bununla əlaqədar olaraq verdiyi hesabatda deyilir ki, beşinci müsəlman gecəsindən ümumilikdə 14.909 rubl miqdarında ianə toplanılmışdı.

Cəmiyyətin keçirdiyi gecələrdən toplanan vəsait onun büdcəsinə daxil olurdu. Arxiv sənədləri bu gecələrdən toplanan vəsaitlər haqqında müfəssəl məlumatlar verir. Belə ki, cəmiyyətin 1908-ci il dekabrın 13-də keçirilmiş birinci gecədən 2 min, 1909-cu il dekabrın 12-də keçirilmiş ikinci gecədən 8197, 1910-cu il dekabrın 4-də keçirilmiş üçüncü gecədən 10.211, 1913-cü il fevralın 15-də keçirilmiş dördüncü gecədən 9297, 1914-cü il fevralın 2-də keçirilmiş beşinci gecədən 15 min rubla yaxın, 1915-ci il aprelin 14-də keçirilmiş altıncı gecədən isə çəkilən xərcləri çıxdıqdan sonra cəmiyyətə 15.416 rubl miqdarında gəlir qalmışdı. Cəmiyyətin sonuncu - səkkizinci gecəsi isə 1917-ci il fevralın 25-də keçirilmişdi.

Cəmiyyətin fonduna toplanan vəsait isə onun məktəblərinin saxlanmasına, burada təhsil alan uşaqlara paltar, dərs ləvazimatı alınmasına, ehtiyacı olanlara yardımlara sərf olunurdu. "Nəşri-maarif" cəmiyyəti bir qayda olaraq hər il Novruz bayramı münasibəti ilə öz üzvləri və camaat arasında tədbirlər keçirər və burada da ianələr toplanardı.

Məsələn, 1912-ci ildə keçirilən tədbirdə 51 nəfərin iştirak etdiyi göstərilir. Bunlardan H.Z.Tağıyevin 100 rubl, İ.Səfərəliyevin 50, İ.Hacinski, M.Əlibəyov, A.Məlikov, A.Bıç, L.Vasilyev və onlarla başqalarının isə 10 rubldan 25 rubladək ianə verdiyi qeyd edilir. İanə verənlər arasında Bakıdakı Osmanlı konsulu Əli Kamal bəyin, Bakı qubernatoru

Alışevskinin, vitse-qubernator R.Bloxin, Bakı şəhəri rəisi P.Martınovun da adları vardır.

1913-cü ildə keçirilən eyni tədbirdə isə 168 nəfərin siyahı iştirakı qeyd olunmuşdur. Burada da yenə Əli Kamal bəyin, Alışevskinin, İran konsulu Davud xanın adına rast gəlirik. Yerli xeyriyyəçilərdən isə S.Hacinski, B.Aşurbəyov, İ.Səfərəliyev, L.Bıç, M.Əzizbəyov, H.Z.Tağıyev, N.Aşurbəyov və onlarla başqaları müxtəlif miqdarda ianə verdiyi qeyd olunur. 1913-cü ildə toplanan ianənin miqdarı 2268 rubl olmuşdur ki, bunun 2125 rublu "Nəşri-maarif" cəmiyyətinin fonduna keçirilmişdi.
Bir sözlə, Cəmiyyət Bakı və onun ətrafında yaşayan əhali arasında çox böyük xeyriyyəçilik işləri aparırdı. Onun ətrafında dövrün görkəmli mesenatları, ziyalıları cəmləşmişdi.

Bakıda xeyriyyəçilik və maarifçilik fəaliyyəti ilə məşğul olan cəmiyyətlərdən biri də "Nicat" adlanırdı. Bu cəmiyyət 1906-cı ilin mart ayında bir qrup Bakı ziyalısı və mesenatları tərəfindən yaradılmışdı. Cəmiyyətin Nizamnaməsi 1906-cı ilin avqustun 22-də Bakı qubernatoru Alışevski tərəfindən rəsmən təsdiq edilmişdir.Nizamnamədə Cəmiyyətin məqsədi aşağıdakı kimi izah edilirdi: - müsəlmanlar arasında maarifin yayılması, müsəlman tələbələrin ali, orta və ibtidai təhsil muəssisələrində oxumasına köməklik göstərmək, ana dili və ədəbiyyatın inkişafına xidmət etmək Bu məqsədin həyata keçirilməsi üçün cəmiyyət mövcud məktəblərə yardım edir, yeni məktəblər, kurslar, kütləvi qiraətlər təşkil edir; Dərs kitabları və vəsaitləri çap edir; Müəllim kadrların yetişdirilməsi üçün pedaqoji kurslar açır, qurultay çağırır; Müsəlman şair və yazıçıların bioq-rafiyasını və əsərlərini çap edir və nəhayət, quberniyanın digər şəhərlərində cəmiyyətin şöbələrini yaradırdı.

Yuxarıda haqqında danışdığımız və onlara bənzər digər bu cəmiyyətlərin XX əsrin əvvəllərində Quzey Azərbaycanın

ictimai-siyasi mədəni-mənəvi və ideoloji həyatında oynadıqları rol, onların çoxillik və çoxşaxəli fəaliyyətinin uzaqperspektivli və qiymətə gəlməz nəticələri haqqında tarixçilərimiz, siyasətçilərimiz, ədəbiyyatçılarımız, politoloqlarımız və bir çox başqaları cild-cild kitablar yazıblar. Haqlı olaraq bu cəmiyyətlərin yaradılması və fəaliyyətində H.B.Zərdabi, Ə.B.Topçubaşov, Ə.B.Ağayev və b. görkəmli şəxsiyyətlərimizin rolunu çox yüksək qiymətləndiriblər.

Düşünürük ki, bu uğurların qazanılmasında H.Z.Tağıyev və A.M.Nağıyev kimi vətənsevər və millətsevər sənayedarlarımızın rolu heç də az olmayıb. Əgər onlar min zəhmət hesabına qazandıqlarını bu işə qoymasaydılar, indi bizim haqqında öyünə-öyünə danışdığımız məktəblərin, kitabxana-qiraətxanaların və s. heç biri ola bilməzdi.

## 2.2. Bakı şəhərinin memarlığına Ağa Musa Nağıyevin töhfəsi

Neft hesabına varlanan Ağa Musa Nağıyev gəlirini daha bir yeni sahəyə – doğma şəhərində biri-birindən gözəl və son dərəcə lazımlı binaların tikintisinə, başqa sözlə deyilərsə, daşınmaz əmlaka yönəldir. Onun fikrincə, bu sahə neft qədər gəlir gətirməsə də, çox etibarlı kapital yatırımı sahəsi idi. Mülklərin tikintisinə aludə olan Ağa Musa bu işə atasının tövsiyəsi ilə başladığını hər zaman vurğulayırdı. Binaların tikintisini əsasən "Qasımov qardaşları və K°" şirkətinə tapşırırdı.

Ağa Musa Nağıyev Azərbaycanda inqilabadək Bakının arxitekturasına fenomen, gözəlliyi və əzəməti ilə seçilən binalar tikdirməklə başqalarından seçilib.

Binaların tikilməsində Şərq və Avropa memarlıq məktəblərinin nümunələrindən istifadə etməklə bərabər, arxitektura

və dizayn məsələsində Ağa Musanın özünün təklifləri, mülahizələri əsas götürülmüşdir. Yüksək zövqə malik olan Ağa Musanın təkliflərində simmetriyanın son dərəcə dəqiqliklə gözlənilməsi, binanın əzəmətli və fasadının cəlb edici olması üçün verdiyi məsləhətlər bu gün də müasir memarları heyrətləndirməkdə, onun fitri istedadına rəğbətlə yanaşmaqda davam edir.

Bakının ən çox gözəgəlimli yerlərində Azərbaycan memarlığının nümunələri kimi görünən tikililər məhz Ağa Musa Nağıyevin şəxsi vəsaiti və təklifləri əsasında inşa edilmişdir. Onun binaları elmimizin məbədidir.

20 ildən artıq Bakı Şəhər Dumasının Qlasnısı (deputatı) olmuş Ağa Musanın tikdirdiyi binaların bir neçəsinin adını qeyd etmək vacibdir:

- Kolubyakin küçəsi - indi N.Rəfibəyli, 49;

Nizami, 93 saylı bina (1910);

Rəsul Rza, 23 saylı bina (1910);

Səməd Vurğun, 12, 24 saylı binalar 1912–ci ildə inşa olunub;

Neftçilər pr., 69 - bina 1910-cu ildə inşa olunub;

Zərifə Əliyeva pr. 33 - 1912-ci ildə inşa olunub;

Süleyman Rəhimov - Xaqani 14 və 16 saylı binalar;

28 May küçəsində: 4,6, 10,11,14,15,17,18 binaları;

Və daha onlarla başqa binalar...

Ağa Musa Nağıyev “avropalaşmaq” niyyətində olanlara: “Qərbi Azərbaycana gətirəcəyəm” – deyirdi. Bu fikrini o, dəfələrlə qəzetlərdəki çıxışlarında da (“Təzə həyat” qəzeti, 1907 il; “Baku” qəzeti 1912 il) təkrarlayırdı.

Azərbaycanın memarlıq tarixinin incilərinə çevrilmiş bu şedevr binalardan çoxu bu gün inzibati binalar kimi fəaliyyət göstərənlər siyahısında: **“SOCAR”** , Rusiyanın “LUKOYL” neft şirkəti, Zabitlər evi (Qış evi), Rabitə və İnformasiya Texno-

logiyaları Nazirliyi (ilk Baş Poçt idarəsi), Diaspora ilə iş üzrə Komitə, AMEAnın Rəyasət heyəti (İsmailiyyə), "ÜNS" teatrı, Ağır Cinayətlər üzrə Məhkəmə (keçmiş Ali məhkəmə), Dövlət İqtisad Universiteti (Realnı məktəb), dörd xəstəxana (öz adına, OMD, Emin Əfəndiyev, Sabunçu Poliklinikası), "Kirxa", "Sinaqoq" üçün nəzərdə tutulub, sonradan "qəddar düşmənlərimiz" tərəfindən naməlum yol ilə zəbt edilmiş kilsə, Gül pasajı binası (Balıq kontoru), Keçmiş İncəsənət İnstitutu (R.Rza küçəsi bina 11 və 12), həmin küçədə "Xaqani ticarət evi"nin yerindəki Tibb Universiteti və "Tənqid-təbliğ" teatrı, M.Rəsulzadə küçəsi -8(keçmiş Prodmaq), İctimai yığıncaqlar keçirilməsi məqsədilə tikilmiş bina –Xaqani 47, Məhkəmə ekspertizası (Astoriya mehmanxanası), "Abşeron" mədə-bağırsaq sanatoriyası .

1899-cu ildə Ağa Musa Nağıyev Merkuri (indiki Zərifə Əliyeva küçəsi, **36-da)** memar Kazimir Şkureviçin inşasında Bakı şəhər poçt-teleqraf kontorunun binasını tikdirir. Binanı tikdirməkdə əsas məqsədi kənd və rayonların şəhərlə əlaqələrini asanlaşdırmaq, onları yaxınlaşdırmaq olub. Nəqliyat vasitələrinin məhdud olduğu bir dövrdə belə bir addımı atan məhz Ağa Musa olub.

28 may **küçəsində tikdirdiyi ......** binaların heç biri bu gün də öz təravətini itirməyib, bənzərsiz xarici görünüşü ilə insanı heyrətə salır.

Qeyd edək ki, bu binalar gözəlliyi, möhtəşəmliyi, nadir üslubu xatırlatmaqla yanaşı, kədərli duyğuları da özündə yaşadır. Bu duyğular sahibinin acınacaqlı taleyidir. Onun taleyi bir çox başqa milyonçulardan fərqli olaraq, çox kədərli olub. Hər iki övladı gənc ikən: qızı Ümmülbanu doğuş zamanı, oğlu İsmayıl isə vərəm xəstəliyindən dünyasını dəyişmişdir.

Neft milyonçusu və xeyriyyəçi Ağa Musa Nağıyev kasıb bir ailədə dünyaya göz açmasına, heç bir təhsil almamasına baxmayaraq, fərasəti və ağlı ilə həyatda özünə yol açdı. Xalqın ehtiyacından irəli gələn hər bir çağırışına vaxtında cavab verməsi, doğma şəhəri ilə bağlı bütün xeyriyyəçilik işlərində yaxından iştirak etməsi, nəhayət xalqı üçün qoyub getdikləri ona əbədilik qazandırdı.

Atasının: "Oğul, bacardığın qədər bina tikdir, ömrün uzanar" vəsiyyətinə əməl edib, 100 bina tikdirməyi qarşısına məqsəd qoyan və 100 yaşayacağına, hətta ölümsüzlüyə qovuşacağına inanan Ağa Musa Nağıyev 70 yaşında ikən dünyasını dəyişdi. Ölüm atasının vəsiyyətinə tam şəkildə əməl etməyə imkan verməsə də, Bakı milyonçuları arasında ən çox bina tikdirmək yalnız ona mənsubdur.

Ucalan gözəl tikililəri ona mənəvi ölümsüzlük qazandırdı.
Bir zaman hamballıq etsə də, sonralar ağlı, fərasəti və uğurlu taleyi sayəsində məşhur neft milyonçusuna çevrilən Ağa Musa Nağıyevin yüksək zövq ilə inşa etdirdiyi binalar bu gün də onun ömrünü sonsuzluğa calayan qırılmaz, sarsılmaz daş tellərdir.
Ağa Musa Nağıyev oğlunun xatirəsini yad etmək üçün şəhərin mərkəzində – Nikolayevski küçəsində (indiki İstiqlaliyyət küçəsi) qeyri-adi bir saray tikdirməyə qərar verib. Bu məqsədlə o, məşhur Polşa memarı Yuzef Ploşkonu İtalyan memarlığının incəlikləri ilə tanış olmaq üçün İtaliyaya ezamiyyə edib və bu proses 3 il (1905-1907) davam edib. Palatso Kantarini sarayının tamamlanmış eskizləri əsasında və milli memarlıq məktəbinin ənənələri nəzərə alınmaqla 1908-ci ildə "İsmailiyyə" sarayının tikintisinə başlamağa qərar verib. Binanın tikintisi 1913-cü ildə sona yetir. 1913-cü il aprelin 7-də bina tam istifadəyə verilir. Binanın frontonunda Məhəmməd Peyğəmbərin və İmam Əlinin kəlamları həkk olunur: "İnsan öz əməyi ilə istəyinə nail olur və

yüksəlir"; "İnsan doğulandan ölənədək oxumalıdır"; "Müsəlmanlar! Sizin yaşadığınız əsr sizinlə birgə ölür, öz övladlarınızı yeni əsrə hazırlayın"; "Oxumaq üçün lazım gələrsə, Çinə də getmək məsləhətdir"!

Sonradan memar Y.Ploşko xatırlayırmış ki, Bakının mərkəzində Azərbaycanın milli ornamentlərilə bəzədilmiş bina inşa etmək onun ən böyük arzusu imiş.

Qotik üslubda tikilmiş "İsmailiyyə" binası 1918-ci ilin mart qırğınlarında, qəddar ermənilərin Bakıda törətdikləri vəhşiliklər zamanı top atəşinə tutularaq dağıdılması xeyriyyəçinin həyat eşqini əlindən alır. Binada ……….

Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin fəaliyyət göstərdiyi bu bina vaxtilə A.M.Nağıyev üçün böyük əhəmiyyət kəsb edib.

Binanın dağıdılmasında əsas məqsəd analoqu yalnız İtaliyada olan "Venesian qotikası"nı məhv etməklə bərabər, binanın zirzəmisində qorunan ziyalıların arxivini və bəzi məlumatlara görə binanın özülündəki qızılı ələ keçirmək olub. Ağa Musa Nağıyev nakam oğlu İsmayılın xatirəsinə tikdirdiyi bu binanın məhv edilməsi ilə mənən və cismən sınır. Heç cür unuda bilmədiyi bala dərdini Ağa Musanı məcazi mənada yaşada biləcək yadigarının məhv edilməsi daha da təzələyir. O, 1919-cu ilin martın 4-də dünyasını dəyişib.

O zaman maarifçilik və xeyriyyə işlərilə məşğul olan cəmiyyətlərin fəaliyyəti günü-gündən genişlənirdi. Bütün bu işləri özündə birləşdirəcək vahid müsəlman xeyriyyəçi-mədəniyyət mərkəzinin yaradılması bir zərurətə çevrilmişdi. Yeni inşa olunmuş "İsmailiyyə" sarayını Ağa Musa Nağıyev məhz belə bir mərkəz elan etdi.İlk Müsəlman Xeyriyyə Cəmiyyəti. Burada "Nəşri Maarif" cəmiyyəti tərəfindən müxtəlif xeyriyyə tədbirləri də keçirilib.

Ermənilərin 1918-ci il mart ayında Bakıda törətdikləri qırğınlar zamanı yandırılıb, qarət və yerlə yeksan edilən bu möhtəşəm bina, həmin ilin sentyabr ayında Bakı düşmənlərindən azad edildikdən sonra Milli Hökumətin qərarı ilə yenidən bərpa olunub.

**Ağa Musa Nağıyevin mesenatlıq fəaliyyəti.** O dövrdə rus çarizminin yeritdiyi müstəmləkə siyasətindən Qafqaz xalqları içərisində ən çox əzab çəkənlər müsəlmanlar olub. 1912-ci ildə ibtidai təhsil alan azərbaycanlı uşaqların xüsusi çəkisi cəmi 12 faiz təşkil edirdi. Orta məktəblərdə təhsil alanlar içərisində isə bu göstərici cəmi 2,8 faizə bərabər idi. Məhz buna görə o dövrdə azərbaycanlı iş adamları millətini savadlı görmək üçün əllərindən gələni əsirgəməyiblər.

Təkcə Ağa Musa, uzun illər boyu azərbaycanlı tələbələrin müxtəlif təhsil ocaqlarında təhsil almaları üçün ildə 8 min rubl ayırıb. O illərdə məşhur rus məmurlarından V.Kovalevski Bakıda kommersiya məktəbinin yaradılması təklifini irəli sürüb. Bu təklif texniki və ya tibbi məktəblərin əvəzinə kommersiya məktəblərinin tikintisinə daha çox ehtiyac duyulduğundan irəli sürülüb. Binanın tikintisi üçün tələb olan 170 min rubl məbləğində vəsait qısa müddətdə toplanıb. Bu məbləğin 50 min rublını H.Z.Tağıyev ödəyir. İmperiyanın siyasəti burada da özünü göstərib.

Ağa Musa Nağıyev və Şəmsi Əsədullayev Şamaxıda tikiləcək realnı və peşə məktəbləri üçün binanın inşasına vəsait toplanmasında fəal eştirak ediblər. Ağa Musa XIX əsrdən Azərbaycanda fəaliyyət göstərən, şikəst uşaqlara yardım edən "Uşaq bağçası" Xeyriyyə Cəmiyyətinin də həqiqi üzvü olub. O, uşaq ölümü ilə mübarizə aparan Bakı Cəmiyyətinə küllü miqdarda pul köçürüb.

1898-ci ilin yanvar ayında Bakıda "Körpələr evi"nin inşasına başlanıb. Vəsaitin çatışmaması üzündən yarımçıq qalan tikintiyə A.M.Nağıyev və Ş.Əsədullayev küllü miqdarda pul ayırıblar.

Ağa Musa Nağıyev "Vərəmlə mübarizə aparan Qafqaz cəmiyyəti"nin də fəal üzvlərindən olub. Deyilənlərə görə bu cəmiyyətin hər toplantısından sonra Ağa Musa vərəm xəstəliyi nəticəsində dünyasını dəyişmiş oğlu İsmayılı xatırlayaraq acı iztirablar keçirirmiş.

Milyonçular arasında yarışa girərdilər ki, il ərzində kim tədbirlərə daha çox aktyor və ya müğənni dəvət edib, tamaşalar təşkil edər? Bu sırada Ağa Musa Nağıyev birinci olub.

Bütün bunların əsasını, əlbəttə ki, onun maliyyə imkanları təşkil edirdi. El arasında belə savab işləri ilə hörmət qazanmış insanlar içərisində Ağa Musa Nağıyevin adı həmişə hörmətlə çəkilib. 1896-cı ildə "Tağıyev" teatrında Ağa Musanın təşəbbüsü ilə "Dilin bəlası" və "Qırt-qırt"(əsərin 1-ci hissəsi ) tamaşaları səhnəyə qoyulub. O vaxtlar teatrın, xüsusilə incəsənətin təbliğində N.Nərimanovun rolu çox böyük olub.

Ağa Musa Nağıyev bu tamaşaların premyerasının hazırlanmasında yaxından iştirak edən Nəriman Nərimanova qiymətli almaz qaşlı üzük, Ağası Zeynalova isə qızıl saat bağışlayıb. Ümumilikdə bu hədiyyələrin hər birinə Ağa Musa 200 rubl məbləğində pul xərcləmişdir. 1200 rubl isə "Tərcüman" qiraətinin xeyrinə vermişdir.

Gələcəyi təmin etmək məsuliyyətini üzərinə götürən Ağa Musa çox şey haqqında düşünürdü. Azərbaycanlı balalarının təhsil alması, Bakının susuzluğu, insanların küçə həyatı və s…

Onun ən ağrılı yerlərindən biri səhiyyə sistemindəki problemlər olub. Məhz səhiyyənin çox zəif olması səbəbindən oğlu İsmayılı itirdiyindən və bu itkinin ağrısını daim qəlbində

gəzdirən milyonçu, çarəsizlikdən ölümün qarşısını almaq məqsədilə xəstəxanalar tikdirməyi qarşısına məqsəd qoyub.

Öz vəsaiti hesabına Bakıda tikdirdiyi və o dövr üçün müqayisə olunmaz dərəcədə yüksək səviyyədə təchiz olunmuş dörd nəhəng xəstəxanada bu gün də insanlar şəfa tapır.

Tikdirdiyi xəstəxanalarda insanların şəfa tapması, məktəblərdə – mənsub olduğu millətin balalarının elmə-savada yiyələnməsi, bu gün Azərbaycan elminin "Baş qərargahının" da (AMEA-nın) onun tikilisində yerləşməsi, ümumilikdə götürdükdə şəxsi vəsaiti ilə ucaldılmış onlarla binaları bu gün də millətə və dövlətə xidmət edir.

# III Fəsil. Ağa Musa Nağıyev və onun varislərinin sonrakı taleyi

## 3.1. Ağa Musa Nağıyevin vəfatından sonra varislik məsələsi

1919-cu il mart ayında Cümhuriyyət Parlamentinin rəsmi orqanı olan "Azərbaycan" qəzetində dərc edilən nekroloqda aşağıdakı sözlər qeyd edilmişdi:

"Ağa Musa Nağıyev - ən orijinal adamlardan biri, təbiətən intəhasız enerjili, qabiliyyətli, mükəmməl formalaşmış bir insan həyatdan getmişdir. İri kapital sahibi olan Ağa Musa xalqının bütün tələblərinə rəğbətlə yanaşıb. Elə bir əhəmiyyətli ictimai məsələ olmayıb ki, orada onun əvəzsiz xidməti olmasın... Rəhmətliyin xidmətləri onun xalq arasında xatirəsini əbədi yaşatmağa qadirdir".

Vəfatından sonra qəzetlər bir ay onun haqqında belə xoş sözlər yazıb, onun vəfatını təəssüflə yad edib. 1919-cu ildən – vəfatından sonra zamanın hökmü ilə əlaqədar, məcburən dörd dəfə qəbir yerini dəyişən Ağa Musa Nağıyevin nəşi 1998-ci ildə rahatlıq tapa bildi. Vəfatının 80 illiyi ərəfəsində "əmanət" qəbri əbədiləşdirildi.

Ağa Musa 1919-cu il martın 4-də dünyasını dəyişərkən, müxtəlif səbəblər üzündən onun Kərbəlada dəfn olunmaq vəsiyyətinə əməl etmək mümkün olmayıb. Əlacsızlıq ucbatından qardaşı Ağa Əli - Ağa Musanın cəsədini "Çəmbərəkənd" qəbiristanlığında dəfn edir. "Əmanət" qəbrə qoyulan milyonçunun nəşi Kərbəla yolu gözləməli olur.

Sovet hakimiyyəti dövründə milyonçunun qəbri 3 dəfə məcburi yerini dəyişməli olub. 1919-cu ildən 1998-ci ilədək üzərinə qoyulmuş kiçik baş daşı ilə bərabər onun nəşi ardıcıl

olaraq Çəmbərəkənd (1-ci), Biləcəridə "Qaya altı" (2-ci) və "Dağüstü" (3-cü) qəbiristanlıqlarını gəzib-dolaşıb. Beləki:
-1931-ci ildə bu yerdə S.M.Kirovun adına park salındığından, Ağa Əli bu dəfə məcbur olaraq milyonçu qardaşının nəşini Çəmbərəkənd qəbiristanlığından Biləcəridə "Qaya altı" adlandırılan qəbiristanlığa köçürür. Bu dəfə də həmin baş daşı onunla ata yurduna köçür.

Artıq bu dövrdə vəziyyət tamamilə dəyişmişdir: Nağıyevlər nəsli artıq çoxdan müflisləşib. Fərəcin həyat yoldaşı Zəhra xanım, vaxtilə Ağa Musanın Fərəcə nişanlısı üçün bağışladığı qiymətli boyunbağını "Torqsin"-də (əhali arasında "Torqhüseyn" adlandırılan) Ticarət sindikatı vasitəsi ilə satır. Aldıqları pula Ağa Əli bu pula qardaşının 2-ci qəbrini müvəqqəti olaraq "rahat" hala gətirib, yenə Kərbəla əməliyyatı haqda yollar axtarışında düşüncələrini davam edir.

1938-ci ildə "Qaya altı" qəbiristanlığının yerində – vaqon deposunun salınacağı xəbəri Nağıyevlər nəslini sarsıdır. Bu yerdə vaqonların par ilə təmizlənməsi nəzərdə tutulduğundan – əhali tərəfindən "Proparka" adlandırılıb.

Milyonçunun vəfatından artıq 19 il (1919-1938) keçsə də, qəbri "əmanət" qalsa da, vəziyyətin dəyişəcəyinə heç bir ümid yox idi. Bir tərəfdən Vətən müharibəsi, Sovet quruluşu - totalitar rejim; o biri tərəfdən isə "kapitalist ünsürləri" kimi Nağıyevlərin təqibi və imkansızlıq öz acı sözünü deyirdi.

1932-ci ildə Ağa Əli qardaşı dünyasını dəyişdiyindən bu xəbər Fərəcə çatanda həyat yoldaşı Zəhra xanım köməyinə çatır. Gizli yollarla Bakıya gələn Zəhra başqalarının köməyi ilə gecə ikən, kəfən qıtlığından, milyonçunun nəşini balış üzünə yığıb, Biləcəri "Dağüstü" qəbiristanlığında 3-cü dəfə torpağa tapşırılmasında iştirak edir.

1929-cu ildə ailə qurmuş oğulluğu Fərəc evliliyinin ilk ilində həyat yoldaşı ilə birlikdə Bakını tərk edir və yalnız 1952-ci ildə artıq beş övlad atası vətənə qayıdır.

23 iyul 1998-ci ildə xeyriyyəçi Hacı Əvəzin və nəvələrinin (Dilarə, Rauf və Solmaz) iştirakı ilə Ağa Musanın nəşi Biləcəri qəbiristanlığının girəcəyində 4-cü - daimi qəbrə qoyulur. 80 il onu qoruyan baş daşını isə qəbrin üzərindəki İsmailiyyə binasının maketinin içərisinə qoruyur.

Mesenatın varisliyi məsələsinə toxunarkən, Fərəci – qardaşı oğlunu oğullluğa götürdüyü barədə aşağıdakıları qeyd etmək vacibdir.

Ağa Musa Nağıyevin oğlu İsmayıl xaricdə təhsil alıb. Neft işinə meylli olduğundan o, tez-tez buruqlara və zavoda baş çəkəirdi. İşin maliyyə tərəfini atası ona və mühəndisi Fətulla bəy Rüstəmbəyova tapşırmışdı. Ürəyi ilə bacara bilməyən İsmayıl bəy, çox vaxt vəzifəsindən sui-istifadə edib, səxavət kisəsinin ağzını açıb, ehtiyacı olanlara pul paylayırdı. Belə bir jestin əleyhinə olan Ağa Musa, oğlunun bu hərəkətini dəstəkləmirdi. Bu da onun var-dövlətə çox çətinliklə çatmasından irəli gəlirdi.

İsmayılın tutulduğu sağalmaz və müalicəsi tapılmayan vərəm xəstəliyinə milyonlar da kömək edə bilməyir. Hətta xaricdəki müalicələr İsmayılın dadına çata bilməyir. Artıq xəstəlik öz işini görmüşdi. Xaricdə müalicə alarkən yazdığı məktubların birində dərd çəkməkdən atasının “yumağa döndüyünü” qeyd edən 27 yaşlı İsmayıl bəyin dünyasını dəyişdikdən sonra həqiqətən Ağa Musanı tanımaq olmurdu. Bala itkisini heç cürə unuda bilməyən Ağa Musanın dadına qardaşı Ağa Əli çatır. Beşinci övladını – yeni doğulmuş oğlunu ona hədiyyə verir. Misal var ki, baladan pay olmaz! Ağa Əli qardaşının dərdini yüngülləşdirmək məqsədilə belə bir hərəkətə imza atır. Ağa

Musa körpəyə Fərəc adını verir. Adının mənası kimi kədərdən sonra gələn sevinc olur onun üçün Fərəc. Ancaq bu sevinci Ağa Musa 16 il yaşayır.

Fərəc 1903-cü ilin dekabr ayında Bakının Biləcəri kəndində dünyaya göz açarkən, taleyinə milyonçu Ağa Musa Nağıyevin vərəsəsi olmaq yazılıbmış. Elə bu tale onun sonradan incəsənət aləmindəki fəaliyyətinin kölgədə qalmasına səbəb olub.

Uşaqlıqdan hər işə maraq göstərən Fərəc Ağa Musaya məxsus kitabxanada mütaliələrdən doymazdı. Ən çox xoşladığı əyləncə isə H.Z.Tağıyevin teatrında tamaşalara baxmaq idi.

Azərbaycan Respublikası Ədəbiyyat və İncəsənət Arxivinin fondundakı xatirələrindən göründüyü kimi, evə dönərkən tamaşalardan müxtəlif səhnələri oynamaqdan xüsusi həzz alırdı Fərəc.

Fərəc Ağa Musanın arzularını puç etmədi. Çünki ona, "sənin götürdüyün uşaq hoqqabaz olacaq" deyənlərin cavabını çoxdan vermişdi: "Hər nə olursa, olsun. Amma insan olsun. Mən də əvvəllər hambal olmuşam" .

Ağa Musa İsmayılın ölümü ilə yarımçıq qalmış ata sevgisini və qayğısını bütövlükdə Fərəcə yönəltmişdi. O vaxtlar Fərəcin heç ağlına da gəlməzdi ki, milyonlarla ölçülən var-dövlətin varisi olmaq ona çox baha başa gələcək. Sibirə sürgün olmaqla üzləşməkdən, NKVD-nin gözündən yayınmaq məqsədilə soyadın sürgünü olmaq olacaq taleyi. Məhz bunun nəticəsi idi ki, o, Türkmənistan, Aşqabad, Dağıstanda, sonradan isə Azərbaycanın ən ucqar rayonlarında məskunlaşır.

18 yaşından sırf səhnə fəaliyyətinə başlayan Fərəc "Tənqid-Təbliğ" teatrında istedadını sınayıb. Aktyor kimi Bakı Türk İşçi teatrında "Küləklər şəhəri"ndə Aşıq, "Yanğın"da – İvan Vasilyeviç rollarında çıxış edib.

Rejissorluq fəaliyyətində ilk işi "Qana qan" və "Qanlı səhra" tamaşaları olub.

Dövrün təzyiqi onu təxəllüs götürməyə vadar edir. Fərəc Nağı özünü ədəbiyyat sahəsində də göstərə bilir. O, şeir yazmaqla məşğul olur. Sayı 200-ə çatmış: "Yuriy", "Qazı", "Kasıb və Tanrı" kimi nəzirələrin, eləcə də "Ehtiyatlı ol", "Vaz keçsin", "Meyxana", "Seçki" və bir sıra satirik şeirlərin müəllifi olub.

Əvvəllər Fərəcin güzgünün qarşısında roldan rola girdiyini görüb, qorxu hissləri keçirmiş Zəhra xanım, onun xəstəliyə tutulduğunu düşünürdü.

O, fəaliyyətini Aşqabad və Şəki Dram teatrlarında davam edib. Dağıstan Dram teatrında təbliğat və təşviqat işlərini davam etməklə bərabər, Fərəc bu teatrda rejissor, aktyor və tərtibatçı rəssam vəzifələrini də icra edir. Sonradan o, teatrın direktoru təyin olunur.

Fərəc - Xətai və Əbilov adına mədəniyyət evlərində, eləcə də Xalq Yaradıcılığı mədəniyyət evində bədii rəhbər və rejissor vəzifələrində çalışıb. O, özünü estrada səhnəsində də sınaqdan keçirib. Satira janrında işləməsi, onun sonralar masa bəyi kimi təsdiqlənməsinə də təkan olub.

Ağa Musa İsmayılın ölümü ilə yarımçıq qalan atalıq sevgisini və qayğısını bütövlükdə Fərəcə yönəldib.

O vaxtlar Fərəcin heç ağlına da gəlməzdi ki, milyonlarla ölçülən var-dövlətin yeganə varisi olsa da, bu ona çox baha başa gələcək. Sibirə sürgün olmaqla üzləşməmək, NKVD-nin gözündən qaçmaq məqsədilə soyadın sürgünü olacaq. Məhz bunun nəticəsi idi ki, o, Türkmənistan (Aşqabad) və Dağıstan Respublikalarında, daha sonra isə Azərbaycanın ən ucqar rayonlarında məskunlaşır. 16 yaşından nişanlandığı mavi gözlü Zəhra xanımla evlənəndən bir il keçmiş, həyatın keşməkeşli yollarında bir yerdə çarpışıblar.

Totalitar rejim Fərəci iki dəfə – 1938 və 1943-cü illərdə NKVD-nin zirzəmisində "məsləhət" görülərək, vərəsə kimi gəlmiş pulların yetimxanaların hesabına keçirilməsinə imza atmasına məcbur edib. Hər iki dəfə Fərəc Allaha şükr edib ki, onu ailəsindən ayırmadan – ondan əl çəkirlər. NKVD-nin yerli şöbəsində qeydiyyatdan keçmək, miras haqqında müxtəlif sorğu-suallara cavab vermək Fərəc üçün sanki bir iş rejiminə çevrilmişdi.

1933-1935-ci illərdə tale Fərəci də Aşqabada aparıb çıxarıb. Burada "Türkmən-Türk" musiqili komediya teatrı yaratmaq ona nəsib olub. Dənizin o tayına işləməyə getməyə can atan az tapılardı. Təkcə Fərəc Bakıdan uzaq düşmək fürsətini qaçırmayıb. Aşqabadda Fərəc yeni işinə köhnə bir binada, demək olar ki, sıfırdan başlayır. Qısa bir zaman içərisində Fərəcin çalışdığı kollektiv Türkmən və Azərbaycan dillərində tamaşalar hazırlayıb.

Şəki teatrında işləyərkən (1937-1940) o, artıq püxtələşmiş və tezliklə yetkin bir kollektiv yarada bilib.

1952-ci ildə Fərəcə xəbər gəlir ki, vaxtı ilə Ağa Musanın tikdirdiyi və Fərəcin yaşadığı mülkün (Verxni Priyutski, 14 – indiki Ş.Əzizbəyov, 28) axırıncı otağı da müsadirə edilir. Təcili Bakıya dönən Fərəc, uzun və gərgin danışıqlardan sonra, 7 nəfər ailə (Fərəcin artıq 5 övladı var idi) üzvü ilə birlikdə 18 m. sahədə "yaşamaq hüququnu" əldə edib.

Fərəc qədim xalq meydan oyunu olan "Qaravəlli" yə ikinci nəfəs verir. Yazdığı 70 səhifəlik "Qaravəlli" ssenarisini Mərkəzi Komitədən təsdiqlənməsinə də nail olur. O, qədim xalq bayramı olan "Qaravəlli" oyununun bərpası və yenidən qurma istiqamətində işə başlayır. Xalq bayramlarına ssenarisini yazmaq, afişalar tərtib etmək, geyim eskizlərini hazırlamaq və hətta biçib-tikmək Fərəcin rəhbərliyi və birbaşa iştirakı, əməyi

sayəsində həyata keçirdi. Qaravəlli – qədim meydan oyunu və mərasimlərin, məcazi mənada – teatrvari (alleqorik) tamaşaların məişətləşmiş bir formasıdır. Qaravəlli sözü qara camaat – yəni kənd əhlinə daha çox yaxın mənasında işlədilib.

İşlədiyi Xalq Yaradıcılıq Mədəniyyət Evinin "Qaravəlli" teatrı adlandırılmasına böyük qüvvə sərf edib.

Hətta bu gün də əgər hər hansı bir şəxs məzəli əhvalat və yaxud hadisə danışırsa, kənardan – "bu başdan ayağa lap qaravəllidir ki," – sözlərini eşitmək olur.Yəni gülməli, məzəli əhvalatları qaravəlli təşkil edir.

Bu haqda materialların az olmasına baxmayaraq, bu bir xalq teatrı olub. Bu teatr xalqın yaşayışı demək idi. Beləki, teatr xalqın yaşayış tərzindən, ictimai – mədəni məişətindən, ehtiyacından yaranıb, inkişaf edib.

Ulu babalardan irs qalmış təsviri incəsənət arxivində, dastan və nağıllarda "Qaravəlli" teatrının əsası gözə çarpmaqla bərabər, nəzəri prinsiplərə də rast gəlmək olurdu. "Qaravəlli" – Azərbaycan xalqının milli meydan oyunları tamaşası deməkdir. Teatrın repertuarına əxlaq və tərbiyəvi əhəmiyyəti olan xırda həcmli pyeslər daxil edilir. Tamaşa zamanı satira o qədər şiddətlənirdi ki, hətta bu acı bir kinayəyə çevrilib, ictimai əxlaq qüsurlarını qamçılayırdı.

"Qaravəlli" teatrı üçün nəzərdə tutulan məzhəkə və dastanların məzmunları müxtəlif olduğuna görə tamaşaçı günün vacib, siyasi və ictimai hadisələri haqqında oyunbazların ağzından yeni xəbərlər də eşidirdi.

Xalq tərəfindən sevilə-sevilə qəbul olunan tamaşalarla yanaşı aşiqanə və qəhrəmanlıq dastanları təsvir edən məclislər də teatrın repertuarına daxil olurdu. Bütün bunlar tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb. Sayca çox olan xalq dram əsərlərinin yazılı surətləri bizə çatmayıb.

Bunlar ancaq xalqın hafizəsində yaşayaraq, ağızdan-ağıza gəzərək, nəsildən-nəslə çatdırılaraq, zəmanəmizə qədər yaşaya bilmişdir.
Cəmiyyət üçün maraqlı və lakonik mövzular üzərində qurulan satirik süjetlərin müəllifi olmaqla bərabər Fərəc gah təlxək, gah Kos-Kosa, gah da ki, Keçəl rollarında çıxış edib.
“Satirikon” teatrının yaradılması ilə demək olar ki, Fərəc aktyorluq fəaliyyətinin əsasını qoyub. Şavadsızlığın hökm sürdüyü bir dövrdə, manelərdən çəkinmədən o, Şərqdə ilk yaradılan incəsənət təhsil ocağında, SSRİ xalq atristi Şövkət Məmmədovanın rəhbərlik etdiyi Teatr Texnikumunun aktyorluq və rejissorluq fakültələrini bitirib.
Görkəmli teatr xadimi və rejissor Adil İsgəndərovun Dövlət Dram teatrında fəaliyyəti dövründə – teatr xadimləri sırasında Fərəc Nağıyevin adına tez-tez rast gəlmək olurdu.
O, aktyor, rejissor, rəssam və bədii rəhbər kimi çalışdığı teatrlarda gənc istedadların da aşkar olmasında əməyini əsirgəməyib.
Fərəc Nağıyevin yaradıcılığına nəzər saldıqca, sənət aləmində onun bir inqilab olmasının şahidi olur insan. Görünür o, elə bunu nəzərdə tutub hər zaman deyirdi: Mənim qədrimi öləndən sonra biləcəklər.
Onlarla tamaşalara (“Aşıq Qərib”, “Əsli və Kərəm”, “Sevil”, “Aydın”....) eskizlər də hazırlayıb. Azərbaycan Dram teatrının rejissoru Adil İsgəndərovun təklifi ilə “Xırs quldurbasan” tamaşasına epiloq və proloqu şeirlə yazan da **Fərəc Nağı** olub. “Spartak” **əsərinin** ssenarisini hazırlaması onu bir qədər də məşhurlaşdırır.
Mehman”, “Səhər”, “Kəndlilər” filmlərində rol alan Fərəci “Məşədi İbad” filmində (bəylik donunu geyindirən) görənlər

bilirdilər ki, rejissorun məqsədi onun tikiş bacarığını göstərmək olub.

**Fərəc Nağı** incəsənətin fədaisi olmağla bərabər, səhnənin fəhləsinə belə çevrilməyi qəbahət hesab etməyib. Afişaların, dəvətnamələrin, səhnə quruluşunun hazırlanmasında onun əməyi unudulmazdır.

Həyatda olduğu kimi ailədə də rolu çox böyük olub Fərəc Nağıyevin. Ata kimi nə qədər hökümlü idisə, bir o qədər də mülayim, həyat yoldaşı kimi nə qədər diqqət tələb edirdisə, bir o qədər də nəvazişli, baba sevgisi isə tam başqa idi. Qızları ilə dost kimi, oğul övladları ilə isə çox ciddi rəftar edirdi.

1973-cü ildə Ağa Musa kimi Fərəc Nağıyev də 70 yaşında dünyasını dəyişir. Yaşadığı illər ərzində əslində ona miras qalmış küllü miqdarda var-dövlətdən yararlana bilməyən, əksinə, ailəsini aclıqdan qorumaq məqsədilə hər bir işin qulpundan yapışan bu istedadlı insanın da ömrü beləcə sona yetib.

## 3.2. Ağa Musa Nağıyevin varisləri sovet repressiyasi illərində

Hər iki övladının gənc yaşlarında dünya ilə vidalaşması Ağa Musanın belinin erkən bükülməsinə səbəb olur. Onun ümüd yeri, qızının adını daşıyan Ümmül Banu – nəvəsi olur.

Ümmül Banu saya-hesaba gələ bilməyən kapital sahibi olan iri neft sahibkarları Ağa Musa Nağıyevin – qız, Şəmsi Əsədullayevin – oğul nəvəsi olub.

Neft milyonçusu Ağa Musa Nağıyev ilə Şəmsi Əsədullayevin dostluğu hamıya bəlli idi. Ş.Əsədullayevin rəsmən ayrıldığı və Moskvada yaşayan (milliyyətcə rus olub) həyat yoldaşı qısqanclıq əlaməti olaraq, onun iflasa uğramasına səbəb olur. Ona bu vəziyyətdə yardım əli uzadan Ağa Musa olur. Ş.Əsədullayev keçmiş həyat yoldaşının hiyləsinə inanıb, onun məsləhəti ilə küllü həcmdə nefti Rusiyaya göndərir. Bundan xəbərsiz olan firmalar nefti qəbul etməkdən imtina edərkən, Ş.Əsədullayev xam malın geri qaytarılmasından təşviş keçirib, nefti ucuz qiymətlə satdırıb. Bu səbəbdən müflisləşən Şəmsi özünü öldürmək qərarına gəlir. Silahı gicgahına tuşlayarkən onu ölümdən xilas edən Ağa Musa Nağıyev olub. Ş.Əsədullayevi ölümdən qurtarmaqla bərabər, onu əvvəlki vəziyyətinə qaytarmaq məqsədilə, vaxt müddəti qoymadan, ona küllü miqdarda borc pul verib, əslində onu həyata qaytarıb.

Milliyyətcə alman olan dayələr Ümmül Banu üçün ananı (anası doğuş zamanı dünyasını dəyişir) əvəz edə bilməsələr də, ona verdikləri tərbiyəyə söz ola bilməzdi. Bir neçə dilə yiyələnib, savadlı böyüməsi əlbəttə ki, babaların diqqəti və milyonları əsasında başa gəlib.

Tale bu ailəni ömrü boyu təqib etdiyindən, sonradan Mirzə Əsədullayevin – atasının həbsi ilə əlaqədar Fransaya mühacirət

etməsi, Ümmül Banunun sevmədiyi və özündən çox yaşlı olan həyat yoldaşı Cəmildən uzaqlaşıb, demək olar ki, Fransaya qaçmasına təkan verib. Artıq Bakıda onu heç nə saxlaya bilməzdi: hər iki baba dünyasını dəyişmiş, müflisləşmiş ailələr və sevgisiz həyat.

Hər şey onun üçün bir qış günü başladı. Sovet İttifaqına qovuşmuş Azərbaycanda. Sonradan Ümmül Banu bunu öz əsərlərində belə təsvir edəcək: "Mən son dərəcə varlı müsəlman ailəsində dünyaya gəlmişəm. 1902-ci ildə bu qəribə və zəngin ailədə həyata göz açmışam. Ermənilərin ağına–bozuna baxmadan keçmişdəkilərin hayıfını almaq məqsədi ilə azərbaycanlıları qırmasının, azərbaycanlıların isə bu bəlanın qisasını Allaha tapşırdıqlarının şahidi olmuşam".

Fransada məşhurlaşmış bu əsrarəngiz Azərbaycan yazıçısı (Banin təxəllüsünü götürür) vətənini əslində məcburi olaraq tərk edib, mühacirlikdə yaşamağa məcbur olub.

Özünün dediyi kimi onu ananı əvəz edən ipək saçlı, ağ dərili alman qadını, fröylen (fr.) Anna tərbiyə edib. Bu qadın ona ana olduğu kimi qulluqçu və arxa da olub. Nənəsi (Ş.Əsədullayevin həyat yoldaşı) bu qadın ilə heç cürə yola getmirdi. O, fr. Annanın yanından ötərkən yerə tüpürər, bununla ürəyini soyudardı. Amma ağlına da gətirməzdi ki, fr.Anna bu qızcığaz üçün dünyaya bir pəncərə olacaq.

Fr. Annanın tərbiyəçi kimi ailəyə daxil olmasında Mirzə Əsədullayevin rolu böyük idi. O vaxt Bakıya Avropanın nəfəsi artıq güclü şəkildə dəyməkdə idi. Mirzə Əsədullayev neft şirkətinin (iş prosesi ilə əlaqədar) məsələlərilə bağlı olaraq tez-tez Moskvaya, Varşavaya və Berlinə səyahət etdiyindən "avropalaşmaya" daha yaxın olub. Görünür o, qızını hələ körpəlikdən bu istiqamətdə tərbiyə etməyi və Avropa mədəniyyəti ilə qovuşdurmağı qərara almışdı.

Banin xatirələrində yazırdı: "Bütün bunlara baxmayaraq, dünyanın pəncərəsi üzümə bir az açılsa da, qapısı bağlı idi və bu belə də qalacaqdı. Məni gözləyən həyat tərzini təsəvvürümə belə gətirirdim: milyonçulardan birinin oğluna ərə gedəcək, qaş-daş içində itəcəkdim. Çoxlu uşaqlarım olacaqdı. Ərim gözəl və mənim məhəbbətimə layiq olacaqdı. Heç düşünməzdim ki, müharibə və inqilab – hər ikisi sərt və müddətli olsa da, – üzümə bütün qapıları açacaq və həyatımı tamam başqa səmtə yönəldəcək".

1918-ci ildə Mirzə Əsədullayev həbs edilir. Dövlətli, nazir vəzifəli və həm də "Mürtəce" Partiyasının lideri olduğu üçün onun həbsdən qurtulmağa ümidi yox idi. Artıq gənc qızcığazı ərə vermişdilər. Ümmülbanunu özündən 20 yaş böyük həyat yoldaşı Cəmil də "Mürtəce" Partiyasının lideri idi.

Mirzənin xaricə getməsi üçün pasportun alınmasında Cəmil böyük köməklik göstərir və məcburiyyət qarşısında qalıb, Ümmül Banunu Parisə atasının yanına göndərməli olur.

Ümmül Banu xatirələrində yazır: "Konstantinopol vağzalında məni yola salarkən, Cəmil məndən ayrılmağına görə ağlayırdı. Mən də ağlamaq istəyirdim. Sevincdən, sevgisiz həyatdan qurtulduğuma görə. Artıq canımla tək qalmışdım. Amma qorxu məni tərk etmirdi. Özüm də hiss etmədən bir anlığa sevmədiyim bu insanın yanımda olmasını arzuladım".

Gənc və gözəl olduğundan, Ümmül Banu Parisdə maneken işləməyə dəvət alır. Bu sahədə uğursuzluğa məruz qaldığı vaxtlar olsa da, burada o, böyük həyat təcrübəsi qazanır. Sonradan yazdığı "Qafqaz günləri" romanında bu işi haqda çox faktlar göstərib. Həyatda çətinlik çəksə də, əldə etdiyi azadlıqdan həzz alırdı. Ümmül Banu sonradan satıcı, katibə, tərcüməçi və jurnalist peşələrini də sınaqdan keçirir.

Ümmül Banu keçdiyi keşməkeşli həyat yolunu qələmə alır. Beləcə onun "Qafqaz günləri" adlandırdığı romanı işıq üzü görür.
Ümmül Banu ikinci romanını "Paris günləri" adlandırır. Tezliklə Qallimar nəşriyyatına təqdim edəcəyi başqa bir romanını da bitirir. Adının çətinlik yaratdığından, artıq Banin təxəllüsü ilə şöhrətlənmiş yazıçıya çevrilir.
Yaradıcılıq xüsusiyyətlərinə görə Banin Parisin ədəbiyyat dairələrində – emiqrant təbəqələrindən olan xüsusi qatlarda mühüm yer tutur. Baninin qeydlərində belə bir məqama rast gəlmək olur:
"İftixar hissi ilə qanadlanıb uçurdum. Küçə-küçə qaçaraq kitablarım satılan bütün mağazalara dəymək istəyirdim. Buna baxmayaraq, özümü yazıçı hesab etmirəm. Sadəcə olaraq hadisələri şərh edirəm".
O, islam dini mühitində böyüsə də, dindar olmayıb. Paris isə onu tamamilə ateist edir. Bir vaxtlar Paris üçün burnunun ucu göynədiyini qeyd edən Banin, Parisdə olarkən özünü sükansız, yelkənsiz gəmiyə bənzədirdi.
Ondan müsahibə alanlara anasız böyüdüyü və övladının olmadığı üçün təəssüfləndiyini bildirirdi. Əldə etdiyi müvəffəqiyyətlərə baxmayaraq, o, taleyindən şikayətlənirdi. Şəraitin, təsadüflərin, taleyin onu oyuncağa çevirdiyini vurğulayırdı. Axı o, ömrü boyu inam-əqidə uğrunda çarpışıb, xeyirxahlıq uğrunda çalışıb.
Uzun ömürlü olub, maraqlı həyat keçirib, azadlıq əldə etmiş Banin həyatını tənhalıqda tərk etdi.
Qeydlərindən məlum olur ki, vətənini dərin məhəbbətlə sevsə də, nədənsə həmyerliləri ilə görüşməkdən boyun qaçırırdı. Qohumları ilə əlaqə yaratmaq arzusunda olmayıb. Atasından incik düşən Banin, ömrünün sonunadək onun məktublarını da oxumayıb.

Ömrünün sonuna yaxın ayağından aldığı zədə ucbatından, oturaq həyat keçirən Banin qiraət etməkdən usanmır və gənc

müəlliflərin əlyazmaları ilə tanış olur. Yaradıcılıq hissləri ilə yaşayan azərbaycanlı Ümmülbanu – iki nəhəng milyonçunun nəvəsi, ömrünün 75 ilini qürbətdə keçirən yazıçı – yazışmalarını bir neçə dildə aparırdı.

Fransız ədəbiyyatının axarına düşməsinə baxmayaraq, hər zaman müsahibələrində Azərbaycanın sadiq qızı olduğunu vurğulayırdı. Sanki bunun təsdiqi olaraq, Banin "Azərbaycan evi" Paris Assosiasiyasının fəxri üzvü seçilmişdi .

1992-ci ildə dünyasını dəyişərkən, nəşinin "yandırılmasını" vəsiyyət etmişdi. Buna səbəb ömrünün sonunadək özünü idarə etmək iqtidarında olmaqla bərabər hər zaman həyat kredosu hesab etdiyi azadlıq idi. O, bununla sanki azadlığı hər şeydən üstün tutduğunu sübut etdi.

Aprel çevrilişi olmasaydı, bəlkə də, o Qafqazdan Parisə səyyah olmazdı. Əsrimizi səyyah kimi yaşayan bir qadının taleyi – məhz bir qəlbin qəribə taleyi də çox güman ki, yaşanmazdı.

Gənc yaşlarında, heç bir xüsusi peşəsi və ixtisası olmadan o zamanın amansız Avropa mühitinin ağuşuna atılsa da itib-batandan az sonra təkcə gözəlliyi ilə Paris salonlarını heyrətləndirməklə kifayətlənməyib qələmi ilə Fransa və bütövlükdə Avropa ədəbi həyatına bir Qafqaz ab-havası gətirən Banin mənsub olduğu nəsillərin adını inamla ucaltmağa nail olmuşdu. Onun Ümmülbanu həyatı, Banin taleyi – Nağiyevlərin 1920-ci ildən sonrakı qismətini sanki özündə formalaşdırmış, əks etdirmiş bir taledir.

Bakının apreləqədərki tarixi ilə maraqlananlar bu gün o qədər də çox deyildir. O tarix həm də vətənimiz və xalqımızın tarixinin üzvi tərkib hissəsi kimi düzgün həyat salnaməsini əks etdirir: insanlar necə yaşayıb, arzuları nə olub, geyimləri nə cürə olub?

XIXəsrin axırlarında, XX əsrin əvvəllərində Azərbaycan qadını deyəndə, gözümüzün önündə stereotip qadın obrazı:

sivilizasiyadan uzaq, çadralı, dəbdən xəbərsiz, savadsız bir qadın dayanır.

Bu yönümdə Ümmülbanu Azərbaycan ədəbiyyatı tarixində şux və əsrarəngiz bir qadın kimi görünür. Uzun illər onun həyat tarixçəsi ilə maraqlananların sayı çox deyil. Halbuki, bu həyatdan neçə-neçə cild yazsan da qurtaran deyil.

Hər səhərin açılmasında bir xeyir, qaranlığın sonunda bir işıq, hər çıxılmazlığın qurtaracağında bir nicat, qəm-qüssə və kədərin sonunda bir sevinc, şadlıq, bəxtiyarlıq olur. Bu həyatın aksiomasıdır.

Bu gün, XX əsrin sonlarında yenidən dövlət müstəqilliyinə yiyələnmiş Azərbaycanımızın quzeüində, suveren Azərbaycan Respublikasında öz əməyi, işi, gücü, fəaliyyəti ilə xalqın tərəqqi yolunda xidməti olan bir kəsin haqqı özünə qaytarılır, haqsız yerə yaxılmış qaralar silinib təmizlənir, ağa-ağ, qaraya-qara deyilir. «Kapitalist», «istismarçı» və s. ləkələr vurulmuş Tağıyevlərin, Nağıyevlərin hörmət-izzətinə yiyələnir…

**Nəticə**

Məlumdur ki, XIX əsrin ikinci yarısından etibarən Şimali Azərbaycanda neft sənayesi yüksək sürətlə inkişaf edirdi. Xüsusilə 1872-ci ildə iltizam sisteminin ləğv olunması neft sənayesinin inkişafına çox güclü təkan verdi.

Nisbətən azad sahibkarlıq üçün yaranan şərait, neft ilə zəngin torpaqların faktiki olaraq xüsusi mülkiyyətə keçməsi (30-99 illik icarə əslində belə imkan yaradırdı) neft sənayesinin sürətli inkişafını şərtləndirirdi. İltizam sisteminin ləğvindən bir il sonra Bakıda cəmisi 12 neft şirkəti fəaliyyət göstərirdisə, əsrin sonunda belə şirkətlərin sayı 140-a çatmışdı. Onu da qeyd edək ki, xanlıq dövründə bir neçə quyu istisna olunmaqla, xan xəzinəsinin ixtiyarındakı neft quyuları da 1806-cı ildəki rus işğalından sonra büsbütün çar hökumətinin əlinə keçmiş və bu

hökumət də həmin mədənləri ya iltizama vermiş, ya da çox yararsızlıqla özü istismar etmişdi.

İltizam sistemi ləğv edilənə qədər Azərbaycanın neft sənayesi başlıca olaraq yerli kapitalistlərin əlində idi.

Çar hökuməti neft istehsalının xüsusiyyətlərini bilmədiyindən, habelə özünün mürtəce-feodal xislətində bu sahəni iltizama versə də çalışırdı ki, belə iltizamçılar bu sərvətin əsl sahibi olan azərbaycanlılardan olmasın. Buna da nail olurdu. Beləki, 1872-ci ilədək iltizamçılar arasında bir nəfər də azərbaycanlı olmamışdı.

Lakin iltizam sisteminin ləğvi, neft istehsalatı sahəsində kapitalist-bazar münasibətlərinin bərqərar olması çarizmin istəyindən asılı olmayaraq, öz sözünü deyir. İlkin kapital yığımı şəraitində azərbaycanlı sərmayədarlar meydana çıxır. Tezliklə onların arasından H.Z.Tağıyev, A.M.Nağıyev, Ş.Əsədullayev, və b. kimi iri sahibkarlar seçilməyə başlayır.

Ağa Musa Nağıyev XIX əsrin 70-ci illərindən sonra neftçıxarma və neft emalı işinə başlamışdı. 1900-cü ildə A.M.Nağıyevin hasil etdiyi neft 7,5 milyon pud olmuşdu. 1908-ci ildə Ağa Musa Nağıyevin Ramanadakı və Sabunçudakı neft mədənlərində 634 nəfər işləyirdi. Onun vəfatından sonra neft mədənləri və sənaye müəssisələrindən istifadə etmək üçün «Musa Nağıyev varisləri» adlı Səhmdar Cəmiyyəti təşkil olunmuşdur. Cəmiyyəti Mirzə Şəmsi oğlu Əsədullayev, Məlikməmməd Kərimov və Tağı Ağa Əli oğlu Nağıyevin daxil olduğu qrup idarə edirdi. Cəmiyyətin Binəqədidə, Sabunçuda, Zabratda, Bülbülədə, Qalada, Binədə, Əmircanda, Xırdalanda, Digahda, Masazırda, Fatmayidə, Biləcəridə, Sarayda və Zığda mədənləri var idi.

49 yaşlı Ağa Musa Nağıyev zəhməti, fərasəti və müdrikliyi hesabına məşhur milyonçuya çevrilir. Amma heç vaxt qənaətcilliyindən əl çəkməyir.

Görünür ki, yoxsul uşaqlıq və gənclik illərinin məhrumiyyətlərinin qorxusu ömrü boyu qeyri-orjinal adamın canından çıxmamışdı.

Rusiya Dövlət bankının göstəricilərinə görə 1879-cu ildə, 30 yaşlı Ağa Musanın əmlakı 30 min manat məbləğində qiymətləndirilirdi. XIX əsrin 80-cı illərinin ortalarında Ağa Musa Nağıyevin ticarət dövriyyəsi artıq 700 min rubla çatmışdır. Ağa Musa Nağıyevə II gildiya tacir hüququ verilmişdir.

O, 1887-ci ildə "Musa Nağıyev" adlı neftayırma firmasını təsis edir. Kapitalın və istehsalın görünməmiş təmərküzləşməsi və sahibkarlığın səhmdar formasının daha çox yayıldığı bir şəraitdə Ağa Musa Nağıyevin firması elə milli sahibkarlıq müəssisələrindən olub ki, burada istehsalatın təşkilinin fərdi-ailəvi xüsusiyyətləri özünü müəyyən qədər saxlamışdı. Artıq 90-cı illərin əvvəllərində Ağa Musa Nağıyevin sərvəti durmadan artırdı. Belə ki, zavod və ticarət müəssisələrinin illik ticarət dövriyyəsi 1 milyona çatmışdı. Təmiz gəlir isə 200 min manat olmuşdu. Bunun nəticəsi idi ki, 1893-cü ildə Ağa Musa Nağıyev I gildiya tacir hüququ qazanır.

Kəskin ağlı, səbri, işgüzarlığı, fitri istedadı, biznesin perspektivlərini düzgün duymaq hesabına, öz əməyi hesabına milyonçu olmuş Ağa Musanın xeyriyyəçilik və mesenatlıq fəaliyyətindən xüsusi bəhs olunmalıdır. O, millətinə canı yanan bir sahibkar kimi Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin fəaliyyətində yaxından iştirak etmiş, çoxsaylı xeyriyyə təşkilatlarının üzvü və himayəçisi olmuşdur.

Onun paytaxtımızı bəzəyən onlarla binaları gözəl memarılq nümunələridir. Binaların tikilməsində Şərq və Avropa memarlıq

məktəblərinin nümunələrindən istifadə etməklə bərabər, arxitektura və dizayn məsələsində Ağa Musanın özünün təklifləri, mülahizələri əsas götürülmüşdür. Yüksək zövqə malik olan Ağa Musanın təkliflərində simmetriyanın son dərəcə dəqiqliklə gözlənilməsi, binanın əzəmətli və fasadının cəlbedici olması üçün verdiyi məsləhətlər bu gün də memarları heyrətləndirməklə bərabər onun fitri istedadına dərin rəğbət yaratmaqdadır.

Bakının ən çox gözə gəlimli yerlərində Azərbaycan memarlığının nümunələri kimi görünən tikililər – məhz Ağa Musa Nağıyevin şəxsi vəsaiti və təklifləri əsasında inşa edilmişdir. Onun binalarından bəziləri bu gün elmimizin məbədlərindəndir. Şərəfli bir ömür yaşayan, taleyin hökmü ilə neçə-neçə sınaqlara məruz qalan bu insan üçün, onun əbədiliyi üçün ən gözəl xatirə. Ağa Musanın ölümündən keçən az qala yüz il ərzində də onun mənsub olduğu xalqa xidmət göstərən binalar.

# İSTİFADƏ EDİLMİŞ QAYNAQLAR VƏ ƏDƏBİYYAT SİYAHISI

## *Azərbaycan dilində*


1. Ağayev Ə. Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz. Bakı, 2000.
2. Azərbaycan EA Əlyazmaları İnstitutu, H.Zərdabinin arxivi, f. 3, sax. vah. 163.
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f.46, siy.2, iş.395.
4. ARDTA, f.46, siy.12, iş.215.
5. ARDTA, f.92, siy. 3,iş 459.
6. ARDTA, f.92, siy. 3, iş 119.
7. Azərb.DTA, f.92, siy. 1, iş 30.
8. ARDTA, f. 92, siy. 5, iş 7.
9. ARDTA, f.92, siy. 1, iş 1205.
10. ARDTA, f.92, siy.1, iş 1817.
11. ARDTA, f.92, siy. 3, iş 615.
12. ARDTA, f.92, iş 242.
13. ARDTA, f.92, iş 106.
14. ARDTA, f.335, siy.1.
15. ARDTA, f.338, siy.1, iş 360.
16. ARDTA, f.. 339, siy. 1, iş 621.
17. ARDTA, f. 372, siy. 1, iş 29.
18. ARDTA, f.389, siy. 1, iş 8.
19. ARDTA, f.. 389, siy. 4, iş 725.
20. ARDTA, f.509, siy. 1, iş 16.
21. ARDTA, f.509, siy. 1, iş 105.
22. ARDTA, f. 509, siy. 1, iş 106.
23. ARDTA, f.509, siy. 1, iş 137.

24. ARDTA, f. 509, siy. 1, iş 211.
25. ARDTA, f.509, siy. 1, iş 225.
26. ARDTA, f. 509, siy. 1, iş 242.
27. ARDTA, f.509, siy. 1, iş 244.
28. ARDTA, f.. 584, siy. 1, iş 10.
29. ARDTA, f.584, siy. 1, iş 102.
30. Azərbaycan Respublikası SPİHMDA, f.276, siy.8, iş 18.
31. Azərbaycan Respublikası SPİHMDA, f.276, siy.8, iş 22.
32. Azərbaycan Sovet Ensiklopediyası. c.1-10, B: 1976-1984.
33. Azərbaycan tarixi. II cild, Bakı, 1964.
34. Babaşov M. Bakı müsəlman ruhani "Səadət" cəmiyyəti //"Elm" qəzeti, 1991, №13.
35. Babaşov M. Milli təhsilimizin inkişafında xeyriyyəçi-maarifpərvər qurumların rolu. Qafqaz Universitetinin quruluşunun II ildönümünə həsr olunmuş elmi-metodik konfransın materialları. Bakı, 1995.
36. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1991.
37. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı, 1987.
38. Əlibəyli H.//Talan. "Müxalifət" qəzeti, 1992, 28 aprel.
39. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi (dərs vəsaiti). I hissə. Bakı, 2001.
40. İbrahimov E. Bakı nefti //"Səhər", 1990, 26 aprel.
41. İlkin Qılman. Bakının üç üləması//"Ədəbiyyat və incəsənət", 1990, №32.
42. İlkin Qılman. Xeyriyyə və maarif cəmiyyətləri. "Bərəkət", 1991, 10 sentyabr.

43. “İrşad” qəzeti, 1906-cı ilin müxtəlif sayları.
44. İlkin Qılman. Bakı və Bakılılar. Bakı, Zaman, 1999.
45. İlkin Qılman. Şəxsiyyət. Bakı, Şur, Bakı,1995.
46. İsmayıl Mahmud, İbrahimov Marat. El atası. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1994.
47. İsmayılov Rəşid bəy. Azərbaycan tarixi. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993.
48. Məmmədov X. Sultan Məcid Qənizadə. Bakı, 1983.
49. Məhərrəmov N., Babaşov M. Qafqaz müsəlmanlarının atası//“Ədəbiyyat”, 1991, №6.
50. Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, 1973.
51. Nağıyeva D. Xalq üçün ömrünü şam kimi əridən. Bakı, 2007.
52. Nağıyeva D. Ömrün səhifələri. Bakı, 2010.
53. Nağıyeva D. Zamanın sorağında. Bakı, 2011.
54. Nərimanov N. Hacı Zeynalabdin Tağıyevin 50 illik məişətə və cəmaətə xidmətləri. Bakı,1994.
55. Ordubadi M.S. Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi). Bakı, 1991.
56. Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı, Elm, 1991.
57. Sarabski H.Q. Köhnə Bakı. Bakı, 2000.
58. Seyidov F.Ə. Qori seminariyası və onun məzunları. Bakı, Maarif, 1988.
59. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, 1989.
60. Süleymanov M. Ağa Musa Nağıyev. Bakı, 1994
61. Süleymanov M. Hacı Zeynalabdin Tağıyev. Bakı, 1996.
62. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu XX yüzilliyin əvvəlləri). Bakı, 1999.

63. Tağıyev Ə.S. XX əsrin əvvəllərində Azərbaycanda olan cəmiyyətlərin maarifçilik fəaliyyətinə dair //Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi ali məktəblərinin Elmi əsərləri. XI seriya, Bakı, 1978.

64. Fətulla Fəcri. Fətulla bəy Rüstəmbəyov. Bakı, 2004.

65. Həsənbəy Zərdabi. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1960, s.211.

66. Hüseyn Ərəblinski. Aktyorun həyat və fəaliyyətinə dair sənədlər məcmuəsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1967.

67. Cavadov C. Azərbaycanda xeyriyyəçilik hərəkatı (XIX əsrin sonu və XX əsrdə). Bakı, 1999.

## *Türk dilində*

68. Ali Haydar Bayat. Nüseyinzade Ali Bey. Ankara: Atatürk Kültür Merkezi Başbakanlığı Yayını, 1998.

69. Babaşov M. Ahund Mir Muhammed Kerim el-Bakuvinin həyatı ve eserleri.//Qafqaz Üniversitesi ilmi seminarlar toplusu. Baku, 1998.

70. Betül Aslan. I Dünya Savaşı Esnasında Azerbaycan Türklerinin Anadolu Türklerine Kardaş Kömeği (Yardımı) ve Bakü Müslüman Cemiyet-i-Hayriyesi. Ankara, Atatürk Kültür Merkezi Başbakanlığı Yayını, 2000.

## *Rus dilində*

71. Бабашов М. Бакинское мусульманское духовное общество «Саадет». Материалы республиканской научно-методической конференции «Актуальные вопросы теории и методики преподавания языков и литературы народов стран Ближнего и Среднего Востока». Ваку, 1990.

72. Гаджибейли Джейхун. Избранные. Баку, 1993.

73. Ежегодник, Баку и его районы. Баку, 1908.

74. Ежегодник, Баку и его районы. Баку, 1909.

75. Ежегодник, Баку и его районы. Баку, 1912.

76. Ежегодник, Баку и его районы. Баку, 1913.

77. Ежегодник, Баку и его районы. Баку, 1914.

78. Исмаилов М.А. К вопросу о ликвидации откупной системы в нефтяной промышленности Азербайджана. Труды института истории и философии АН Азерб.ССР, т. II. Баку, 1952.

79. Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку, 1982.

80. Лисичкин С.М. Очерки истории развития отечественной нефтяной промышленности. М.-Л;1954.

81. Обзор Бакинской нефтяной промышленности за 1896. Баку, 1897.

82. Обзор Бакинской нефтяной промышленности за 1900 г. Баку, 1901.

83. Обзор Бакинской нефтяной промышленности за 1904 г.Баку, 1905.

84. Сеидзаде Д.Б. Из истории Азербайджанской буржуазии начала XX века. Баку, 1997.

85. Списки населенных мест Российской империи (По Кавказскому краю). Тифлис, 1870.

86. Стригунов И.В. Из истории формирования Бакинского пролетариата 70-90 гг. XIX в. Баку, 1960.

87. Сумбатзаде А.С. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане. Баку, 1972.

# СВѢДѢНІЕ

Форма № 31.

объ открывшемся наслѣдственномъ имуществѣ, подлежащимъ обложенію пошлиною, на основаніи Высочайше утвержденнаго 15 іюля 1882 года Положенія о пошлинахъ съ имуществъ, переходящихъ безмездными способами

I.

Фамилія, имя, отчество, званіе, родъ занятіе и время смерти лица, оставившаго наслѣдство: Нагіевъ Ага Муса

II.

Было-ли описано имущество умершаго въ охранительномъ порядкѣ и по распоряженію какого мироваго судьи:

III.

Не осталось-ли послѣ умершаго духовнаго завѣщанія и если осталось, то когда, кѣмъ и въ какой судъ оно представлено къ утвержденію: Завещание покойнаго не оказалось

IV.

Время вступленія наслѣдниковъ въ фактическое владѣніе имуществомъ: Постановлениями Окружного Суда назначены уполномоченные на продолжение дела от 5 марта 7 г. Фатулла бек Рустамбеков и Таги Алиевич Нагиев и от 11 марта Уста Салман ханум Нагиева

V.

Фамилія, имя, отчество, званіе наслѣдниковъ, степень ихъ родства, или свойства съ наслѣдодателемъ и мѣстожительство ихъ. Еще не утверждена

# НЕДВИЖИМОЕ ИМУЩЕСТВО

| № | Наименованіе имущества, составъ его (количество десятинъ въ имѣніи, построй̆ки и пр.), мѣстонахожденіе и подробное обозначеніе документовъ и др. данныхъ, на основаніи которыхъ опредѣлена стоимость имущества. Въ случаѣ же нахожденія имущества въ спорѣ слѣдуетъ обозначить: кѣмъ, когда и въ какомъ учрежденіи предъявленъ искъ | ЗАКОННАЯ ОЦѢНКА: Для взиманія городскаго оцѣночнаго сбора | ЗАКОННАЯ ОЦѢНКА: Для взиманія казенныхъ и земскихъ сборовъ | ЗАКОННАЯ ОЦѢНКА: Для застрахованія, указавъ гдѣ застрахов. имущ. | ЗАКОННАЯ ОЦѢНКА: Для залоговъ въ кредитныхъ учрежденіяхъ | ЗАКОННАЯ ОЦѢНКА: По крѣпостнымъ актамъ | Оцѣнка спеціальная [1] | Гдѣ заложено имущество, сколько и по какимъ документамъ на немъ числится долгу и недоимокъ по день смерти наслѣдодателя |
|---|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| I. | 3/4 участія въ общемъ имуществѣ съ наслѣдниками Юсуфа Нагіева, состоящемъ въ каменныхъ жилыхъ домахъ въ 5 участкѣ города Баку по Молоканской, Красноводской, Биржевой и Большой Морской улицамъ подъ №№ I2, I3, I4, на собственномъ участкѣ въ 2.200 кв.саж. | По всему имуществу «Саламандра» 458470 | 880857<br>25% | 554137<br>«Россія»<br>789615<br>1.343752<br>335938<br>1679690 | | 5.800 | | |
| | Часть М. Нагиева по наивысшей оценке 1.259767,50 | | | | | | | |
